Xalqın qəzeti!

# Xalq qəzeti

№ 61 (31030) 11 aprel 2026-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

## Müharibədə qələbə ədalətli tərəfin qanuni haqqıdır

*Regional savaşlar qlobal ağrıya çevrilir*



**Müasir beynəlxalq sistem paradoksal bir mərhələdən keçir. Qloballaşma dərinləşdikcə qarşılıqlı asılılıq artır, eyni zamanda, münaqişələr daha uzunmüddətli, daha dağıdıcı və daha qeyri-müəyyən xarakter alır. Bu gün dünya xəritəsinə baxdıqda bir həqiqət açıq görünür: müharibələr iqtisadiyyatda, informasiya məkanında və diplomatik platformalarda paralel şəkildə aparılır. Və ən təhlükəlisi – bu münaqişələrin əksəriyyətinin sonu görünmür.**

*(ardı 3-cü səhifədə)*

# 2018-ci ilin aprel seçkisi Azərbaycanı tarixi zəfərə apardı

*Xalqımız həmin gün 15 illik uğurların davamına səs verdi*




**Həmin siyasi faktın – dövlət müstəqilliyimizin bərpasından sonra elan edilmiş ilk növbədənkənar prezident seçkilərinin vacibliyi, hazırlanması və yüksək səviyyədə keçirilməsi barədə bu yazıda da mümkün qədər söz açacağıq. Ancaq ənənəni pozaraq əvvəlcə seçkidən təxminən qırx gün sonra nail olduğumuz bir uğuru xatırlatmaq istəyirik.**

Ekspertlər yazırlar ki, seçkidən az sonra – 2018-ci il mayın 20-dən 27-dək Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt kəndi istiqamətində həyata keçirilən əməliyyat nəticəsində Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu Günnüt kəndini, Ağbulaq yüksəkliyini, Qızılqaya dağını və Qaraqaya dağını işğaldan azad etmişdi. Nəticədə, Dərələyəz mahalının Arpa kəndi Azərbaycan Ordusunun nəzarəti altına keçmişdi. Ümumiyyətlə isə, 11 min hektarlıq ərazi işğaldan azad edilmişdi. Həmin uğurlu hərbi əməliyyat Azərbaycan Silahlı Qüvvələrinə İrəvan – Keşişkənd (Yexeqnadzor) – Gorus – Laçın – Xankəndi avtomobil yoluna nəzarət etməyə imkan vermişdi.

*(ardı 3-cü səhifədə)*

## ABŞ-ın vasitəçiliyə sadiqliyi və Qafqazda gerçəklik




Səhifə ⇨ 4

## Nikol Paşinyanın brifinq mesajları: təhlükədən təhlükəyə



Səhifə ⇨ 4

## ABŞ-ın vitse-prezidenti Brüsseli niyə tənqid etdi?



Səhifə ⇨ 5

## AİB-in ölkəmizdə iqtisadi artıma marağı və dəstəyi




Səhifə ⇨ 7

## Silahlar münaqişəni daha da qəlizləşdirdi

*Dünya atəşkəs və siyasi-diplomatik təmasların sülhlə bitəcəyini gözləyir*



**Beynəlxalq münasibətlər sisteminin arxitekturasında mühüm konseptual transformasiya prosesləri intensivləşir. Aprel ayında qeydə alınan strateji siyasi hadisələr makrosəviyyəli konfliktlərin həlli istiqamətində praqmatik mexanizmlərin tətbiqini bilavasitə şərtləndirir. Mövcud qlobal vəziyyət aparıcı dövlətlərin xarici siyasət doktrinalarında hərbi eskalasiya paradiqmasından diplomatik tənzimləmə modelinə institusional keçidi nümayiş etdirir.**

Çoxqütblü dünya nizamının formalaşması ərəfəsində yaranmış dərin geosiyasi qütbləşmələr mərhələli şəkildə kompromis axtarışları ilə əvəzlənir. Hərb meydanlarındakı daimi gərginlik amili dövlətlərin resurslarının tükənməsinə, iqtisadi-logistika zəncirlərinin qırılmasına gətirib çıxarıb. Nəticədə, beynəlxalq idarəetmə mərkəzləri münaqişələrin həlli üçün siyasi dialoq institutlarının potensialından maksimum səviyyədə istifadə etməyə məcbur qalıb.

*(ardı 10-cu səhifədə)*

## Bakının "daş yaddaşı"nı göz bəbəyi kimi qorumalıyıq



Səhifə ⇨ 10



## "Qaregin məsələsi" seçkidən sonraya qalıb

Səhifə ⇨ 5

## Süni intellektlə saxta material yayanlar ciddi cəzalandırılacaq

Səhifə ⇨ 6

# Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi əməkdaşlarının “Tərəqqi” medalı ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikasi Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyinin yaradılmasının 10 illiyi münasibətilə **qərara alıram:**

Vətəndaşların mənzil təminatının yaxşılaşdırılması sahəsində xidmətlərinə görə Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyinin aşağıdakı əməkdaşları “Tərəqqi” medalı ilə təltif edilsinlər:

Qədimov Çingiz Sahib oğlu
Məmmədov Elşad Pənah oğlu
Salmanov Azər Ağababa oğlu
Şərifov Rizvan Həmid oğlu
Şiriyeva Kəmalə Məzahir qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 aprel 2026-cı il**

# İqtisadi Şuranın iclası



**Aprelin 10-da İqtisadi Şuranın növbəti iclası keçirilib.**

Nazirlər Kabinetindən bildiriblər ki, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində “Sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin aradan qaldırılması və biznes mühitinin yaxşılaşdırılması islahatları üzrə İşçi Qrup”u tərəfindən hazırlanan “Tikinti və kommunal infrastruktura qoşulma” və “Sənaye” sahələrində sahibkarların qaldırdığı aktual məsələlər və problemlər ətraflı müzakirə olunub.

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi və İşçi Qrupun rəhbəri Natiq Əmirovun gündəlikdə yer alan məsələlər üzrə məruzəsi dinlənilib.

İclasda təqdim olunan məsələlərə dair İqtisadi Şuranın üzvləri və dəvət olunanlar ədliyyə naziri Fərid Əhmədov, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi Mətin Eynullayev, Fövqəladə Hallar Nazirliyi Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin rəisi Cəbrayıl Xanlarov, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Namiq Hümmətov çıxış ediblər.

Yekunda iclas iştirakçılarının rəy və təklifləri nəzərə alınmaqla müzakirə olunan məsələlərin həlli istiqamətində müvafiq normativ-hüquqi aktların layihələrinə dəyişiklikləri hazırlayaraq Nazirlər Kabinetinə təqdim olunması barədə qərarlar qəbul olunub və aidiyyəti qurumlara tapşırıqlar verilib.

***XQ***

# İnqa Ruqiniene Heydər Əliyev Mərkəzində

**Litva Respublikasının Baş naziri İnqa Ruqiniene aprelin 10-da Heydər Əliyev Mərkəzində olub.**



Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov qonağa dünya memarlığının nadir incilərindən sayılan Mərkəzin binası haqqında məlumat verib. Qeyd olunub ki, Heydər Əliyev Mərkəzinin fəaliyyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının və Ulu öndərin irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib.

Buradakı Heydər Əliyev Muzeyində Ulu öndərin həm sovet dövründə, həm də ölkəmizin müstəqilliyi illərində fəaliyyət konsepsiyasının müxtəlif aspektləri virtual şəkildə təqdim olunur.

Baş nazir İnqa Ruqiniene əvvəlcə Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə - 1969-cu ildən 2003-cü ilə qədər rəsmi istifadəsində olan avtomobillərə baxıb.

Ümummilli liderin həm sovet hakimiyyəti, həm də müstəqillik illərində fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən eksponatlar, fotoşəkillər və multimedia zalı qonaqda böyük maraq doğurub.

“Azərbaycan inciləri” sərgisi ilə də tanış olan İnqa Ruqinieneyə bu sərgidə ölkəmizin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsi ilə bağlı nadir eksponatlar nümayiş etdirildiyi bildirilib. Burada qədim peşələrin, o cümlədən Azərbaycan xalçaçılıq məktəbinin nadir nümunələrinin sərgiləndiyi, qədim çalğı alətlərimizin orijinal şəkildə - səsli formada təqdim olunduğu diqqətə çatdırılıb. Qeyd olunub ki, Azərbaycan milli geyimlərinin, qədim sikkələrin nümayiş etdirildiyi sərgiyə gələnlər burada müxtəlif dillərdə müqəddəs kitabları da görə bilərlər.

Daha sonra qonaq “Kukla incəsənətdə” sərgisi ilə tanış olub. Bildirilib ki, sərgidə çini, kağız, plastik, taxta və parçadan hazırlanan ənənəvi kuklalarla yanaşı, müasir texnologiyalardan istifadə olunaraq yaradılan modern kuklalar da mövcuddur.

"Musiqi alətləri: Birlik və müxtəliflik" sərgisi ilə tanışlıqdan sonra İnqa Ruqiniene Azərbaycan xalçalarından ibarət "İlmələrin rəqsi" sərgisinə baxış keçirib.

"Klassik avtomobillər sərgisi" ilə də tanış olan Baş nazir daha sonra xatirə kitabına ürək sözlərini yazıb.

Sonda Litvanın Baş nazirinə xatirə hədiyyəsi təqdim edilib, o, Mərkəzdən xoş təəssüratla ayrılıb.

***XQ***

# Litvanın Baş naziri İçərişəhərdə





**Aprelin 10-da Litvanın Baş naziri İnqa Ruqiniene dünya mədəni irs abidələri sırasında yer alan “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu ilə tanış olub.**

Gəzinti zamanı Litvanın Baş nazirinə UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmiş İçərişəhər, həmçinin burada aparılan təmir, abadlaşdırma və bərpa işləri barədə ətraflı məlumat verilib.

Qeyd olunub ki, İçərişəhər ərazisində müxtəlif əsrlərə aid nadir tarixi memarlıq abidələri qorunub saxlanılır.

Sonra Qız qalası ilə tanış olan qonağa qala divarlarının inşa tarixi barədə ətraflı məlumat verilib. Bildirilib ki, eramızdan əvvəl VII-VI əsrlərdə əsası qoyulmuş Qız qalası XII əsrdə bərpa edilib. Hündürlüyü 28 metr, diametri 16-16,5 metr olan abidə silindr formalı əsl qaladan və cənub tərəfdən ona bitişən iri dayaq tikilidən ibarətdir.

İçərişəhərdə XV əsrə aid ölkə əhəmiyyətli abidə – Buxara karvansarası ilə tanışlıq zamanı İnqa Ruqiniene bu tarixi məkanın keçmişi və bərpa prosesi barədə ətraflı məlumatlandırılıb. Bildirilib ki, qədim ticarət magistralı üzərində ucaldılan və Mərkəzi asiyalı tacirlərin sığınacağına çevrilən bu möhtəşəm tikili Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən həyata keçirilən genişmiqyaslı layihə çərçivəsində hazırda öz əvvəlki əzəmətinə qovuşub. Bərpa prosesi abidənin həm memarlıq, həm də mühəndislik xüsusiyyətlərinin qorunması prinsipi ilə aparılıb.

Həmçinin qeyd olunub ki, burada ziyarətçilər sənətkarların yaradıcılıq prosesini yaxından izləmək, milli sənət nümunələrinin hazırlanma mərhələləri ilə tanış olmaq, eləcə də özləri üçün unikal suvenirlər əldə etmək imkanı əldə edirlər.

İçərişəhərdə gəzinti zamanı xanım İnqa Ruqiniene təndir çörəyinə qonaq edilib.

Daha sonra Litvanın Baş naziri orta əsr Şərq memarlığının şah əsəri, dünya əhəmiyyətli tarixi-memarlıq abidəsi olan “Şirvanşahlar Sarayı Kompleksi” ilə də tanış olub. Məlumat verilib ki, XV əsrin əvvəllərində inşa olunmuş tarixi abidənin tikililəri İçərişəhərin təpələrindən birinin ən hündür nöqtəsində yerləşir. O, Xəzər dənizindən və şəhərin ətrafındakı yüksəkliklərdən aydın görünür. Kompleks bugünədək öz tarixi-memarlıq üstünlüyünü saxlamaqdadır.

***XQ***

# Baltik ölkəsi Azərbaycanla dostluğa sadiqdir

**Litvanın Baş naziri İnqa Ruqiniene Azərbaycana rəsmi səfəri çərçivəsində məxsusi müsahibə verib.**



Müsahibədə Baş nazir Azərbaycanla əlaqələrin inkişaf perspektivləri, enerji təhlükəsizliyi və regional əməkdaşlıq məsələlərinə toxunub. İnqa Ruqiniene Orta Dəhliz çərçivəsində əməkdaşlıq imkanlarına və iki ölkə arasında müxtəlif sahələrdə tərəfdaşlığın genişləndirilməsinin əhəmiyyətini də vurğulayıb.

**– Xanım Baş nazir, ilk növbədə, Bakıya səfərinizin məqsədi barədə məlumat verməyinizi xahiş edirik.**

– Bu, mənim Avropa İttifaqından kənara ilk beynəlxalq səfərimdir. Baş nazir vəzifəsinə başladıqdan sonra komandamla birlikdə anladıq ki, beynəlxalq əlaqələri daha da gücləndirməliyik. Bildiyiniz kimi, coğrafi və geosiyasi vəziyyət çox dinamikdir, biz də ölkələrimizin hüdudlarından kənarda baş verənləri görürük. Buna görə də bir-birimizlə dostluğu möhkəmləndirmək çox vacibdir. Buraya gəlmək qərarını ona görə verdim ki, bizi 107 illik dostluq tarixi bağlayır. Mən Azərbaycanı bu regionda aparıcı ölkə kimi görürəm. Düşünürəm ki, münasibətlərimizin gücləndirilməsi hər iki ölkə üçün çox önəmlidir.

**– Avropanın enerji təhlükəsizliyində vacib rol oynayan ölkə kimi Azərbaycan Litva ilə əlaqələrə ciddi önəm verir. Enerji layihələrinin şaxələndirilməsi qarşıya qoyulan əsas hədəflərdəndir. Azərbaycanın yaşıl enerji ixracatçısı kimi artan rolunu və Xəzər dənizindən Avropaya uzanacaq yaşıl enerji dəhlizini - Xəzər–Qara dəniz–Avropa Yaşıl Enerji Dəhlizini Litva özünün enerji təhlükəsizliyi baxımından necə qiymətləndirir?**

– Azərbaycanın enerji təchizatı üçün alternativ yollar üzərində işləməsi çox müsbət haldır. Təchizat zəncirləri qəfil dayana bilər və əgər alternativlərimiz yoxdursa, bu, ciddi problemə çevrilər. Buna görə də Azərbaycanın alternativ istiqamətlər yaratmaq üçün fəal çalışması məni çox sevindirir. Geniş təchizat imkanlarının mövcudluğu Avropa İttifaqı üçün də çox vacibdir. Eyni zamanda, məsələ təkcə neft və qazla məhdudlaşmır, həm də bərpaolunan enerji mənbələrini əhatə edir. Litvada biz Günəş, külək kimi alternativ enerji mənbələri sahəsində inkişaf etdirdiyimiz texnologiyaları təqdim edə bilərik. Mən bilirəm ki, Azərbaycan bu sahəyə böyük maraq göstərir və bunun üzərində fəal işləyir. Bu, ortaq ideyalar və əməkdaşlıq üçün real imkanlar yaradır.

**– Litva Orta Dəhliz və digər regional logistika marşrutları çərçivəsində Azərbaycanla əməkdaşlığı necə genişləndirməyi planlaşdırır? Məsələn, Klaypeda limanı bu məsələdə hansı rolu oynaya bilər?**

– Əlbəttə, Azərbaycan ilə Litva arasında əsas müzakirə mövzusu adətən enerji olur. Lakin bu, əməkdaşlıq edə biləcəyimiz yeganə sahə deyil. Litva müdafiə sahəsinə ciddi şəkildə investisiya yatırır. Biz çox həssas bir regionda yaşayırıq və hər gün müxtəlif təhdidlərlə üzləşirik. Təhlükəsizliyimizi qorumaq üçün daha çox çalışmalıyıq. Buna görə də hökumətimiz müdafiəyə daha çox vəsait ayırmaq qərarına gəlib. Mən bilirəm ki, Azərbaycanın bu sahədə mühüm nailiyyətləri var və burada təcrübələrimizi birləşdirərək bir-birimizi gücləndirə bilərik.

Bu, hamısı deyil. Kənd təsərrüfatı sahəsində də əməkdaşlıq üçün geniş imkanlar mövcuddur. Belə ki, Litvada ağartı sənayesi, südçülük təsərrüfatı güclüdür, Azərbaycanda isə kənd təsərrüfatı ümumilikdə çox inkişaf edib. Burada da ortaq məqamlar tapa bilərik. Eləcə də ölkələrimiz arasında təhsil, universitetlər və elm sahələrində artıq yaxşı əlaqələrimiz var, lakin elmi əməkdaşlığı və bilik mübadiləsini genişləndirərək, bunları daha da gücləndirmək mümkündür. Bundan əlavə, Azərbaycan mədəniyyət sahəsinə böyük sərmayə yatırır və biz də eyni istiqamətdə fəaliyyət göstəririk. Bu da əməkdaşlıq üçün başqa bir sahədir.

# İranın Ali rəhbəri Ayətullah Seyid Əli Xameneinin anım mərasimləri





**Aprelin 10-da İranın Ali rəhbəri Ayətullah Seyid Əli Xameneinin həlak olmasının 40-cı günü ilə əlaqədar Bakıda anım mərasimi keçirilib.**

Mərasimdə Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev, hökumət və ictimaiyyət nümayəndələri, din xadimləri iştirak ediblər.

Mərasim əvvəlcə “Qurani-Kərim” tilavəti ilə başlayıb.

Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadə Seyid Əli Xamenei ilə bağlı xatirələrini bölüşüb, onun zəngin mənəvi irsindən və İslam dünyasındakı rolundan danışıb. Şeyxülislam, eyni zamanda, dünyada baş verən münaqişə və fəlakətlərin aradan qalxmasını diləyib, bəşəriyyət üçün sülh, əmin-amanlıq və rifah arzularını ifadə edib.

İranın ölkəmizdəki səfiri Müctəba Dəmirçilu Seyid Əli Xameneinin həyat yolu, dövlət və din sahələrindəki fəaliyyəti, həmçinin İslam dünyasına verdiyi töhfələrdən bəhs edib. O, gərginliyin ilk günlərindən etibarən Azərbaycanın göstərdiyi həmrəyliyi, humanitar və mənəvi dəstəyi xüsusi vurğulayaraq, buna görə ölkəmizə minnətdarlığını bildirib.

Sonra çıxış edən din xadimləri dini dəyərlər və mənəvi irs barədə danışıblar. Mərhumun xatirəsi ehtiramla yad edilərək onun dini və ictimai fəaliyyəti yüksək qiymətləndirilib.

*

**İran İslam Respublikasının Ali rəhbəri Ayətullah Seyid Əli Xameneinin həlak olmasının 40-cı günü ilə əlaqədar aprelin 10-da Naxçıvan şəhərində də anım mərasimi keçirilib, ehsan süfrəsi açılıb.**

Mərasimdə Naxçıvan Muxtar Respublikasının Baş naziri Cabbar Musayev, İranın Naxçıvandakı Baş konsulu Əziz Mənsuri, dövlət və hökumət nümayəndələri iştirak ediblər.

Baş nazir Cabbar Musayev İranın Ali rəhbərinin ölümünün 40-cı günü münasibətilə başsağlığı verib.

Mərasimdə Azərbaycan–İran əlaqələrindən bəhs olunub. Qeyd edilib ki, Prezident İlham Əliyevin tapşırığı ilə müharibə dövründə İrana humanitar yardımlar göstərilib. Bu addım iki ölkə arasında dostluq və mehriban qonşuluq münasibətlərinin bariz nümunəsi kimi dəyərləndirilib.

***XQ***

# 2018-ci ilin aprel seçkisi Azərbaycanı tarixi zəfərə apardı

(əvvəli 1-ci səhifədə)

Seçkinin elan edilməsinə və keçirilməsinə gəlincə isə xatırladaq ki, bu təşəbbüs ölkədə iqtidarda olan Yeni Azərbaycan Partiyasından gəlmiş və dövlət başçısı tərəfindən dəstəklənmişdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin il fevralın 5-də “Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında” sərəncam imzalamış və o sərəncama əsasən seçkilər 2018-ci il aprelin 11-nə təyin edilmişdi.

Bu barədə söz açan tarixçi və siyasətçilərin fikrincə, ölkədə növbədənkənar prezident seçkilərinin keçirilməsində bir sıra məqsədlər vardı. Təbii ki, birinci məqsəd Azərbaycan ərazilərinin uzun illər boyu davam edən işğalına tezliklə son qoymaq üçün dövlətin daha da gücləndirilməsinə zəmin yaratmaq idi. Bunun üçün isə ölkə daxilində davam edən islahatları sürətləndirərək çevik idarəetmənin qurulmasına, millətin hakimiyyətə etimadının bir daha sınaqdan çıxarılmasına nail olmaq lazım idi. Digər tərəfdən, yaranmış mürəkkəb beynəlxalq şərait, müxtəlif dövlətlər arasında münasibətlərin gərginləşməsi çevik addımların atılmasını tələb edirdi. Gözümüzün önündə baş verən siyasi proseslər, regional və qlobal miqyasda artan gərginliklər fonunda keçirilən daha demokratik seçkilər, təbii ki, Azərbaycanın beynəlxalq aləmdəki mövqelərini möhkəmləndirəcəkdi.

Burada “daha demokratik seçkilər” ifadəsini işlətməyimiz təsadüfi deyil. Çünki 11 aprel seçkilərində Yeni Azərbaycan Partiyası ilə yanaşı, Azərbaycan Sosial Demokrat Partiyası (namizəd Araz Əlizadə idi), Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası (namizəd Qüdrət Həsənquliyev idi), Milli Dirçəliş Hərəkatı Partiyası (namizəd Fərəc Quliyev idi), Müasir Müsavat Partiyası (namizəd Hafiz Hacıyev idi), eləcə də, Cəbhəçilərin təşəbbüs qrupu (namizəd Razi Nurullayev idi) da iştirak edirdi. Zahid Orucun namizədliyi isə şəxsən özü tərəfindən irəli sürülmüşdü.



**Təkcə onu demək kifayətdir ki, son 15 il ərzində bir çox ən mötəbər beynəlxalq təşkilatlar münaqişə ilə bağlı bizim təklifimizi qəbul edərək çox önəmli qətnamələr qəbul etmişlər. Orada göstərilir ki, münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. BMT-nin Baş Assambleyası, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası... və digər təşkilatlar münaqişə ilə bağlı bizim mövqeyimizi dəstəkləyən qətnamələr qəbul etmişdir.**

*Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Əliyevin 2018-ci il aprelin 18-də keçirilən andiçmə mərasimindəki nitqindən*

Bu seçki barədə rəsmi məlumatlarda bildirilir ki, 125 dairənin 5641 seçki məntəqəsində keçirilən səsvermələri 61 təşkilat, 59 ölkədən olmaqla 894 beynəlxalq müşahidəçi izləyirdi. Seçkiləri müşahidə edən yerli müşahidəçilərin sayı isə 58 min 175 nəfər idi. Şəffaflığın təmin olunması məqsədilə digər vasitələrlə yanaşı, işğal olunmuş ərazilər istisna olmaqla bütün ölkə coğrafiyasını əhatə edən 1000 seçki məntəqəsində və ya seçki məntəqələrinin təqribən 20 faizində veb-kameralar quraşdırılmışdı.

Seçkilərə hazırlığın və səsvermənin təşkilinin beynəlxalq standartlara cavab verməsini təmin etmək məqsədilə kifayət qədər “exit-poll”lar keçirilmişdi. Bu məqsədlə Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası “AJF&Associates İnc.” təşkilatı, ABŞ-ın Vətəndaş Cəmiyyəti Uğrunda Müstəqil Məsləhət və Yardım Mərkəzi, “Opinion Way Sosioloji” Tədqiqatlar İnstitutu, Fransanın “ELS” Müstəqil Araşdırmalar Mərkəzi və Rəy Monitorinq Mərkəzi Azərbaycan Mərkəzi Seçki Komissiyasında qeydiyyatdan keçmişdilər.

Nəhayət, aprelin 11-də keçirilən seçkidə Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyev seçicilərin 86,02 faiz səsini qazanaraq qalib gəldi. Müşahidəçilərin fikrincə, Azərbaycan xalqının iradəsini əks etdirən seçkinin nəticələri bir daha göstərdi ki, vətəndaşlar dövlətin gələcək inkişafını məhz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyən edilən siyasi kursun Prezident İlham Əliyevin mövcud şəraitə uyğun olaraq davam və inkişaf etdirilməsində görür. Dəfələrlə söylənildi ki, Azərbaycan xalqı real işlərə, sabit, davamlı inkişafa, tərəqqiyə və təhlükəsizliyə səs verdi.

Səsvermədən bir həftə sonra – 2018-ci il aprelin 18-də Milli Məclisdə keçirilən andiçmə mərasimində xalqın etimadını növbəti dəfə qazanan Prezident İlham Əliyev ənənəvi qətiyyətini və prinsipiallığını daha gur səslə dilə gətirərək dedi ki, “...biz öz torpaqlarımızı azad edəcəyik”.

Bəs sonra nə oldu? Sonra bütün dünya Azərbaycan ərazilərinin 20 faizinin 30 illik işğaldan azad olunmasına şahidlik etdi. Sonra Dünya Azərbaycanlıları 2 əsrdən də çox xalqımıza qarşı terror, təxribat, işğal törətməklə fəxr edən, “Böyük Ermənistan” xülyası ilə yaşayan dünya erməniliyinin çökdürüldüyünü bayram etdi. Sonra hay havadarları qədim türk –Azərbaycan torpaqlarında yaradılmış Ermənistan adlı saxta dövlətin kapitulyasiya sənədinə imza atdığını gördülər.

Lap sonda isə Azərbaycan dövləti XX – XXI əsrlərdə ilk dəfə olaraq işğalçı dövlət üzərində tam və qəti qələbə çalaraq dünya hərb tarixinə yeni səhifələr yazdı.

Bayrağın həmişə uca, Ordun qüdrətli, Liderin daim qətiyyətli olsun, Azərbaycan!

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

# Müharibədə qələbə ədalətli tərəfin qanuni haqqıdır

(əvvəli 1-ci səhifədə)

Rusiya–Ukrayna müharibəsi bunun ən bariz nümunəsidir. Artıq dörd ildən çoxdur davam edən qarşıdurma minlərlə insan itkisi, dağıdılmış şəhərlər və iflic olmuş iqtisadiyyatlarla yadda qalır. Müharibənin ilk mərhələsində sürətli nəticələr gözlənilsə də, proses uzandıqca bu qarşıdurma “uzanan müharibə” modelinə çevrildi. Müharibə Avropanın enerji təhlükəsizliyini, qlobal ərzaq bazarını və beynəlxalq hüquq sistemini də sarsıtdı.

Oxşar mənzərəni Yaxın Şərqdə də müşahidə edirik. İranla ABŞ–İsrail xəttində qısa müddətli qarşıdurma kimi proqnozlaşdırılan gərginliyin artıq 43 gündür davam etməsi onu göstərir ki, bu qarşıdurma çoxsəviyyəli və çoxaktorlu bir sistem daxilində inkişaf edir. Məhz bu çoxqatlılıq münaqişənin qısa müddətdə həll olunmasını faktiki olaraq qeyri-mümkün edir. Çünki burada tərəflərin məqsədləri fərqlidir və üst-üstə düşmür. Proksi qüvvələrin rolu isə bu münaqişəni daha da uzadan əsas mexanizmlərdən biridir. Birbaşa müharibənin yüksək siyasi və hərbi riskləri fonunda tərəflər dolayı alətlərdən istifadə edir. Bütün bu amillər münaqişəni həm uzadır, həm də onun coğrafiyasını genişləndirir.

Nəticədə cəbhə xətti Livandan Qırmızı dənizə, Suriyadan İraqa qədər geniş bir əraziyə yayılır. Bütün bunların qlobal təsirləri də qaçılmazdır. Yaxın Şərq enerji resurslarının əsas mərkəzlərindən biri olduğu üçün hər bir eskalasiya dalğası dərhal dünya bazarlarına ötürülür. Neft və qaz qiymətlərində dalğalanmalar, sığorta risklərinin artması, dəniz ticarət yollarında – xüsusilə Hörmüz boğazı və Qırmızı dəniz marşrutlarında – təhlükəsizlik problemləri qlobal iqtisadi sabitliyi sarsıdır.

Digər tərəfdən, qeyri-müəyyənlik amili beynəlxalq sistem üçün ən böyük risklərdən birinə çevrilir. İnvestisiya mühiti zəifləyir, logistika zəncirləri pozulur, dövlətlər isə daha çox müdafiə xərclərinə yönəlir. Nəticədə Yaxın Şərqdə formalaşan bu mənzərə bir həqiqəti açıq şəkildə ortaya qoyur: müasir münaqişələr artıq idarə olunan, lakin nəzarətdən çıxma riski daşıyan uzunmüddətli qarşıdurmalardır. Burada qələbə anlayışı bulanıqlaşır, sülh isə daha çox taktiki fasilə xarakteri daşıyır.

* * *

Mövcud qlobal mənzərədə əsas sual analitik mahiyyət daşıyır: niyə bəzi müharibələr illərlə davam edən “tükənmə prosesinə” çevrilir, bəziləri isə qısa müddətdə həlledici nəticə ilə başa çatır? Məhz bu nöqtədə Azərbaycan nümunəsi xüsusi diqqət tələb edir. Çünki 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi çağdaş hərbi-siyasi tarixdə nadir rast gəlinən “mütləq qələbə” modelini ortaya qoydu.

Qələbə siyasi iradənin, strateji səbrin və sistemli hazırlığın kulminasiyası idi. Nəticəni şərtləndirən amillər isə təsadüfi deyil və onların içində ən kritik olanı hərbi güclə siyasi məqsəd arasında qurulan nadir uyğunluq idi. Müasir münaqişələrin böyük əksəriyyətində məhz bu əlaqə qırılır: ya siyasət hərbidən ayrı düşür, ya da hərbi əməliyyatlar siyasi strategiyanı “əvəz etməyə” başlayır. Nəticədə, müharibə məqsədini itirir və proses öz-özünü davam etdirən, lakin nəticə verməyən mexanizmə çevrilir.

Azərbaycan nümunəsində isə bunun tam əksini görürük. Burada hərbi əməliyyatlar siyasi məqsədin davamı idi və bu məqsəd nə dəyişirdi, nə də genişləndirilirdi. Ərazi bütövlüyünün bərpası konkret, ölçüləbilən və hüquqi baxımdan əsaslandırılmış hədəf idi. Qeyri-müəyyən və ya maksimalist məqsədlər müharibəni uzadır – tərəflər nə vaxt dayanmalı olduqlarını bilmirlər. Azərbaycan isə həm başlanğıc nöqtəsini, həm də “dayanma xəttini” dəqiq müəyyən etmişdi. İkinci mühüm faktor – bəlkə də bütün prosesi “mərkəzdən idarə edən” əsas element – liderlik məsələsidir. Müasir müharibələrin təcrübəsi göstərir ki, texnologiya, resurs və hətta say üstünlüyü belə siyasi iradə ilə tamamlanmadıqda həlledici nəticə vermir.

Prezident İlham Əliyevin müharibə dövründə ortaya qoyduğu liderlik modeli məhz bu komponentlərin sinxron işləməsi ilə seçildi. Ən önəmlisi isə qərarların əvvəlcədən müəyyən edilmiş strateji xətt üzrə qəbul edilməsi idi. Müharibə şəraitində tez-tez rast gəlinən “emosional qərarvermə” sindromu Azərbaycanda müşahidə olunmadı. Əksinə, hərbi əməliyyatların tempi, istiqaməti və diplomatik manevrlər vahid mərkəzdən koordinasiya olunurdu.

Prezident İlham Əliyevin tez-tez vurğuladığı “Biz haqq işimizi müdafiə edirik və bu haqq işində sona qədər gedəcəyik” fikri siyasi kommunikasiya aləti idi. Bir tərəfdən cəmiyyətdə psixoloji səfərbərlik yaradırdı, digər tərəfdən isə beynəlxalq ictimaiyyətə Azərbaycanın geri çəkilməyəcəyini, yəni “yarımçıq kompromisə” getməyəcəyini açıq şəkildə bildirirdi.

Eyni yanaşmanı “Qarabağ Azərbaycandır!” tezisində də görmək mümkündür. Burada 3 mühüm mesaj var idi: birincisi, məsələ müzakirə predmeti deyil; ikincisi, bu mövqe dəyişməzdir; üçüncüsü isə kompromisin sərhədləri əvvəlcədən müəyyən olunub.



Liderliyin digər vacib tərəfi informasiya müstəvisində aktivlik idi. Müasir müharibələrdə informasiya sahəsi ən azı cəbhə qədər əhəmiyyətlidir. Prezident İlham Əliyevin beynəlxalq mediaya verdiyi çoxsaylı müsahibələr, açıq və birbaşa mesajlar Azərbaycanın narrativ üstünlüyünü təmin etdi. O, mürəkkəb geosiyasi məsələləri sadə və aydın dillə izah edərək həm ictimai rəyi formalaşdırdı, həm də dezinformasiyanın təsirini minimuma endirdi.

Bundan əlavə, liderliyin institusional tərəfi də diqqətdən kənarda qalmamalıdır. Qərarların mərkəzləşdirilmiş, lakin icranın çevik olması idarəetmədə balans yaratdı. Bir çox müasir münaqişələrdə isə ya həddindən artıq mərkəzləşmə çevikliyi azaldır, ya da koordinasiyanın zəifliyi xaosa səbəb olur. Məhz bu vəhdət müharibənin gedişinə aydın istiqamət verdi və onu uzanan, qeyri-müəyyən prosesə çevrilməkdən çıxararaq qısa müddətdə həlledici nəticəyə gətirib çıxardı.

Müharibənin həlledici sütunlarından biri – ordunun peşəkarlığı və əsgərin rəşadətidir. Müasir hərb təcrübəsi göstərir ki, ən müasir silahlar belə, onu istifadə edən və idarə edən insan faktorunun qərarvermə, döyüş bacarığı və psixoloji dözümlülüyü ilə tamamlanmadıqda effektiv olmur. Azərbaycan əsgəri bu baxımdan nadir nümunə təşkil edir. Vətən uğrunda mübarizə, ərazi bütövlüyünün bərpası və xalqının arxasında durmaq məsuliyyəti əsgəri həm fiziki, həm də psixoloji olaraq döyüşə hazırlayırdı. Texnologiya üstünlük yarada bilər, amma döyüşün taleyini müəyyən edən əsas amil insan faktorudur.

Nəhayət, diplomatik müstəvi də müasir müharibələrin taleyini müəyyən edən vacib faktor kimi ön plana çıxır. Azərbaycan müharibə dövründə beynəlxalq hüquqa istinad edərək öz hərbi əməliyyatlarını legitimləşdirdi. Beynəlxalq hüquqa əsaslanan bu mövqe təkcə xarici dövlətlər qarşısında Azərbaycanı haqlı tərəf kimi təqdim etmədi, həm də qarşı tərəfə aydın mesaj verdi: proses qanuni çərçivədə aparılır və Azərbaycanın məqsədləri beynəlxalq norma və müqavilələrdən kənara çıxmır. Eyni zamanda, diplomatik kommunikasiya kanallarının açıq saxlanması strateji çevikliyi təmin etdi. Azərbaycan eyni vaxtda həm cəbhədə hərəkət edirdi, həm də beynəlxalq forumlarda, media platformalarında mövqeyini aydın şəkildə çatdırırdı. Digər uzunmüddətli münaqişələrdə isə tərəflərin diplomatik fəaliyyətinin parçalanmış və qeyri-koordinasiyalı olması prosesi uzadır, qeyri-müəyyənliyi artırır. Azərbaycan modeli bu fərqi açıq şəkildə göstərdi: diplomatiya və hərbi əməliyyatlar paralel və sinxron şəkildə işlədikdə nəticə daha qısa və həlledici olur.

Bütün bu amillərin – məqsədin aydınlığı, liderliyin qətiyyəti, ordunun peşəkarlığı və diplomatik manevrlərin effektivliyi – sintezi Azərbaycan modelini müasir müharibələr üçün nümunəvi bir ssenariyə çevirdi. Əsl həlledici faktor, məqsədin strateji şəkildə müəyyənləşdirilməsi, onun ardıcıl və qətiyyətli şəkildə icrası, resursların düzgün səfərbər edilməsi və dövlət mexanizminin koordinasiyalı hərəkətidir.

Yekunda onu da qeyd edək ki, Azərbaycan nümunəsi göstərir ki, qısa müddətdə mütləq qələbə əldə etmək mümkündür – lakin bunun üçün hərbi, siyasi və diplomatik komponentlər bir-biri ilə sinxron işləməli, qərarlar aydın və dəyişməz olmalı, həmçinin insan faktoru – liderlik və əsgərin rəşadəti – daim ön planda tutulmalıdır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# “Sülh Körpüsü” Təşəbbüsü: dəyirmi masa müzakirələri

**“Sülh Körpüsü” Təşəbbüsü Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti nümayəndələri arasında dialoqu və birbaşa əlaqələri təşviq etməyə davam edir. Aprelin 10–12-də Azərbaycanda “Sülh Körpüsü” Təşəbbüsü çərçivəsində Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə növbəti ikitərəfli dəyirmi masa keçirilir.**



Erməni nümayəndə heyəti Azərbaycana quru sərhədi vasitəsilə, delimitasiya və demarkasiya edilmiş sahədən daxil olub, bütün müvafiq sərhəd və pasport nəzarəti prosedurlarından keçib.

Qeyd edək ki, vətəndaş cəmiyyəti nümayəndələri arasında dialoq 2025-ci il avqustun 8-də Vaşinqton şəhərində Azərbaycan, Ermənistan və ABŞ liderlərinin iştirakı ilə keçirilmiş üçtərəfli sammitdə təsdiqlənmiş ikitərəfli sülh gündəliyi çərçivəsində aparılır.

Görüşün gündəliyinə sülh prosesinin hazırkı vəziyyəti, “Sülh Körpüsü” Təşəbbüsü iştirakçılarının öz ölkələrində həyata keçirdikləri fəaliyyətlər və əldə olunan nəticələr, həmçinin regiondakı vəziyyətin müzakirəsi daxildir.

Müzakirə sessiyaları isə cəmiyyət səviyyəsində sülhün təşviqi və sülh prosesinin növbəti mərhələlərində etimadın artırılması məsələlərinə həsr olunur.

***XQ***

# Medianın İnkişafı Agentliyinin açıqlaması

**Son günlər bəzi sosial media platformalarında Azərbaycan ərazisindən Körfəz ölkələri istiqamətində, guya, raketlərin buraxılması ilə bağlı tamamilə əsassız və həqiqətə uyğun olmayan məlumatlar yayılmaqdadır. Belə cəhdləri qətiyyətlə pisləyirik.**




Medianın İnkişafı Agentliyinin bu barədə açıqlamasında daha sonra qeyd olunub: “Bu növ iddialar ya qəsdən təxribat xarakteri daşıyır, ya da tamamilə məsuliyyətsiz və əsassız yanaşmanın nəticəsidir. Müasir texnoloji imkanlar şəraitində raket və ya digər uçuş vasitələrinin hansı istiqamətdən buraxıldığını müəyyən etmək çətin deyil.

Media subyektlərini və sosial şəbəkə istifadəçilərini informasiya yayımı zamanı yüksək peşəkarlıq və məsuliyyət nümayiş etdirməyə, yalnız rəsmi və etibarlı mənbələri əsas götürməyə, şübhəli və manipulyativ xarakterli məlumatların yayılmasına yol verməməyə səsləyirik”.

***XQ***

**Cənubi Qafqazda geosiyasi və iqtisadi balansı köklü şəkildə dəyişdirmə potensialına malik TRIPP layihəsi regionda yeni mərhələnin əsas müzakirə mövzusuna çevrilib. ABŞ Administrasiyası bu layihəyə sadiqliyini növbəti dəfə təsdiqləyərək, onu regionun yeni strateji arxitekturasının formalaşmasına xidmət edən prioritet təşəbbüs kimi təqdim edib.**

# ABŞ-ın vasitəçiliyə sadiqliyi və Qafqazda gerçəklik

ABŞ Dövlət Departamentinin “Armenpress” agentliyinə verdiyi son açıqlama göstərir ki, Prezident Donald Trampın rəhbərlik etdiyi Vaşinqton administrasiyası Cənubi Qafqazda maraqlarını real iqtisadi-infrastruktur layihələri və birbaşa investisiya alətləri vasitəsilə təmin edir: “Bu layihə Vaşinqton üçün əsas prioritetlərdən biri olaraq qalır, çünki Cənubi Qafqazda və onun hüdudlarından kənarda sülh və rifaha kömək etmək potensialına malik-




dir”. Bildirilib ki, TRIPP nəqliyyat dəhlizi iqtisadi artım imkanlarını genişləndirərək regionda fasiləsiz beynəlxalq və daxili əlaqəni təmin edəcək.

Dövlət Departamentinin açıqlamasında proqramın strateji hədəfləri Ermənistan və Azərbaycanın rifahı ilə yanaşı, həm də qlobal iqtisadi maraqlarla əsaslandırılır: “TRIPP-in son məqsədi region ölkələrinin təhlükəsizliyini möhkəmləndirmək, regional ticarət hesabına ABŞ-ın ticarət imkanlarını genişləndirmək, həmçinin Mərkəzi Asiya və Xəzər regionundan Avropaya yeni tranzit marşrutları yaratmaqdır”.

ABŞ-ın layihəyə ilkin olaraq 145 milyon dollar vəsait ayırması proqramın siyasi bəyanat mərhələsindən konkret icra fazasına keçdiyini göstərən ciddi siqnaldır. Bu vəsait infrastrukturun modernləşdirilməsi, qlobal logistik zəncirlərin qurulması və sərhəd təhlükəsizliyi sistemlərinin ən müasir texnologiyalara uyğunlaşdırılmasına yönəlmiş real investisiya alətidir. Bu nəhəng geosiyasi layihənin mərkəzində dayanan həlledici aktor, şübhəsiz ki, Azərbaycandır. Layihənin reallaşması Bakının uzun illərdir ən mühüm strateji prioriteti olan Naxçıvan eksklavı ilə birbaşa və maneəsiz əlaqənin beynəlxalq səviyyədə hüquqi və praktiki təmin olunması deməkdir. Azərbaycanın tranzit və kommunikasiya maraqlarının sistemli şəkildə nəzərə alınması rəsmi Bakını Avrasiyanın yeni nəqliyyat arxitekturasının aparıcı oyunçusuna çevirir. Beləliklə, Azərbaycan Avrasiya nəqliyyat xəritəsində əvəzolunmaz qovşaq kimi mövqeyini daha da möhkəmləndirir ki, bu da qeyri-neft sektorunun, xüsusilə logistika və tranzit xidmətlərinin inkişafına mühüm töhfə verir. Ölkəmiz bu layihənin tezliklə reallaşmasının tərəfdarıdır və Dövlət Departamentinin son açıqlaması gələcəyə ümidlər verir.

Vaşinqtonun prosesdə fəal iştirakı Bakının irəli sürdüyü nəqliyyat gündəliyinin beynəlxalq səviyyədə legitimləşməsinə şərait yaradır və Azərbaycanın diplomatik təsir imkanlarını genişləndirir. Baxmayaraq ki, layihənin icrası üçün idarəedici mexanizmlərin detalları gələcək mərhələdə həlledici rol oynayacaq, istənilən halda TRIPP layihəsi Azərbaycanın regional güc kimi mövqeyini sarsılmaz edən strateji təşəbbüsdür. Bu layihə həm Naxçıvan bağlantısı məsələsini reallaşdırır, həm də Azərbaycanın Cənubi Qafqaz və Avrasiya məkanında əsas tranzit mərkəzlərdən birinə çevrilməsi prosesini sürətləndirir.

Yada salaq ki, strateji hədəfləri daha geniş coğrafi arealı əhatə edən bu proses 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan liderlərinin ABŞ Prezidentinin bilavasitə iştirakı ilə imzaladıqları tarixi 7 bəndlik Birgə Bəyannaməyə əsaslanır. Həmin sənədin mərkəzi bəndi olan Zəngəzur dəhlizinin Ermənistan ərazisindən keçən 42 kilometrlik “Tramp marşrutu” hissəsinin işə salınması və paralel olaraq sülh sazişinin paraf edilməsi regionda sülhün artıq real iqtisadi fundamentlər üzərində qurulduğunu nümayiş etdirir. TRIPP-in mühüm elementlərindən biri də Azərbaycanın regional inteqrasiyada artan roludur. Layihə çərçivəsində qarşılıqlı ticarət və tranzit axınlarının genişlənməsi, Azərbaycan tərəfindən Ermənistana yanacaq satışı və tranzit rejimlərinin tətbiqi regional iqtisadi əlaqələri yeni mərhələyə keçirir.

Eyni zamanda, TRIPP layihəsinə regional maraq da genişlənməkdədir. Ermənistanın baş naziri Nikol Paşinyan bildirib ki, Qazaxıstan da daxil olmaqla bir sıra ölkələr bu təşəbbüsə maraq göstərir: “Qazaxıstan bu mövzuya maraq göstərən yeganə ölkə deyil. Bu proses açıq şəkildə gedir və biz onu tərəfdaşlarımızdan gizlətmək niyyətində deyilik. Təbii ki, biz Qazaxıstanı Ermənistan üzərindən keçən tranzit marşrutlardan istifadə etməyə dəvət etməliyik ki, onlar bu marşrutları ixrac-idxal əməliyyatları və təqdim olunan nəqliyyat xidmətləri zəncirində nəzərdən keçirsinlər”.

Xüsusilə Qazaxıstanın TRIPP layihəsinə marağı diqqət çəkir. Astana bu marşrutu Mərkəzi Asiya ilə Avropa arasında yeni və alternativ logistika xətti kimi dəyərləndirir. Qazaxıstanın layihəyə qoşulma marağı onun Xəzər hövzəsi üzərindən tranzit imkanlarını genişləndirmək və beynəlxalq nəqliyyat şəbəkələrində rolunu artırmaq strategiyası ilə üst-üstə düşür. Bu isə TRIPP-in təkcə Cənubi Qafqaz deyil, daha geniş Avrasiya məkanını əhatə edən qlobal layihəyə çevrilməsi ehtimalını gücləndirir.

Bəzi analitiklər hesab edirdilər ki, Yaxın Şərqdə genişmiqyaslı böhran ABŞ-ın diqqətini TRIPP kimi infrastruktur layihələrindən uzaqlaşdıra bilər. Lakin Dövlət Departamentinin son açıqlaması bu şübhələrin əsassız olduğunu və Vaşinqtonun regiona baxışının konyunktur dəyişikliklərdən asılı olmadığını bir daha təsdiqlədi. ABŞ xarici siyasət idarəsinin TRIPP proqramına sadiqliyini yenidən vurğulaması göstərir ki, bu layihə, sadəcə, yerli bir təşəbbüs deyil, ABŞ-ın qlobal enerji və logistika təhlükəsizliyi strategiyasının ayrılmaz hissəsidir. Beləliklə, İranla münasibətlərdəki gərginliyə rəğmən, Vaşinqtonun Cənubi Qafqazdakı “iqtisadi və infrastruktur sülh” planı prioritetliyini qoruyur və Azərbaycanın bu layihədəki mərkəzi rolu daha da möhkəmlənir.

Bununla bağlı **Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun şöbə müdiri Mahir Zeynalov** XQ-yə bildirdi ki, layihənin icra çərçivəsində təsbit olunmuş “Ermənistan ərazisində maneəsiz, multimodal tranzit əlaqəsinin yaradılması” bəndi rəsmi Bakının illərdir müdafiə et-



diyi fundamental prinsipin – Naxçıvanla birbaşa və maneəsiz gediş-gəliş tələbinin beynəlxalq müstəvidə tanınmasıdır: “İnfrastrukturun Qərb standartlarına uyğunlaşdırılması gələcəkdə Avropa ilə birbaşa və sürətli yük dövriyyəsini təmin edəcək ki, bu da Azərbaycanın qeyri-neft sektoruna ciddi investisiya axını deməkdir. Eyni zamanda, TRIPP Mərkəzi Asiya resurslarının dünya bazarına çıxarılması üçün Rusiyadan asılı olmayan ən etibarlı alternativ kimi dəyərləndirilir. Bununla belə, Vaşinqtonun İran siyasəti və bölgədəki geosiyasi gərginlik müəyyən risklər yaradır”.

**Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzinin şöbə müdiri Vasif Hüseynov** isə mətbuata açıqlamasında qeyd edib ki, ABŞ Prezidentinin adının Cənubi Qafqaz üçün bu qədər mühüm geosiyasi və iqtisadi əhəmiyyət daşıyan bir layihə ilə assosiasiya olunması xüsusi siyasi çəkiyə malikdir. Bu amil ABŞ rəhbərliyinin layihənin icrasında və qarşıya qoyulmuş strateji hədəflərin reallaşmasında birbaşa maraqlı olduğunu göstərir. V.Hüseynovun fikrincə, bu reallıq Vaşinqtonun prosesə yalnız diplomatik deyil, həm də praktik və siyasi baxımdan tam dəstək verdiyini təsdiqləyir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Nikol Paşinyanın brifinq mesajları: təhlükədən təhlükəyə

## *Erməni baş nazirin dedikləri və ... gizli saxladıqları*

**Baş nazir Nikol Paşinyan Ermənistanın 29 min 743 kvadratkilometr ərazi ilə məhdudlaşmamalı olduğu barədə bəyanatların təhlükəli olduğunu deyib. Əslində, N.Paşinyan parlamentdəki brifinqdə bir sıra başqa məsələlərə də toxunub və onlardan söz açacağıq. Amma ilk növbədə, buna diqqət yetirməyi zəruri sayırıq.**



Brifində N.Paşinyana ünvanlanan sual belə olub: “Hakim “Vətəndaş sazişi” partiyasının nümayəndələri nə üçün bildirirlər ki, bəzi müxalif qüvvələr hakimiyyətə gəlsələr, yeni müharibə başlayacaq?”. Məsəsə ondadır ki, Ermənistanın 29 min 743 kvadratkilometr ərazi ilə məhdudlaşmamalı olduğunu deyib sərsəmləyən ölkənin ikinci prezidenti Robert Koçaryan idi. O, mövqeyini əsaslandırmaq məqsədilə cəfəngiyyata da varmışdı... R.Koçaryan “Vətəndaş sazişi” partiyası nümayəndələrinin apardığı təbliğatın yanlışlığını sübuta yetirmək istəmişdi. Axı Paşinyan başda olmaqla, hakim partiyanın təmsilçiləri pencəklərinin yaxasına Ermənistanın xəritəsinin əksini tapdığı döş nişanlarını taxırlar. Deməli, Paşinyan brifinqdə yalnız suala deyil, həm də Koçaryana cavab verib. Onun cavabı isə belədir: “Əgər hansısa siyasi qüvvə deyirsə ki, Ermənistan 29 min 743 kvadratkilometr ərazi ilə məhdudlaşmamalıdır, bu, faktiki olaraq, qaçılmaz müharibə deməkdir. Yəni mübahisə ediləcək xüsusi bir məsələ yoxdur”.

Həqiqətən, Ermənistan hazırda malik olduğu ərazi ilə kifayətlənmək istəməsə, Azərbaycanla yeni müharibəyə başlayacaq. O müharibəyə ki, bu dəfə ölkənin varlığına son qoyacaq, onu xəritədən siləcək, sinəyə taxmağa döş nişanı da qalmayacaq. Əlbəttə, Koçaryan və onun kimilər durumun fərqində deyillər, çünki kölədirlər. Beləleri üçün Ermənistan adlı dövlətin mövcudluğu ilə varlığını itirməsi arasında heç bir fərq yoxdur. Təki, xaricdəki ağalarının sifarişləri yerinə yetsin. Nəzərə alaq ki, Koçaryan və Sarkisyandan ibarət xunta rejimi 30 ilə yaxın müddətdə Ermənistanı quberniya canişini kimi idarə edib, hər cür quldurluq əməlləri törədib. İndi həmin quldurlar yenidən köhnə dövrə qayıtmaq istəyirlər. Anlaya bilmədikləri bir şey var: Azərbaycan illər əvvəlki Azərbaycan deyil. Ermənistanın baş nazirinin brifinq zamanı üzərində dayandığı ikinci məsələyə keçid alaq.

* * *

Bəli, Azərbaycan ötən əsrin əvvəllərindəki Azərbaycan olmadığından Ermənistan qarşısında işğalçılığa tamamilə son qoymaq tələbini irəli sürür. Daha doğrusu, ölkəmiz qonşusunun bütün təcavüzkar təmayüllərdən uzaq durmasının vacibliyi prinsipiallığını qoruyur. Ona görə də rəsmi Bakı bu qənaətdədir ki, Ermənistan konstitusiya dəyişikliyinə getməlidir. Hay iqtidarı dəfələrlə bu tələbə qarşı çıxdığını bəyan etsə də, onun son dövrlərdəki ritorikası başqa mətləblərdən xəbər verir. Yəni Ermənistanda yeni əsas qanunla bağlı müzakirə gedir, hətta onun mətni də hazırdır. Paşinyan isə brifinq zamanı bildirib ki, konstitusiyanın qəbulunun yalnız bir yolu var – ümumxalq səsverməsi, yəni referendum.

Təbii, yeni konstitusiya referendum yolu ilə qəbul edilməlidir. Deməli, Paşinyan ölkədə seçki ilə yanaşı, referendum gündəminin olduğunu rəsmən təsdiqlədi. O, eyni zamanda, bir sıra məqamlara diqqət yetirərək nəticəyə gəlib. Məsələn, baş nazir qeyd edib ki, qüvvədə olan konstitusiyaya əsasən bəzi maddələr parlamentdə səsvermə yolu ilə (2/3 səs çoxluğu ilə – red.) dəyişdirilə bilər. “Bizim komandada da konstitusiyanın müəyyən maddələrinə dəyişiklik etmək səlahiyyətinin parlamentə verilib-verilməməsi ilə bağlı müzakirələr aparılır”, – deyən Paşinyan, həmçinin vurğulayıb ki, düzəlişlər və dəyişikliklər yalnız xalq tərəfindən edilməlidir. Yəni Nikolun gəldiyi nəticə budur.

Əlbəttə, başlıca məqam Ermənistan konstitisiyasının ölkənin işğalçı mahiyyət daşıyan İstiqlaliyyət Bəyannaməsinə istinadının aradan qalxmasından gedir. O bəyannamə ki, orada Azərbaycanda mövcud olmuş qurumun – keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin adı yer alır. O ərazi ki, özündə münaqişə məntiqini saxlayır və iki müharibəyə, çoxsaylı insan itkilərinə, məhrumiyyət və məşəqqətlərə səbəb olub. Məhz buna görə rəsmi Bakı Ermənistanın rəsmən münaqişə məntiqindən uzaq durmasını tələb edir.

Onu da deyək ki, Ermənistan hakimiyyətinin nümayəndələri yeni konstitusiya ilə bağlı zaman-zaman səsləndirdikləri və ölkənin əsas qanununda Azərbaycana qarşı, guya, ərazi iddiasının olmadığına dair fikirləri təkrarlamaqdan, daha doğrusu, bunu daim təkrarlamaq zərurətindən xilas olacaqlar. Əlbəttə, o yeni konstitusiya ilə ki, orada qonşulara qarşı ərazi iddiasını nəzərdə tutan heç bir müddəa, yaxud istinad qalmayacaq.

* * *

N.Paşinyanın Ermənistan parlamentindəki brifinqi zamanı dediyi fikirlərə nəzərən üçüncü məqama diqqət yetirək. Nəzərə alaq ki, o, Moskvada Rusiya Prezidenti Vladimir Putinlə görüşü ilə bağlı bütün təfərrüatların ictimaiyyətə açıqlandığını və heç bir gizli məqamın olmadığını bildirsə də, bəlkə özü də fərqinə varmadan çox vacib nüansı diqqətə çatdırıb. Nikol Kreml rəhbəri ilə işçi nahar zamanı onunla növbəti yüksək səviyyəli görüşün iyunun ikinci yarısına planlaşdırıldığını deyib. Yəni parlament seçkilərindən sonraya. İstər-istəməz, sual yaranır: Paşinyan seçkidə qələbəyə əmindirmi ki, görüş planlaşdırır? Yaxşı, tutalım o əmindir, bəs Putin? Burada gizli məqam axtarmaq mümkündür, amma hələlik məsələnin üzərinə getməyə lüzum görmürük.

Tutaq ki, Paşinyanın partiyası parlament seçkilərində qalib gəldi və o, yenidən baş nazir oldu. Görəsən, Nikol iyunun ikinci yarısında Putinlə nə barədə söhbət edəcək? Bilinmir. Əsas odur ki, Paşinyan Rusiyanın arxasınca və ya ölkəyə zidd heç bir iş görmədiyini vurğulayır. Bu yerdə azərbaycanlı politoloq, sabiq xarici işlər naziri Tofiq Zülfüqarovun bir neçə gün əvvəlki açıqlaması yada düşür. Cənab Zülfüqarov demişdi ki, Paşinyan Moskvaya Rusiyanı TRIPP-də iştiraka dəvət üçün gedib.

Əlbəttə, birmənalı şəkildə deyə bilmərik ki, keçmiş XİN rəhbərinin fikirləri reallıqla uzlaşır. Amma istər-istəməz, şübhələr yaranır və ortaya suallar çıxır: Paşinyan Moskvaya nə üçün getmişdi? Bəlkə Nikolun Putinlə söz güləşdirməsi yalnız görüntü xarakteri daşıyırdı və gerçək mahiyyət tamamilə başqadır? Suallar çoxluğunda isə yada TRIPP düşür. O TRIPP ki, özündə Naxçıvana maneəsiz yol məntiqini birləşdirir və hazırda bu layihə ilə bağlı məsələ diqqəti Ermənistan dəmir yolları şəbəkəsinə yönəldir.

* * *

Məlum olduğu kimi, Ermənistan ərazisindəki dəmir yolları üzərində nəzarət konsessiya müqaviləsi ilə Rusiya şirkətinə məxsusdur. O da məlumdur ki, Moskvanın TRIPP-ə yanaşması məhz bu müqaviləni xatırlatmaq üzərində qurulub. Rusiya tərəfi “Cənubi Qafqaz Dəmir Yolları”nın (CQDY) sözügedən konsessiya müqaviləsinin şərtlərini, o cümlədən investisiyalarla bağlı öhdəlikləri məsuliyyətlə yerinə yetirdiyi qənaətindədir. Çünki Ermənistanın dəmir yolları sisteminə, habelə vaqon-lokomotiv parkına 30 milyard rubldan çox, təxminən 400 milyon dollara yaxın investisiya yatırılıb. Üstəlik, Rusiya Ermənistan dəmir yolu sisteminin 1200-dən çox daşınmaz əmlakı və 12500-dən çox daşınar aktivi üçün məsuliyyəti öz üzərinə götürüb. Habelə son 20 ildə sözügedən konsessiya müqaviləsi sayəsində Ermənistan büdcəsinə vergi şəklində 15 milyard rubldan çox, təxminən 200 milyon dollara yaxın vəsait daxil olub və 520 kilometrdən çox dəmir yolu təmir edilib.

Yəni bütün bunları açıqlayan rəsmi Moskva saziş öhdəliklərini yerinə yetirdiyini, hətta lazım olduğundan da artıq işlər görüldüyünü bildirir. Paşinyan isə Moskva səfərindən qayıdar-qayıtmaz demişdi ki, ölkəsi dəmir yollarının idarə olunmasına dair Rusiya ilə bağlanmış konsessiya müqaviləsini vaxtından əvvəl ləğv etmək üçün hüquqi mexanizmlərə malikdir. Xatırdaladaq ki, Rusiya rəsmiləri daha əvvəldən belə bir mexanizmin tətbiqindən irəli gələn təzminatın Ermənistan və dostları tərəfindən ödənilə bilməyəcəyini vurğulayıblar.

Bəli, ayının min oyunu bir armudun başında olduğu kimi, Rusiyanın da Ermənistan dəmir yolları xüsusunu qabartmasının məramı TRIPP-ə qarşı çıxmaqdır. Təbii ki, məsələ yalnız qarşı çıxmaq kimi qiymətləndirilə bilməz. Çünki indiki çətin vəziyyətində Kreml qlobal kommunikasiya habında iştirakı istəyər. Amma hansı şərtlərlə iştirakı, başlıca sual budur. Rusiyalı siyasi ekspertlər bildirirlər ki, Moskvanın məqsədi Cənubi Qafqazda üçüncü qüvvələrin dominantlığına imkan verməməkdir. Yəni onların baxışlarına inansaq, Rusiya özü dominantlıq iddiasında deyil, ancaq bərabərtərəfli əməkdaşlığa can atır. Ümumən bu mövzuya dair suallar açıq qalır. Həm də ona görə açıq qalır ki, TRIPP-dən söz düşəndə Rusiya özünün Ermənistandakı hərbi mövcudluğunu yada salır. Bəli, Rusiya rəsmiləri bildirirlər ki, TRIPP-in keçəcəyi ərazilərdə rus hərbçiləri var. Deməli, Moskva Cənubi Qafqazdakı mövcudluğun hərbi seqmentindən başqa nə isə düşünmür. Söhbət TRIPP-dən gedirsə, hazırkı status baxımından rus hərbçiləri yolkəsən qiyafəsindədirlər. Elə isə daha bir sual yaranır: Rusiyada ölkələrinin region üzrə nəqliyyat kommunikasiyalarının açılmasında maraqlı olduğunu dilə gətirənlər hansı formulu nəzərdə tuturlar? Formul ya yoxdur, ya da gizlidir.

Gizlilikdən söz düşmüşkən, brifinq zamanı Rusiyadan heç bir gizli iş tutmadığını dilə gətirən Paşinyan Qazaxıstanın xarici işlər nazirinin Ermənistana səfəri zamanı ölkənin dəmir yolu şəbəkəsinin yeni konsessiya idarəçiliyinə verilməsi məsələsinin müzakirə olunub-olunmayacağı barədə sualı belə cavablandırıb: “Qazaxıstan artıq ötən ilin avqust ayından “Tramp marşrutu”na marağını gizlətmir. Lakin Qazaxıstan bu marağı göstərən yeganə ölkə deyil. Belə ölkələr çoxdur və biz, o cümlədən Qazaxıstan, təkliflə çıxış etməliyik. Bu ölkələr Ermənistan ərazisindən keçən tranzit marşrutlardan öz ixrac, idxal zəncirlərində, eləcə də təqdim etdikləri nəqliyyat xidmətlərində istifadə etməyə hazır olmalıdırlar”.

Göründüyü kimi, Paşinyan mümkün qədər çalışır ki, TRIPP siyasi layihə mahiyyətindən uzaq tutulsun. Rusiyanın mövqeyi isə budur ki, rəsmi İrəvanın dəmir yolu şəbəkəsinin idarəçiliyinin həm Rusiya, həm də Ermənistan üçün dost olan ölkəyə verilməsi məsələsini müzakirəyə çıxarması yolverilməzdir. Məsələn, ölkənin Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqunun fikrincə, Ermənistan hakimiyyətinin istəyi mövcud sferada Rusiyanı əvəzləmək cəhdidir və belə bir cəhd ona baha başa gələr: “Ermənistan hakimiyyətinin dəmir yollarının idarə edilməsində Rusiyanı əvəzləməyə çalışması yanlış düşünülmüş qərardır. Onların qurduğu sistem “bir gecənin içində çökə bilər”.

* * *

Yuxarı baxırsan bığ, aşağı baxırsan saqqal. Sonda ümumiləşdirmə apararaq Paşinyanın hazırkı durumunun məhz bu deyimi yada saldığını bildirək. Əlbəttə, Nikolun təzyiqlərə sinə gərməsi, o cümlədən Azərbaycanla sülh və sülhün başlıca komponenti olan TRIPP yolunda irəliləməsi mümkündür. Amma bunun üçün keçiləcək hədd, aşılacaq sədd var. Paşinyan vətərəfdarları iyunda keçiriləcək parlament seçkilərindən qalib ayrılmalıdırlar. Hazırda hay hakim komandasının qarşısında duran ən mühüm vəzifə budur. Bu, elə bir vəzifədir ki, ondan bütövlükdə Cənubi Qafqaz regionunun gələcək axarı, ən əsası, Ermənistanın mövcud trayektoriyada təmsilçiliyi asılıdır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# "Qaregin məsələsi" seçkidən sonraya qalıb

## Paşinyan həssas mərhələdə "fasilə" götürüb

**Erməni Apostol Kilsəsi ilə ölkə hakimiyyəti arasında münasibətlər ümumən gərgin olaraq qalır. Bununla belə Nikol Paşinyan iqtidarı iyunun 7-də keçiriləcək seçkiqabağı dövrün həssaslığını nəzərə alaraq kilsədə islahatlar, eləcə də bütün ermənilərin ali patriarxı, katolikos II Qareginin başqa bir şəxslə əvəzlənməsi məsələsində əvvəlki kimi israrlı davranış nümayiş etdirmir.**

Əslində, bu, gözlənilən idi. Bir sıra ekspertlər aylar öncə bildirirdilər ki, hakimiyyət seçkiqabağı dövrdə kilsə ilə bağlı məsələdə fasilə götürəcək. Çünki kilsə tarixən xalq arasında böyük nüfuza malik institutdur. Ermənistan konstitusiya baxımından dünyəvi dövlət olsa da, ölkə konstitusiyasında (18.1-ci maddə) "erməni xalqının mənəvi həyatında, milli mədəniyyətinin inkişafında və milli kimliyinin qorunmasında milli kilsə kimi Erməni Apostol Müqəddəs Kilsəsinin müstəsna missiyası" təsbit edilib. Bu mənada, Paşinyan da ehtiyatlı davranış nümayiş etdirməyə üstünlük verir. Baş nazir indiki həssas dönəmdə kilsə, katolikosla bağlı məsələləri qabartmamağa çalışır. Nikol son vaxtlar bu istiqamətdə, demək olar ki, heç bir açıqlama vermir. Görünür, bu yanaşmanın əks-təsirə səbəb olacağından ehtiyatlanır. Ancaq bu o demək deyil ki, Paşinyan kilsədə islahatlar həyata keçirmək, katolikosu dəyişdirmək istəyindən vaz keçib, yaxud II Qareginin taxtdan getmədiyini görüb vəziyyətlə barışıb. Xeyr! Baş nazirin rəhbərlik etdiyi "Mülki müqavilə" partiyasının seçki platformasında "Erməni Apostol Kilsəsinin islahatı" məsələsi ilə bağlı müddəa da yer alıb. Aprelin 3-də Nikolun "Facebook" səhifəsində dərc olunan platformada Erməni Apostol Kilsəsində mərhələli islahat – kilsənin faktiki rəhbəri kimi katolikosun vəzifədən kənarlaşdırılması, əvvəlcə müvəqqəti rəhbərin seçilməsi, yeni kanonik qaydanın (nizamnamənin) qəbulu və daha sonra bütün ermənilərin yeni katolikosunun seçilməsi təklif olunur.

Öz növbəsində kilsə bununla bağlı ayrıca açıqlama ilə çıxış edib. Açıqlamada hakim partiyanın proqramında kilsəyə aid müddəalar qınanıb: "Mülki müqavilə" partiyasının seçkiqabağı proqramında Erməni Apostol Müqəddəs Kilsəsinə dair qəbuledilməz müddəaların daxil edilməsini sərt şəkildə pisləyirik. Partiyanın seçki proqramında kilsənin islahatı, onun nizamnaməsinin yenidən nəzərdən keçirilməsi, bütün ermənilərin katolikosunun taxtdan uzaqlaşdırılması və yeni katolikos seçkilərinin keçirilməsi ilə bağlı məcburedici gündəmin təsbit olunması ölkənin konstitusiya quruluşunun, kilsənin özünüidarəetmə hüququnun, eləcə də din və vicdan azadlığına dair fundamental beynəlxalq prinsiplərin açıq şəkildə pozulmasıdır. Seçkiqabağı vədlərdə kilsəyə qarşı bu açıq-aşkar qanunsuz hərəkətlərin davam etdiriləcəyinin bildirilməsi hakim siyasi partiyanın ideologiyasının mövcud anti-kilsə mahiyyətini və məqsədlərini bir daha ortaya qoyur". Qeyd olunub ki, Erməni Apostol Kilsəsinin "millilik missiyası, onun müqəddəs ənənələri və mənəvi həyatı" (?) siyasi spekulyasiya mövzusuna çevrilməməlidir: "Ana Taxtın dəfələrlə bildirdiyi kimi, katolikosun seçilməsi və kilsə daxilində istənilən islahat yalnız mənəvi-kanonik səlahiyyətlər çərçivəsindədir və buna görə də siyasi partiyaların və dövlət hakimiyyətinin müdaxilə sferasından tam kənardadır. Qanun pozuntusu əsasında qəbul olunmuş fəaliyyət tərzi milli maraqlara zidd və tamamilə qəbuledilməzdir".



* * *

Qeyd etmək lazımdır ki, kilsənin hər yeni islahat təşəbbüsünə kəskin etiraz etməsi də ilk deyil. Eçmiədzin son illər hökumətin atdığı addımlara ardıcıl şəkildə qarşı çıxır, olan-qalan nüfuzunu qorumağa çalışır. Lakin məsələnin daha dərin səbəbləri var. Erməni cəmiyyəti artıq anlayır ki, kilsə sadəcə, dini mərkəz deyil, O, ölkədə hakim olmuş köhnə siyasi güclərin dayaqlarından biri kimi hər zaman proseslərə müdaxilə edib. Xüsusilə də 2018-ci ildən sonra baş verən dəyişikliklərlə barışmayan dairələr kilsənin arxasında gizlənərək hakimiyyətə təzyiq göstərməyə cəhd ediblər. Bu səbəbdən kilsə bu gün də islahatlara qarşı çıxarkən, əslində, öz mövqeyini deyil, revanşist qüvvələrin mövqeyini müdafiə edir. Paşinyanın islahat istəyini haqlı edən məqam da budur. Ermənistan yeni dövrə qədəm qoyub və ölkə daxilində keçmiş düşüncənin hakim olmasına imkan vermək mümkün deyil. Əgər kilsə həqiqətən xalqın həyatında müsbət rol oynamaq istəyirsə, dəyişiklikdən qaçmamalıdır. Əks halda, illərlə siyasi fikirlərə yön vermək cəhdləri davam edəcək. Bu isə nə Ermənistanın bugünkü reallığına, nə də bölgədə yaranmış yeni şəraitə uyğundur.

Kilsənin mövqeyi təkcə daxili siyasətdə deyil, Ermənistan–Azərbaycan münasibətlərində də daim özünü göstərib. Tarix boyu qarşıdurmaların mənəvi dayaqlarından biri məhz kilsədə yaradılan təsəvvürlər olub. Ermənistanda formalaşmış düşmən obrazının əsas mənbələrindən biri kimi çıxış edən bu yanaşma çoxlu qanlı hadisələrin ideya əsasını təşkil edib. Birinci və İkinci Qarabağ müharibəsində, onlardan çox-çox illər öncə baş verən və tarixə azərbaycanlıların soyqırımı kimi düşən hadisələrdə kilsənin tutduğu mövqe qırğınların daha da genişlənməsinə yol açıb. Bu gün də kilsənin dəyişiklikdən imtina etməsi həmin köhnə baxışların qorunmasına xidmət edir.

Paşinyanın məqsədi kilsəni dağıtmaq deyil, onun dövlətin inkişafına mane olan təsirlərini azaltmaqdır. Kilsə bu prosesdən qorxmaq əvəzinə, öz daxilində yenilənməyə çalışmalıdır. Çünki Ermənistanın gələcəyi köhnə qapalı düşüncə ilə deyil, sülhə və normal qonşuluğa əsaslanan yanaşma ilə mümkündür. Əgər kilsə doğrudan da "milli dəyərlərin qoruyucusu" olmaq istəyirsə, əvvəlcə bu dəyərləri nifrət üzərində deyil, real həyatın tələbləri üzərində qurmalıdır. Bu mənada islahatlar qaçılmazdır. Ermənistanın gələcək inkişafı üçün kilsənin siyasətə təsir imkanları məhdudlaşdırılmalı, dini mərkəz xalqın mənəvi həyatı ilə məşğul olmalı, siyasi proseslərin alətinə çevrilməməlidir. Paşinyanın qarşılaşdığı müqavimət isə göstərir ki, dəyişikliklər sadəcə dini çevrələrin deyil, uzun illərdən bəri köhnə düşüncə ilə yaşayan dairələrin narahatlığıdır. Lakin dəyişiklik nə qədər çətin olsa da, Ermənistan üçün zəruridir.

**Politoloq Ramiyə Məmmədova** mövzu ilə bağlı XQ-yə açıqlamasında bildirdi ki, "Mülki müqavilə"nin seçki platformasındakı kilsənin fəaliyyətinə dair dəyişikliklərə Eçmiədzinin sərt reaksiyası bu qurumun uzun illərdir qoruduğu mövqelərin sarsılacağından narahat olması ilə bağlıdır. Onun sözlərinə görə, əslində, Paşinyanın bu sahədə islahat təşəbbüsü onsuz da gecikmiş addım hesab oluna bilər: "Çünki son illər Ermənistan cəmiyyətində kilsənin siyasi proseslərə həddindən artıq müdaxilə etdiyi barədə narazılıq artıb. Bu narazılığın kökü təkcə daxili məsələlər deyil. Tarix boyu kilsə Ermənistanın region ölkələri



ilə münasibətlərində də iqtiqamətverici rol oynayıb və bir çox hallarda gərginliyə səbəb olan mövqelər nümayiş etdirib. Xüsusən də Azərbaycanla münasibətlərdə dini mərkəzdən yayılan fikirlər cəmiyyətdə düşmən obrazının möhkəmlənməsinə xidmət edib. Bu yanaşma indi də davam edirsə, Ermənistanın gələcək sülh gündəmini xeyli zəiflədə bilər".

Ekspert qeyd etdi ki, Paşinyanın hədəfi kilsəni siyasiləşmədən uzaqlaşdırmaq və onun cəmiyyət üçün mənəvi mərkəz kimi qalmasını təmin etməkdir: "Kilsənin buna qarşı çıxması isə göstərir ki, köhnə düşüncə tərzindən əl çəkmək hələ də asan görünmür. Bununla belə, Ermənistanın yeni reallıqları artıq fərqli seçim tələb edir. İslahatlar təkcə dövlət idarəçiliyi deyil, ictimai münasibətlərin sağlamlaşması üçün də vacibdir. Bu baxımdan hökumətin başladığı proses uzunmüddətli sabitlik üçün zəruri addım kimi dəyərləndirilə bilər".

*Səxavət HƏMİD*
*XQ*

# ABŞ-ın vitse-prezidenti Brüsseli niyə tənqid etdi?

## Macarıstan nümunəsində Aİ siyasətinə etiraz mesajları

**Əvvəlki yazılarımızda Macarıstanda seçki öncəsi gərginliklə bağlı məlumat vermişdik. Qısa bir xatırlatma edək ki, mövcud gərginliyin əsas xəttini hakimiyyətlə müxalifət arasındakı dərin siyasi qarşıdurma və xaricdən müdaxilə iddiaları təşkil edir. Xüsusilə Viktor Orban hakimiyyətinin mövqeyi ilə Avropa İttifaqı (Aİ) institutlarının yanaşması arasında yaranan fikir ayrılığı prosesi daha da mürəkkəbləşdirir. Cari vəziyyət seçkilərin daha geniş geosiyasi kontekstin tərkib hissəsinə çevrildiyini göstərir. Daha dəqiq desək, sabah keçiriləcək səsvermə ölkənin gələcək kursu ilə yanaşı, Avropa siyasi sistemində də balansa da təsir edə biləcək mühüm mərhələ kimi qiymətləndirilir.**

Elə bu çərçivədə ABŞ-ın vitse-prezidenti Ceyms Devid Vensin Macarıstana səfəri fonunda səsləndirdiyi fikirlər xüsusi əhəmiyyət kəsb edir və son illər transatlantik münasibətlərdə dərinləşən ideoloji çatların açıq siyasi ritorikaya çevrildiyini təsdiqləyir. Vensin Avropa İttifaqı institutlarına, xüsusilə də Brüsseldə formalaşan siyasi mərkəzə yönəlmiş tənqidləri bütövlükdə Qərb dünyasında dəyərlər, idarəetmə modelləri və suverenlik anlayışı üzərində gedən fundamental mübahisələri yenidən gündəmə gətirir. Onun iddialarına görə, Brüssel bürokratiyası Macarıstanda seçki proseslərinə dolayı təsir göstərərək, milli maraqları önə çəkən liderlərin zəiflədilməsinə çalışır. Əslində Vensin tezisi son dövrlərdə Qərb daxilində getdikcə daha çox səslənən "daxili müdaxilə" diskursunun yeni mərhələyə keçdiyindən xəbər verir.

Məlumdur ki, Macarıstanın Baş naziri Viktor Orbanın rəhbərliyi ilə həyata keçirilən siyasət uzun müddətdir ki, Avropa siyasi spektrində mübahisə doğuran mövzulardan biridir. Orban hökuməti milli suverenliyi, iqtisadi proteksionizmi və ənənəvi dəyərlərin qorunmasını prioritet elan etməklə Brüsseldən daha mərkəzləşdirilmiş və liberal yanaşmasına alternativ model təklif edir. Həmin modelin Avropanın bəzi ölkələrində rezonans doğurması, xüsusilə Çexiya və Slovakiya kimi dövlətlərdə oxşar siyasi kursların güclənməsi Birlik daxilində ideoloji parçalanmanı dərinləşdirir. Vensin daha əvvəl Münxen Təhlükəsizlik Konfransı çərçivəsində səsləndirdiyi fikirlər də bu kontekstdə xüsusi əhəmiyyət daşıyır. O, Avropanın ifrat liberal dəyərlər sisteminə sürükləndiyini və bunun uzunmüddətli perspektivdə siyasi, sosial və demoqrafik böhranlara yol açdığını vurğulamışdı. Belə qənaətə gəlmək olar ki, vitse-prezidentin yanaşması ABŞ daxilində güclənən konservativ dalğanın Avropa ilə münasibətlərə təsir etdiyini xatırlatmağa yönəlib. Əgər bir neçə il əvvəl Vaşinqton və Brüssel arasında dəyərlər baxımından ciddi fərqlərdən danışmaq çətin idisə, indi bu fərqlər açıq siyasi diskursun mərkəzinə çevrilib.



Avropada milli maraqları ön plana çəkən siyasi liderlərin artması da təsadüfi proses deyil. Qloballaşmanın yaratdığı sosial bərabərsizliklər, miqrasiya böhranı, enerji təhlükəsizliyi problemləri və iqtisadi qeyri-sabitlik bir çox ölkələrdə seçiciləri daha sərt və milli yönümlü siyasətə üstünlük verməyə sövq edir. Macarıstan, Çexiya və Slovakiya kimi ölkələrdə sözügedən tendensiyanın güclənməsi Aİ-nin vahid siyasi xəttinin sarsıldığını göstərir. Bu dövlətlərin liderləri Brüsselin diktə etdiyi siyasətə alternativ olaraq daha çevik, milli maraqlara uyğun qərarların qəbulunu müdafiə edirlər. Bu isə öz növbəsində Avropa daxilində "mərkəz-periferiya" qarşıdurmasını daha da kəskinləşdirir.

Ümumən Brüsselin Macarıstana münasibətdə sərgilədiyi siyasət çox vaxt demokratik standartların qorunması kimi təqdim edilsə də, tənqidçilər bunu siyasi təzyiq aləti kimi qiymətləndirirlər. Soros ənənələri kimi təqdim olunan yanaşmalar çərçivəsində qeyri-hökumət təşkilatlarının, medianın və müxtəlif vətəndaş təşəbbüslərinin aktivləşdirilməsi, aksiyaların təşkili və ictimai rəyin yönləndirilməsi kimi mexanizmlərdən istifadə edildiyi iddia olunur. İddialar xüsusilə Orban hökumətinin tərəfdarları tərəfindən ölkə daxilində "beşinci kolon" fəaliyyətinin genişləndirilməsi kimi xarakterizə edilir. Belə yanaşma isə artıq klassik diplomatik təsir vasitələrindən daha çox, hibrid təsir alətlərinin tətbiqini xatırladır.

Maraqlı məqam ondan ibarətdir ki, Avropa siyasətçiləri oxşar fəaliyyətləri başqa ölkələrə münasibətdə tez-tez "hibrid müharibə" kimi qiymətləndirirlər. İnformasiya manipulyasiyası, ictimai narazılığın stimullaşdırılması və siyasi proseslərə dolayı müdaxilə kimi elementlər isə həmin anlayışın əsas komponentləri hesab olunur. Lakin eyni metodların Avropa daxilində tətbiq edilməsi ittihamları Qərb siyasi sisteminin öz daxilində ciddi etik və siyasi dilemmanın formalaşdığını göstərir. Yəni Vens çıxışında dolayı yolla ikili standartlar məsələsini yenidən gündəmə gətirir və Qərbin öz daxilində legitimlik böhranı yaşadığını iddia edir. Hazırkı mərhələdə Brüsselin zəifləməsinə təsir edən əsas amillərdən biri də Vaşinqtonun əvvəlki kimi tam dəstək verməməsidir. ABŞ daxilində siyasi kursun dəyişməsi və Avropa siyasətinə daha tənqidi yanaşmanın güclənməsi Aİ-nin geosiyasi mövqelərini zəiflədir.

Yeri gəlmişkən, Macarıstanın xarici siyasətində diqqətçəkən istiqamətlərdən biri də türk dünyası ilə yaxınlaşmadır. Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın genişlənməsi, enerji, nəqliyyat və mədəni sahələrdə əlaqələrin dərinləşdirilməsi Budapeştin çoxşaxəli xarici siyasət yürütmək niyyətini ortaya qoyur. Amma ölkənin sözügedən istiqamətdəki fəaliyyəti də Aİ daxilində birmənalı qarşılanmır və bəzi siyasi dairələr tərəfindən geosiyasi balansın dəyişməsi kimi qiymətləndirilir. Xülasə, ölkənin həm Şərq, həm də Qərb ilə paralel əməkdaşlıq modeli qurmağa çalışması onu Avropa daxilində fərqli mövqedə yerləşdirir.

Baş verən proseslər fonunda Aİ-nin gələcək inkişaf trayektoriyası ilə bağlı suallar daha da aktuallaşır. Mərkəzləşmiş idarəetmə modeli ilə milli suverenlik arasında balansın necə qurulacağı, ideoloji müxtəlifliyin hansı çərçivədə qorunacağı və üzv dövlətlərin daxili siyasətinə müdaxilə sərhədlərinin harada müəyyən ediləcəyi kimi məsələlər əsas müzakirə mövzuları kimi qalır. Hələlik əsas diqqət sabah keçiriləcək seçkilərdədir. Seçkilərin nəticələrindən sonra çox güman bütün daşlar yerinə oturacaq...

*Nəzrin ELDARQIZI*
*XQ*

*Ekspert rəyi*

**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı**



Avropada sağ, hətta qismən millətçi siyasi qüvvələr ABŞ prezidenti və vitse-prezidenti tərəfindən açıq şəkildə dəstəklənir. Orbanı dəstəkləmək məqsədilə Fransadan da müəyyən siyasi fiqurların Macarıstana səfər etdiyi müşahidə olunub. Eyni zamanda, Almaniyadan sağçı qüvvələrin nümayəndələri də prosesdə iştirak ediblər, İtaliyadan da oxşar siyasi dəstək siqnalları verilir. Bütün bunlar artıq açıq görünən tendensiyaya çevrilib.

Bununla belə, seçkiqabağı vəziyyət mürəkkəb olaraq qalır. Maraqlıdır ki, Orbanın əsas rəqibi Piter Maqyar, əslində, millətçi mövqedən çıxış edir. O, vaxtilə hakim partiyanın üzvü olub, lakin sonradan münasibətləri pozulduqdan sonra müstəqil siyasi fiqur kimi Orbana qarşı sına çıxıb. Hazırda Orban əleyhinə olan müxtəlif siyasi qüvvələr onun ətrafında birləşərək hakimiyyət dəyişikliyinə nail olmağa çalışırlar. Son sorğular göstərir ki, proporsional siyahı üzrə Orbanın partiyası rəqibi Piter Maqyar ilə ciddi rəqabət aparır və bəzi hallarda geri qalır. Lakin Macarıstanın seçki sistemi partiya siyahısı ilə məhdudlaşmır, eyni zamanda, dairələr üzrə də mandatlar müəyyən edilir. Məhz bu element Orbanın parlamentdə üstünlük qazanmaq şansını artırır. Ümumilikdə, parlamentdə qüvvələr balansının çox yaxın olması gözlənilir. Kiçik partiyaların nəticələri isə həlledici rol oynaya bilər və onların hansı tərəfi dəstəkləyəcəyi siyasi mənzərəni müəyyən edəcək.

# Azərbaycanşünaslığın inkişafı və azərbaycançılıq konsepsiyası



## III MƏQALƏ

### Yanaşma fəlsəfəsi

Bədii təfəkkürün dövrləşdirilməsi konsepsiyasını adekvat dərk etmək üçün Yaşar Qarayev mənasında "bütöv-bütöv dövrləri, yüzilləri, hətta eraları tədqiqatda əhatə olunan tarixlərdən çıxdaş eləmək bizim mövcud humanitar – filoloji ənənələrin ən sürəkli əyintiləri"nin tamamilə Azərbaycançılığa və azərbaycanşünaslığa yanaşma fəlsəfəsindən silinməsi zəruridir. Həmin "əyintilər"in müxtəlif bəhanələrlə davam etməsinə qarşı Vətənsevər "ziyalı intellektual sipəri" çəkilməlidir. Burada bədii təfəkkürün azərbaycançılıq ideyası, prinsipi, konsepti və konsepsiyasının təməl müddəaları istiqamətverici rol oynaya bilər. Məsələ onunla bağlıdır ki, əsrlərlə bədii təfəkkür (ədəbiyyat, incəsənət) Azərbaycan qövmünün həyat tərzində, kollektiv mövcudluq formasında müstəsna rol oynamışdır.

Azərbaycançılığı azərbaycanşünaslığın mərkəzi və aparıcı ideyası, prinsipi, konsepti və konsepsiyası olaraq tam və əhatəli dərk etmək, əlbəttə, daha geniş yanaşma tələb edir. Bununla yanaşı, bədii təfəkkürün dövrləşmə konsepsiyasının əsas müddəaları məsələnin mahiyyətinə əhəmiyyətli dərəcədə aydınlıq gətirir. Bu aspekt üzərində dayanaq.

### Azərbaycançılığın prinsipləri

Bədii təfəkkürün dövrləşdirilməsi konsepsiyasında azərbaycançılıq prinsipləri ulu öndər Heydər Əliyevin müəyyən etdiyi və Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilən azərbaycançılığın ümumi prinsiplərinin bədii təfəkkürə tətbiqi əsasında izah edilmişdir. Obrazlı desək, bədii təfəkkürün dövrləşdirilməsi tamamilə və bütövlükdə Heydər Əliyev–İlham Əliyev müstəqil dövlət quruculuğu xəttinin nəzəri-konseptual və praktiki-tətbiqi hüdudları daxilindədir. Əhatəli təhlil göstərir ki, həmin konsepsiyada vurğulanan nəzəri, konseptual, dünyagörüşü və dövlətçilik kontekstində tətbiqi çərçivədən zərrə qədər də kənara çıxma yoxdur! Bu, ümumiyyətlə, Azərbaycan fəlsəfi, tarixi, bədii, sosioloji, kulturoloji və digər elmi təfəkkür dövrləşdirilmələrinin təməl şərti kimi çox vacib məqamdır!

Dövrləşdirmə konsepsiyasında azərbaycançılığın əsas prinsipləri aşağıdakı kimi təqdim edilmişdir: I. Azərbaycançılıq məfkurəsi; II. Azərbaycan xalqı; III. Azərbaycan dövlətçiliyi; IV. Azərbaycan dili; V. Milli-mənəvi dəyərlər; VI. Azərbaycan ədəbiyyatı; VII. Azərbaycanşünaslıq. Həmin prinsiplərin hər birinin konseptual bazasını ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin ifadə etdikləri kəlamlar təşkil edirlər. Azərbaycanşünaslıq kontekstində onların hər birinin ana tezisini ümumi olaraq aşağıdakı kimi müəyyən etmək olar:

Birinci prinsip üzrə: "Azərbaycançılıq – Azərbaycanın ərazi bütövlüyünün, vahid Vətən, vətəndaş həmrəyliyi və milli birlik ideyalarının təcəssümü, ümumiləşmiş ifadəsidir, milli iftixar və Vətənçilik azərbaycançılıq məfkurəsinin əsas ideya mənbəyidir".

İkinci prinsip üzrə: "Azərbaycan xalqı müstəqil Azərbaycan dövlətinin yaradıcısı, sahibi, daşıyıcısı və qoruyucusudur, Azərbaycan xalqı – tarixən və mənşə etibarilə Azərbaycanda yaşayıb formalaşan, ölkəni qoruyub saxlayan və inkişaf etdirən əsas hərəkətverici qüvvədir, azərbaycançılıq – Azərbaycanı özünə Vətən hesab edən bütün xalqları birləşdirən ideologiyadır".

Üçüncü prinsip üzrə: "Azərbaycan dövləti – Azərbaycan xalqının öz tarixi ərazisində çoxəsrlik ənənələri olan, ölkənin ərazi bütövlüyünü yaşadan və qoruyub möhkəmləndirən idarəetmə sistemidir, güclü dövlət, demokratik prinsiplər, milli sərvət, iqtisadi inkişaf və hərbi qüdrət Azərbaycan Respublikasının hərtərəfli inkişafının əsasıdır".

Dördüncü prinsip üzrə: "Azərbaycan dili – Azərbaycan Respublikasının dövlət dilidir, Azərbaycan dili – Azərbaycan xalqının ana dili və ölkədə yaşayan bütün millətlərin, azsaylı xalqların vahid ünsiyyət vasitəsidir".

Beşinci prinsip üzrə: "Azərbaycançılıq – xalqın milli-mənəvi özünüdərketmə təlimidir".

Altıncı prinsip üzrə: "Azərbaycan ədəbiyyatı – Azərbaycanda və dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların yaratdıqları böyük ədəbiyyatdır, millilik və bəşərilik, azərbaycançılıq və birlik idealları, habelə yüksək bədiilik Azərbaycan ədəbiyyatının əsas xüsusiyyətləridir".

Yeddinci prinsip üzrə: "Azərbaycanı öyrənmək – azərbaycanşünaslıqdır. Azərbaycan – ana Vətən və ümummilli ideal; azərbaycançılıq – milli ideologiya; azərbaycanşünaslıq – elmdir!"

Bu prinsipləri vahid məntiqi və semantik sahədə ümumiləşdirsək, belə bir ideya "mənzərəsi" alırıq: Dövrləşdirmə konsepsiyasında azərbaycançılıq ideya, prinsip, konsept və konsepsiya formalarında bir-birini tamamlayan anlayışların sistemidir. Onların kompleks halında "idraki legitimliyi" zaman-məkan vəhdətində təcəssüm edir. Lakin semantikası bununla məhdudlaşmır. Bütövlükdə zaman-məkan kontinuumu (vəhdəti, bütöv mövcudluğu) coğrafi parametrlə daimi qarşılıqlı bağlılıqda gerçəklik yaradır. Bu tezisin fəlsəfəsi geniş təhlil və təsvir tələb edir. Burada qısaca əsas məqamlar üzərində dayanaq.

### Zaman-məkan anlamı

Öncə, vurğulanan 7 prinsip üçün ortaq olan ideyanı aydınlaşdıraq. Prinsiplərin müəyyən edilməsi fəlsəfəsinin tam olaraq Heydər Əliyev–İlham Əliyev dövlət quruculuğu xətti çərçivəsində olması heç vaxt arxa plana atıla bilməz, əksinə, bütün elmi idraki addımların təməlində məhz həmin məqam dayanır. Bu prizmada prinsiplərin ortaq semantik sahəsində azərbaycançılığın Zamanın dinamikasında xüsusi anlamlar kəsb etdiyi və müxtəlif faktorların funksiya baxımından "yer dəyişdiyini" görürük. Misal üçün, dövrləşdirmənin ilk mərhələsində azərbaycançılıq "etnosdan eposa təkamül" formasında özünü göstərir. Başqa terminologiya ilə şifahi mədəniyyətdən yazılı mədəniyyət növünə keçidin coğrafi parametrin konkret rəqəmlərindən deyil, etnosun siyasi, hüquqi, mənəvi, əxlaqi və mədəni özəllikləri ilə xarakterizə olunduğu aydınlaşır.

Dövrləşdirmə konsepsiyasında bu bağlılıqda vurğulanmışdır: "Qədim dövr Azərbaycan şifahi xalq ədəbiyyatı onu yaradan xalqın mənşəyinin və təkamül proseslərinin və ideallarının eposudur. Şifahi xalq ədəbiyyatı mənsub olduğu xalqın zəngin xəzinəsi, əsatir isə onun açarıdır... Geniş mənada etnosdan eposadək yaşanan ədəbi-tarixi proses Azərbaycan xalqının soykökdən milli varlığa, əsatirdən-dastana qədərki təkamül proseslərinin epopeyasıdır".

Ümumi kontekstdə isə: "Qədim dövr Azərbaycan ədəbiyyatı milli ədəbiyyatın ilkin və zəngin mərhələsi olub, etnosdan-eposadəqədərki inkişaf proseslərini əks etdirən şifahi yaradıcılığın möhtəşəm salnaməsi və həm də özündən sonrakı dövrlərin inkişafında hərəkətverici donor kimi fəal iştirak edir".

Nəticədə: "...şifahi bədii düşüncənin ibtidai başlanğıcdan kamillik mərhələsinədək olan təkamül prosesləri sadəcə ədəbiyyatın deyil, geniş mənada onun mənsub olduğu etnosun da özünəməxsus xüsusiyyətlərə malik bir xalq kimi artıq var olmasının isbatıdır. Xalqın inkişaf səviyyəsi həm də onun yaratdığı ədəbiyyatın səviyyəsi ilə müəyyən olunur".

Deməli, azərbaycançılıq baxımından bədii təfəkkürün formalaşması Zamanca etnosdan eposa keçid (mədəniyyət olayı kimi: şifahi mədəniyyət növündən yazılı mədəniyyət növünə keçid) fonunda baş vermişdir. Burada ilkin mərhələdə azərbaycançılıq coğrafi məkanla dəyişən mənzərələr fonunda əlaqəli olmuşdur. Yəni konkret "hansı ərazidə?" sualının coğrafi "cavabı" arxa plandadır. Bəs həmin mühüm faktoru hansı parametr əvəz edə bilərdi?

Dövrləşmənin sonrakı mərhələsinin (Azərbaycan yazılı ədəbiyyatının ortaq başlanğıc mərhələsi (VII-X əsrlər) təqdimatı göstərir ki, həmin faktor ümumtürk coğrafiyasının təfəkkürdə formalaşmış tarixi obrazıdır. Yəni ümumi halda birinci mərhələdən ikinciyə keçid ümumtürk kontekstində dil, din, mədəniyyət, mənəvi-əxlaqi dəyərlər və onların bədii obrazlarının xüsusiyyətləri fonunda xarakterizə oluna bilər. Konsepsiyada VII-X əsrlərdə formalaşmış ədəbiyyat haqqında yazılmışdır: "Azərbaycan yazılı ədəbiyyatının tarixinin müəyyən olunmasında müxtəlif meyarlara istinad edilmişdir ki, bunların da içərisində 3 prinsip əsas yer tutur:

1. Ortaq türk yazılı mətnlərinə istinad olunması;
2. Anadili milli ədəbiyyat faktoru;
3. Harada yaşamasından, hansı dildə yaranmasından asılı olmayaraq, milliyyət etibarilə azərbaycanlı olan qələm sahiblərinin əsərlərinin meydana çıxması" (seçmə akademik İsa Həbibbəylinindir).

Bundan sonrakı İntibah mərhələsində (konsepsiyada XI-XII əsrlər) ümumtürk konteksti və dil məsələsi yenə də aktuallaşmışdır. Prosesin azərbaycançılıq kontekstində həmin mənzərəsi belə təqdim olunur: "...XI-XII əsrlər Azərbaycan ədəbiyyatı türk-müsəlman dünyası intibahının mühüm və parlaq ədəbi-mədəni hadisəsidir. Bu tarixi mərhələ Azərbaycan ədəbiyyatının "qızıl dövrü"dür. Epik poemalar, mənzum romanlar, süjetli lirika, məsnəvi formasının geniş yer tutması, qəsidə və rübai janrlarının aparıcı mövqe qazanması bu dövr Azərbaycan ədəbiyyatının səciyyəsini müəyyən edir. Bəşəri ideyalar, humanizm, ədalət, bərabərlik, azadlıq, şəxsiyyətin bütövlüyü və mənəvi zənginliyi intibah dövrü Azərbaycan ədəbiyyatının əsas ideallarıdır".

Dövrləşdirmə konsepsiyasında bundan sonrakı mərhələ "Orta əsrlər Azərbaycan ədəbiyyatı. Anadilli ədəbiyyat epoxası: Həsənoğludan Füzuliyədək (XIII-XVI əsrlər)" kimi adlandırılmışdır. Bu müddətdə bədii təfəkkürdə Ana dili aparıcı faktor olaraq yer almışdır.

Eyni zamanda, bədii təfəkkürdə "Azərbaycan" ideyası daha konkret semantik sahədə müəyyən edilmişdir. Onun başlıca əlaməti romantik dövrdən cəmiyyətin problemlərinə istiqamətlənmə əsasında realizmə keçidlə ifadə olunur. Konsepsiyada həmin aspektdə vurğulanmışdır: "...türk-müsəlman ədəbi mühitində...orta əsrlər Azərbaycan ədəbiyyatı ədəbi fikrimizin tarixinə anadilli ədəbiyyat epoxası kimi daxil olmuşdur... Bundan sonrakı mərhələlərdə nəinki anadilli ədəbiyyat hakim mövqe qazanmışdır, hətta xalq həyatı və xalq şeiri də yazılı ədəbiyyatın əsas mövzusuna və üslubuna çevrilmişdir. Beləliklə, Azərbaycan ədəbiyyatının orta əsrlər romantik dövrü tamamlanmışdır. Məhəmməd Füzulinin bir əsərində meydana çıxan "Şikayətnamə" sonrakı dövrlərin realist ədəbiyyatının mövzusuna, ahənginə və ritminə çevrilmişdir".

Deməli, XVI əsrin sonuna qədər bədii təfəkkürdə azərbaycançılıq əsasən ümumtürk kontekstində və başlıca olaraq mənəvi-mədəni, dil, din aspektində təzahür etmişdir. Eyni zamanda, artıq həmin dönəmdə bədii təfəkkür Azərbaycan cəmiyyətinin problemlərinə semantik istiqamətlənmiş və bu anlamda sosial mühitə "yüklənməyə" başlamışdır.

Bununla da azərbaycançılıqda açıq və ya gizli formada coğrafi faktor getdikcə özünə daha çox yer etməyə başlamışdır. Lakin yalnız XX əsrdə bu proses azərbaycançılığın müstəqil dövlət, ölkə, ayrıca mədəni məkan statusunda bədii təfəkkürdə yer alması ilə nəticələnmişdir. Ulu öndər Heydər Əliyevin həmin kontekstdə yüksək töhfələri əvəzedilməzdir!

Həmin dönəmdən azərbaycançılıq ideya, prinsip, konsept və konsepsiya olaraq Azərbaycan dövlətçiliyi aparıcı yer tutmaqla, bədii təfəkkürün tədqiqat hədəfinə gətirilmişdir.

Bütün bunlar müasir mərhələdə azərbaycanşünaslığın Azərbaycan haqqında bir elm kimi inkişafının mərkəzinə gətirilməsinin nə dərəcədə təbii zərurət olduğunu təsbit etməyə imkan verir. Bədii təfəkkürün dövrləşdirilməsi konsepsiyasının bu prosesdə böyük nəzəri-konseptual və praktiki əhəmiyyət kəsb etdiyinə şübhə yoxdur!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

**Aprelin 10-da parlamentin növbəti plenar iclası keçirildi. İclasda siyasi, iqtisadi və sosial məsələlər ətrafında çıxışlar edildi, mühüm qanun layihələri ətrafında müzakirələr aparıldı. Açılış nitqi ilə çıxış edən Milli Məclisin sədri Sahibə Qafarova Çinə reallaşan işgüzar səfərin yekunları barədə məlumat verdi. Spiker bildirdi ki, Azərbaycanın xüsusi qonaq qismində qatıldığı Asiya naminə Boao Forumunda ölkəmizin "Bir kəmər, bir yol" layihəsinə ən çox sərmayə qoyan ikinci dövlət olduğu və Avrasiyanın əsas nəqliyyat qovşağına çevrildiyi vurğulanıb. Sədr, həmçinin regional sülh prosesi çərçivəsində kommunikasiyaların bərpasının Orta Dəhlizin səmərəliliyini artıracağını qeyd edərək, Ümumçin Xalq Nümayəndələri Yığıncağının rəhbərliyi ilə parlamentlərarası institusional əlaqələrin genişləndirilməsi məsələlərini müzakirə etdiyini bildirdi.**

# Süni intellektlə saxta material yayanlar ciddi cəzalandırılacaq

## *Milli Məclis belə fırıldaqçılığı pislədi*




Daha sonra gündəlikdəki məsələlər ətrafında müzakirələr aparıldı. İlk olaraq Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi tərəfindən "Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında sürücülük vəsiqələrinin qarşılıqlı tanınması və dəyişdirilməsi haqqında Saziş"in təsdiqi barədə qanun layihəsi təqdim edildi. Bildirildi ki, sazişin imzalanmasında məqsəd hər iki dövlət arasında avtomobil daşımalarının təhlükəsizliyini artırmaq, yol hərəkətini yaxşılaşdırmaq, sürücülük vəsiqələrinin qarşılıqlı tanınmasını və dəyişdirilməsini təmin etməkdir. Layihə müzakirələrdən sonra səsverməyə qoyularaq bir oxunuşda qəbul edildi.

Əmək Məcəlləsinə və "Təhsil haqqında" qanuna təklif edilən dəyişikliklər üçüncü oxunuşda səsverməyə qoyularaq qəbul edildi. Layihəyə əsasən, Milli Məclis uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərindəki təhsilverənlərin sertifikasiya əsasında qiymətləndirilməsini təsdiqlədi. "Mədəniyyət haqqında" qanuna dəyişiklik layihəsi də son oxunuşda qəbul edildi.

Daha sonra Cinayət Məcəlləsində edilən dəyişikliklərlə bağlı qanun layihəsinə baxıldı. Müzakirələrdə çıxış edən Vüqar Bayramov minimum cərimə hədlərinin müəyyənləşdirilməsi və böyük məbləğlərdə məsuliyyətdən azadolmanın tətbiq olunmaması təklifi ilə çıxış etdi. Deputat bildirdi ki, təklif edilən dəyişikliklərə əsasən, dövlət vəsaitinin təyinatından kənar istifadə hallarında sabit cərimə mexanizmindən imtina edilərək faiz əsaslı sistemə keçid nəzərdə tutulur, bu zaman vəsaitin 100 faizi həcmində cərimə tətbiq olunmaqla yanaşı, azadlıqdan məhrumetmə də nəzərdə tutulur. V.Bayramovun sözlərinə görə, Azərbaycanda xeyli miqdarda ziyan 50–250 min manat, külli miqdarda isə 250 min manatdan yuxarı hesab olunur və bu səbəbdən böyük məbləğli vəsaitlərin təyinatdan yayındırılması hallarına belə güzəştlərin tətbiqi məqsədəuyğun deyil. Digər çıxışçı deputat Müşviq Məmmədli həmkarının fikirlərinə qatılaraq qeyd etdi ki, dövlət vəsaitinin mənimsənilməsi hallarında məsuliyyətdən azadolma norması məhdudlaşdırılmalıdır. Aparılan müzakirələrdən sonra layihə səsverməyə çıxarılaraq ikinci oxunuşda qəbul edildi.

*

Cinayət və Cinayət-Prosessual məcəllələrində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında, həmçinin İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələrinin müzakirəsi zamanı maraqlı çıxışlar oldu. Deputat Azay Quliyev süni intellektlə hazırlanan saxta materialları yaradanlara məsuliyyət tətbiqini təklif etdi. Onun sözlərinə görə, mövcud maddə yalnız bu cür materialları yayan şəxsləri məsuliyyətə cəlb edir, lakin onları hazırlayan şəxslərlə bağlı məsuliyyət nəzərdə tutulmur: "Təklif edirəm ki, süni intellektlə hazırlanmış materialları nişanlama olmadan hazırlayan və yayan şəxslər üçün ayrıca inzibati məsuliyyət müəyyən edilsin. Bu cür hallarda fiziki şəxslər 150–300 manat, hüquqi şəxslər isə 500–1000 manat məbləğində cərimə olunmalıdır".

Deputat Qüdrət Həsənquliyev qanun layihəsində bəzi ifadələrin dəqiqləşdirilməsinin vacibliyini bildirdi. O, layihədə "reallığı əks etdirməyən" ifadəsinin yanlış olduğunu diqqətə çatdırdı. Deputatın fikrincə, əgər hansısa görüntü reallığı əks etdirməsə də, şəxsin şərəf və ləyaqətinə zərər vurmursa, bu halda cinayət tərkibi yaranmır: "Cinayət Məcəlləsinin 14-cü maddəsinə əsasən, əməl yalnız ictimai təhlükəli olduqda cinayət sayılır. Əgər hansısa görüntü reallığı əks etdirməsə də, şəxsin şərəf və ləyaqətinə zərər vurmursa, bu halda cinayət tərkibi yaranmır". Müzakirələrdən sonra hər iki qanun layihəsi səsverməyə çıxarılaraq ikinci oxunuşda qəbul edildi və edilən təkliflərə baxılması üçün son oxunuşa göndərildi.

*

Əmək Məcəlləsində və "Narkoloji xidmət və nəzarət haqqında" qanuna dəyişiklik edilməsi qanun layihəsi ətrafında çıxış edən Siyavuş Novruzov narkotik asılılığından əziyyət çəkənlərin müalicəsi üçün imkanların genişləndirilməli olduğunu diqqətə çatdırdı. Deputat, həmçinin narkotiklərin ölkəyə daxil olma mənbələrinə də toxunaraq bildirdi ki, əsas problem məhz mənbənin müəyyən edilərək qarşısının alınmamasıdır: "Hər gün xəbərlərdə böyük həcmdə narkotiklərin aşkarlanması barədə məlumatlar verilir. Mənşəyi məlum deyil deyilir, İran vətəndaşlarından tapıldığı qeyd olunur. Amma bu prosesin kökü tapılmalı və mənbə kəsilməlidir. Əks halda, daşınmanın qarşısını almaq mümkün olmayacaq".

Deputat Göydəniz Qəhrəmanov çıxışında nikah zamanı narkoloji arayışın da tələb olunmasının məqsədəmüvafiq olduğunu qeyd etdi. O bildirdi ki, nikah bağlanarkən təqdim olunan tibbi arayışa əlavə olaraq, narkoloji tibb müəssisəsi tərəfindən verilmiş arayışın da tələb olunması daha yaxşı olar: "Bəzi hallarda şəxsdə narkoloji asılılıq nikahdan sonra üzə çıxır, bu isə ailələrin dağılmasına səbəb olur".

Əmək Məcəlləsində və "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" qanunda dəyişiklik layihəsinə əsasən, Əmək Məcəlləsində dəyişiklik edilərək işəgötürənlərin bərabər əməkhaqqı təmin etmək öhdəliyi konkretləşdirilir və əməkhaqqı sistemində cinsi ayrı-seçkiliyin qarşısının alınması gücləndirilir. Təklif edilən dəyişikliyə görə, bərabər dəyərli işin obyektiv qiymətləndirilməsinin əmək şəraiti, əmək funksiyasının xarakteri və qüvvədə olan Vahid Tarif-İxtisas Sorğu kitabçalarında nəzərdə tutulan xüsusiyyətlər nəzərə alınmaqla işəgötürənlər tərəfindən müəyyən edilməsi nəzərdə tutulur.

Daha sonra prokurorluq orqanlarına məxsus nəqliyyat vasitələrinin operativ kateqoriyaya daxil edilməsi barədə qanuna düzəliş ilk oxunuşda qəbul edildi. "Yol hərəkəti haqqında" qanuna təklif edilən dəyişikliyə əsasən, prokurorluq orqanlarına məxsus olan və kriminalistik avadanlıqlarla təmin edilərək hadisə yerinə təxirəsalınmaz prosessual hərəkətlərin yerinə yetirilməsi, növbətçi əməkdaşların hadisə yerinə çatdırılması və ya təxirəsalınmaz əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi üçün nəzərdə tutulan nəqliyyat vasitələri də operativ nəqliyyat vasitəsi hesab ediləcək. Həmçinin Vergi Məcəlləsində, "Təhsil haqqında" və "Minatəmizləmə fəaliyyəti haqqında" qanunlarda təklif edilən dəyişikliyə əsasən minatəmizləmə fəaliyyəti həyata keçirən zaman vəzifə borcunu yerinə yetirərkən həlak olmuş minatəmizləyənlərin ailə üzvlərinin sosial rifahının yaxşılaşdırılması və onlara dövlət qayğısının artırılması məqsədi ilə minatəmizləyənlərin övladlarının təhsilhaqqının dövlət büdcəsinin vəsaiti hesabına ödəniləcək. Layihədə Vergi Məcəlləsinə təklif edilən dəyişikliyə minatəmizləmə fəaliyyətini həyata keçirən zaman vəzifə borcunu yerinə yetirərkən həlak olmuş minatəmizləyənlərin ailə üzvlərinin vergi tutulmalı olan aylıq gəlirinin 400 manat məbləğində azaldılmasını nəzərdə tutur. Yekunda hər iki qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Bununla da Milli Məclisin plenar iclası başa çatdı.

***Tacir SADIQOV***
***XQ***

# Azərbaycan – BMT əməkdaşlığında yeni mərhələ

*5 illik inkişaf prioritetləri nələr vəd edir?*



**Azərbaycan ilə Birləşmiş Millətlər Təşkilatı (BMT) arasında əməkdaşlıq ölkənin müstəqillik əldə etməsindən sonra başlayıb. Azərbaycan 1992-ci ildə BMT-yə üzv qəbul edildikdən sonra tərəflər arasında rəsmi münasibətlər formalaşıb. Bu əməkdaşlıq əsasən ölkənin sosial-iqtisadi inkişafının dəstəklənməsinə, humanitar problemlərin həllinə və beynəlxalq inteqrasiyanın gücləndirilməsinə hesablanıb.**

İlk mərhələdə diqqət daha çox qaçqın və məcburi köçkün problemləri, yoxsulluğun azaldılması və institusional quruculuq üzərində cəmlənmişdi. Sonrakı dövrdə əməkdaşlıq genişlənərək davamlı inkişaf, iqtisadi şaxələndirmə, insan kapitalının inkişafı, ətraf mühitin qorunması və iqlim dəyişikliklərinə uyğunlaşma kimi sahələri əhatə etməyə başlayıb. Bu gün isə tərəfdaşlıq daha çox uzunmüddətli strateji inkişaf məqsədlərinə və qlobal çağırışlara uyğun siyasətin həyata keçirilməsinə yönəlib.

Ötən gün Azərbaycan hökuməti ilə Birləşmiş Millətlər Təşkilatı (BMT) arasında imzalanan yeni Davamlı İnkişaf üzrə Əməkdaşlıq Çərçivəsi ölkənin strateji tərəfdaşlıq münasibətlərində yeni mərhələnin əsasını qoyur. Sənəd 2026–2030-cu illəri əhatə etməklə Azərbaycanın dəyişən inkişaf ehtiyaclarına uyğun prioritetləri müəyyənləşdirir.

Bu barədə BMT-nin Azərbaycandakı rezident koordinator ofisinin rəhbəri Kanako Mabuçi Bakıda keçirilən Yüksək Səviyyəli Birgə Rəhbər Komitəsinin iclasında məlumat verib. Onun sözlərinə görə, sənəd Azərbaycanın orta–yuxarı gəlirli ölkə statusu və son illərdə formalaşan yeni sosial-iqtisadi reallıqlar nəzərə alınaraq hazırlanıb və 33 ildən artıq tərəfdaşlıq təcrübəsinə əsaslanır.

İqtisadiyyat nazirinin müavini Anar Axundov isə çıxışında bildirib ki, Çərçivə Sənədi üzrə ümumi maliyyə yükü 85,3 milyon dollar təşkil edir. Bu vəsaitin 51 milyon dolları artıq mövcuddur, qalan 34 milyon dolların isə qarşıdakı beş il ərzində cəlb olunması nəzərdə tutulur. Yeni əməkdaşlıq çərçivəsi iki əsas strateji istiqaməti əhatə edir.

Birinci istiqamət inklüziv sosial-iqtisadi inkişafın təşviqi və insan kapitalının gücləndirilməsinə yönəlib. Bu çərçivədə kənd təsərrüfatına ayrılan dövlət xərclərinin artırılması, qeyri-infeksion xəstəliklərdən vaxtından əvvəl ölüm hallarının azaldılması, qadınların idarəetmədə iştirakının genişləndirilməsi və sosial müdafiə sisteminin əhatə dairəsinin böyüdülməsi kimi hədəflər müəyyən edilib.

İkinci strateji istiqamət isə ekosistemlərin qorunması, iqlimə davamlılığın artırılması və "yaşıl artım" modelinin təşviqi ilə bağlıdır. Bu sahədə inteqrə olunmuş su ehtiyatlarının idarə olunması, bərpaolunan enerjinin ümumi istehlakdakı payının artırılması, tullantıların təkrar emalı və meşə örtüyünün genişləndirilməsi əsas prioritetlər kimi çıxış edir.

Kanako Mabuçi qeyd edib ki, yeni proqram çərçivəsində BMT-nin Azərbaycandakı fəaliyyəti daha çevik və inteqrasiya olunmuş formata keçirilib. Hazırda 12 imzaçı qurumun koordinasiyalı fəaliyyəti təmin olunur. Bununla yanaşı, Azərbaycanın çoxtərəflilik, iqlim diplomatiyası və regional əməkdaşlıq sahəsində təşəbbüslərinin dəstəklənməsi davam etdiriləcək.

Qeyd olunan sənəd həm də "Azərbaycan 2030" milli prioritetləri ilə uyğunluq təşkil edir və ölkənin uzunmüddətli inkişaf strategiyasına inteqrasiya olunur. Bu baxımdan, yeni Çərçivə Sənədi təkcə maliyyə və proqram sənədi deyil, eyni zamanda, Azərbaycanın dayanıqlı inkişaf, iqtisadi şaxələndirmə və ekoloji balans istiqamətində yol xəritəsi kimi çıxış edir.

Beləliklə, Azərbaycan və BMT arasında formalaşan yeni əməkdaşlıq modeli qarşıdakı illərdə həm sosial rifahın yüksəldilməsi, həm də qlobal çağırışlara uyğun dayanıqlı inkişafın təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Qeyd edək ki, yeni əməkdaşlıq çərçivəsi Azərbaycanın iqtisadi inkişaf modelində davam edən struktur dəyişiklikləri fonunda xüsusi əhəmiyyət kəsb edir. Son illərdə ölkədə qeyri-neft sektorunun genişləndirilməsi istiqamətində görülən işlər, iqtisadiyyatın şaxələndirilməsi və rəqəmsal transformasiya istiqamətində atılan addımlar bu sənəddə müəyyən olunan prioritetlərlə üst-üstə düşür. Bu baxımdan, Birləşmiş Millətlər Təşkilatı ilə birgə həyata keçiriləcək proqramların institusional potensialı gücləndirəcəyi gözlənilir.

Eyni zamanda, sənəddə "yaşıl artım" və iqlimə davamlılıq məsələlərinin ön plana çıxarılması Azərbaycanın qlobal iqlim gündəliyinə daha fəal inteqrasiya niyyətini ortaya qoyur. Bərpaolunan enerji mənbələrinin inkişafı, su ehtiyatlarının səmərəli idarə olunması və ekosistemlərin qorunması istiqamətində nəzərdə tutulan tədbirlər uzunmüddətli perspektivdə ekoloji tarazlığın təmin olunmasına xidmət edir.

Müşahidəçilərin fikrincə, yeni proqramın fərqləndirici xüsusiyyətlərindən biri sosial komponentin gücləndirilməsidir. Səhiyyə, məşğulluq və sosial müdafiə sahələrində müəyyən edilmiş hədəflər əhalinin rifah səviyyəsinin yüksəldilməsi baxımından mühüm rol oynaya bilər. Xüsusilə insan kapitalının inkişafı ilə bağlı təşəbbüslər iqtisadi artımın dayanıqlı xarakter almasına şərait yaradır. Bununla yanaşı, bu əməkdaşlıq formatı Azərbaycanın beynəlxalq müstəvidə mövqelərinin möhkəmlənməsi baxımından da diqqət çəkir. Çoxtərəfli əməkdaşlıq mexanizmlərində fəal iştirak, iqlim diplomatiyası və regional təşəbbüslərdə fəal rol ölkənin qlobal proseslərdə təsir imkanlarını artırır.

***Musa BAĞIRLI***
***XQ***

# "Şəfəq" layihəsinə son hazırlıq

**bp şirkəti tərəfindən həyata keçirilən 240 meqavatlıq "Şəfəq" Günəş Elektrik Stansiyası layihəsi üzrə inteqrasiya işlərinin icrası bu il iyulun 1-dək yekunlaşdırılacaq. Layihə çərçivəsində nəzərdə tutulmuş inteqrasiya işlərinin icraçı qurumları "Azərenerji" ASC və Energetika Nazirliyi müəyyənləşdirilib.**



Qeyd edək ki, Azərbaycanın Cəbrayıl rayonunda həyata keçirilən "Şəfəq" günəş layihəsi üzrə tikinti işləri plana uyğun olaraq davam edir. 2025-ci ilin iyun ayında yekun investisiya qərarından sonra investorları bp, "SOCAR Green" və Azərbaycan Biznesinin İnkişafı Fondu olan layihə üzrə mühəndislik, təchizat və tikinti işlərinə dair 2 əsas müqavilə imzalanıb.

Təqribən, 117 milyon ABŞ dolları dəyərində olan bu müqavilələr "Intec" və "Complant" şirkətlərinə verilib. Müqavilə mühəndislik, təchizat və tikinti xidmətləri üzrə bütün iş həcmini, eləcə də obyektin ilk iki il ərzində istismar və texniki xidmət işlərini əhatə edir. Artıq layihə sahəsində hazırlıq işləri tamamlanıb. Hazırda tikinti prosesi torpaq işləri və daxili yolların çəkilməsi ilə davam edir.

***XQ***

# Qarabağ və Şərqi Zəngəzurda yaylaq mövsümü

**Azərbaycanda qoyunçuluq və arıçılıq təsərrüfatlarını işğaldan azad edilmiş ərazilərdə yerləşən yaylaqlara aparmaq istəyən fermerlərin qeydiyyatına başlanılır. Qeydiyyat prosesi Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi vasitəsilə (eagro.az) həyata keçirilir. Bu barədə Kənd Təsərrüfatı Nazirliyi məlumat yayıb.**

Qurumdan verilən məlumata əsasən, təsərrüfatlarını azad olunuş ərazilərdəki yaylaqlara aparmaq istəyən, Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarından, yaxud İmişli, Beyləqan, Ağdaş, Yevlax, Mingəçevir, Ucar, Zərdab və Samux rayonlarından birində qeydiyyatda olan fermerlər eagro.az portalına öz təsərrüfatları haqqında məlumatları daxil edərək aprelin 13-də saat 10:00-dan etibarən qeydiyyatdan keçə bilərlər.



Bildirilib ki, fermerlərə yaylaq sahəsi portal vasitəsilə seçdiyi ərazi üzrə ayrılacaq. 2026-cı il yaylaq mövsümü dövründə arıçılıq təsərrüfatlarının Qubadlı, Zəngilan, Cəbrayıl, Xocavənd, Füzuli, Laçın və Kəlbəcər rayonları ərazisinə, qoyunçuluq təsərrüfatlarının isə Laçın və Kəlbəcər yaylaqlarına köçürülməsinə icazə verilir. Fermerlərin köç portalına daxil etdikləri məlumatların tələblərə uyğunluğu yoxlandıqdan sonra təsdiq ediləcək. təsərrüfat sahiblərinə portalda qeydiyyat zamanı göstərdikləri mobil nömrəyə köç tarixinə dair SMS bildirişi göndəriləcək.

Köç prosesində iştirak etmək istəyən fermerlərin öz təsərrüfatlarındakı iribuynuzlu və xırdabuynuzlu heyvanları identifikasiya etməsi və identifikasiya ilə bağlı məlumatları Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminə daxil etməsi tövsiyə olunur.

***XQ***

**Asiya İnkişaf Bankı (AİB) 2026-cı ildə dövlət xərclərinin mümkün artımı fonunda Azərbaycanın iqtisadi artımının 2 faiz olacağını proqnozlaşdırır. Gələn il isə karbohidrogen istehsalında proqnozlaşdırılan azalma səbəbindən artımın 1,8 faizə qədər yavaşlayacağı gözlənilir. Beləliklə, 2026-2027-ci illər ərzində ÜDM-in orta illik artım tempi 1,9 faiz səviyyəsində qiymətləndirilir. Bu barədə məlumat AİB-in "Asiyanın inkişaf perspektivləri" adlı aprel icmalında yer alıb.**

Hesabata əsasən, ümumi dövlət xərclərinin gözlənilən artımına baxmayaraq, investisiya xərclərinin azalması iqtisadi artımı məhdudlaşdıra bilər. Bank analitiklərinin fikrincə, neft hasilatında proqnozlaşdırılan azalmanı, çox güman ki, qeyri-neft sektorunun genişlənməsi kompensasiya edəcək. "2026 və 2027-ci illərdə xidmət sektorunda artım müvafiq olaraq 3,5 faiz və 3,4 faiz, kənd təsərrüfatında 1,4 faiz və 1 faiz səviyyəsində proqnozlaşdırılır, sənayedə isə müvafiq olaraq 0,2 faiz və 0,1 faiz orta dərəcədə azalma müşahidə olunacağı gözlənilir", – deyə hesabatda bildirilib.

# AİB-in ölkəmizdə iqtisadi artıma marağı və dəstəyi

*Mühüm maliyyə tərəfdaşımız 130-dan çox layihəyə 5,3 milyard dollar vəsait ayırıb*

İcmala əsasən, Azərbaycanda dövlət büdcəsinin kəsirinin 2026-cı ildə ÜDM-in 2,2 faiz, 2027-ci ildə isə 2,1 olacağı gözlənilir. Qeyd olunub ki, cari ildə Azərbaycan Dövlət Neft Fondundan transfertlər ÜDM-in 9,3 faizini təşkil edəcək. Bununla yanaşı, dövlət büdcəsinin xərcləri ÜDM-in 30,3 faizinə bərabər olacaq ki, bunun da 10,2 faizi dövlət əsaslı vəsait qoyuluşlarının payına düşəcək.

Asiya İnkişaf Bankı bu il ölkəmizdə inflyasiyanın 5,7 faiz olacağını proqnozlaşdırır. Bununla belə, icmalda qeyd olunur ki, gələn il karbohidrogen qiymətlərinin aşağı düşməsi ticarət tərəfdaşı ölkələrdə inflyasiyanın zəifləməsinə və müvafiq olaraq idxal inflyasiyasının azalmasına səbəb olacağı təqdirdə bu rəqəm 4,9 faizə qədər yavaşlaya bilər.

Bu arada, Asiya İnkişaf Bankının Qafqaz, Mərkəzi və Qərbi Asiya üzrə baş iqtisadçısı Corc Luarsabişvili "Asiyanın inkişaf perspektivləri" icmalının aprel sayının təqdimatına həsr olunmuş mediabrifinqdə deyib ki, Azərbaycanda inflyasiyanın səviyyəsi ölçülmüş makroiqtisadi siyasət və xammal qiymətlərinin sabit dinamikası sayəsində mülayim olaraq qalır. Onun sözlərinə görə, 2025-ci ildə Qafqaz, Mərkəzi və Qərbi Asiya subregionunda inflyasiya Türkiyənin göstəriciləri nəzərə alınmaqla 25,6 faizə çatıb. Yaxın Şərqdəki münaqişənin region iqtisadiyyatlarına çoxkanallı təsir göstərdiyini vurğulayan AİB rəsmisi bildirib ki, Azərbaycan enerji sektorunda müəyyən çətinliklərə baxmayaraq, müsbət iqtisadi artım nümayiş etdirib.

Yeri gəlmişkən, Asiya İnkişaf Bankının Azərbaycan üzrə ölkə direktoru Sunniya Durrani-Jamal dünən Bakıda keçirilən mətbuat konfransında Azərbaycanda gözlənilən qida inflyasiyasının artmasına səbəb kimi gübrə və idxal qiymətlərini əsas gətirib. O bildirib ki, Yaxın Şərqdəki münaqişə fonunda qlobal bazarlarda gübrə qiymətlərinin artması ölkəmizdə kənd təsərrüfatının istehsal xərclərini yüksəldəcək. Bu isə qida qiymətlərinə birbaşa təsir göstərəcək. Sunniya Durrani-Jamalın sözlərinə görə, Azərbaycan, eyni zamanda, bəzi kənd təsərrüfatı məhsullarını idxal etdiyindən qonşu ölkələrdə ərzaq qiymətlərinin artması da daxili bazarda inflyasiyanı sürətləndirəcək.

Qeyd olunub ki, Azərbaycanda istehsal xərclərinin artması və idxal olunan ərzaq məhsullarının bahalaşması fonunda qida inflyasiyası qısa müddətdə arta bilər. AİB-in hazırda Azərbaycanda kənd təsərrüfatına dolayısı ilə, əsasən özəl sektor vasitəsilə investisiya qoyduğunu diqqətə çatdıran Sunniya Durrani-Jamal bununla yanaşı, su resurslarının idarə olunması və su təchizatı layihələrinə də xüsusi diqqət yetirildiyini bildirib. Onun sözlərinə görə, su kənd təsərrüfatının əsas komponentlərindən biri olduğundan AİB su və tullantı su infrastrukturu layihələrinə sərmayə yatırır və su qıtlığı ilə bağlı problemlərin həlli istiqamətində çalışır. O, bankın gələcəkdə ölkəmizin kənd təsərrüfatı sektorunda birbaşa iştirak imkanlarını da nəzərdən keçirdiyini və bu istiqamətdə hökumətlə danışıqların aparıldığını qeyd edib.

AİB rəsmisi, həmçinin enerji sahəsində həyata keçiriləcək Transxəzər kabel layihəsinin Azərbaycanın Qara dəniz dəhlizi vasitəsilə daha geniş enerji şəbəkələrinə qoşulmasına imkan verəcəyinə və regionda enerji əlaqəliliyini gücləndirəcəyinə əminliyini ifadə edib. Təmsil etdiyi qurumun nəqliyyat əlaqələrinin inkişafı istiqamətində də fəal investisiya siyasəti apardığını vurğulayan Sunniya Durrani-Jamalın sözlərinə görə, AİB əvvəlki dövrdə əsasən yol infrastrukturuna sərmayə yatırsa da, hazırda dəmir yolu layihələrinə fokuslanır. Regional direktor onu da qeyd edib ki, bank regional inteqrasiyanın gücləndirilməsi üçün rəqəmsal bağlantı layihələrini də prioritet istiqamətlərdən biri kimi nəzərdən keçirir. Onun sözlərinə görə, enerji, nəqliyyat və rəqəmsal bağlantı AİB-nin regionda inteqrasiyanı dəstəklədiyi 3 əsas istiqamətdir.




Hazırda Avropanın karbohidrogenlərdən asılılığını azaltmaqda son dərəcə maraqlı olduğunu xatırladan bank rəsmisi Azərbaycanda günəş enerjisinin inkişafına böyük sərmayə qoyulduğunu diqqətə çatdırıb: "Biz artıq özəl sektorda əməliyyatlarımız vasitəsilə Energetika Nazirliyi ilə birgə üç çox böyük layihəyə investisiya yatırmışıq. Gələcəkdə enerji təhlükəsizliyi baxımından külək enerjisinin inkişafında iştirak imkanlarını nəzərdən keçiririk. Düşünürəm ki, perspektivlər kifayət qədər müsbətdir. Yəni sizin həm qalıq yanacaq, həm də zəngin bərpaolunan enerji ehtiyatlarınız var. Avropanın enerji təhlükəsizliyi baxımından Azərbaycan çox əlverişli mövqedədir. Lakin bu, investisiya qoyuluşu tələb edəcək və biz bu məsələdə hökuməti dəstəkləmək üçün buradayıq".

Xatırladaq ki, beynəlxalq maliyyə təşkilatı olan Asiya İnkişaf Bankı 1966-cı ildə yaradılıb. Əsas məqsədi Asiya məkanında, bütövlükdə, Şərq ölkələrində iqtisadiyyatın inkişafına yardım göstərməkdən ibarət olan bankın baş ofisi Filippinin paytaxtı Manila şəhərində yerləşir. Azərbaycan Respublikası 1999-cu il oktyabrın 20-də Asiya İnkişaf Bankına üzvlüyə qəbul olunub. 2004-cü ilin noyabr ayından etibarən isə təşkilatın ölkəmizdə nümayəndəliyi fəaliyyət göstərir.

Bank iqtisadiyyatın şaxələndirilməsi, yeni iqtisadi imkanların genişləndirilməsi, inklüziv inkişafın təşviqi istiqamətindəki fəaliyyətlərdə Azərbaycana dəstək göstərir. Belə ki, AİB nəqliyyat, su təchizatı, enerji, həmçinin maliyyə sektoru (bank və sığorta), təhsil, səhiyyə və digər sahələr üzrə 1999-cu ildən bəri Azərbaycana 130-dan çox kredit, qrant, investisiya, texniki yardım layihələrinin, ticarət və təchizat zəncirinin maliyyəsi və mikromaliyyə proqramlarının maliyyələşdirilməsi üçün 5,3 milyard dollardan çox vəsait ayırıb.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Sumqayıt Sənaye Parkına 5,6 milyard manat vəsait yatırılıb

**2025-ci ildə Sumqayıt Sənaye Parkında 2,2 milyard manatlıq məhsul satışı həyata keçirilib. Satışın 1,1 milyard manatı ixracın payına düşüb. Bu barədə XQ-yə İqtisadi Zonaların İnkişafı Agentliyindən məlumat verilib.**



Hazırda Cənubi Qafqazın ən böyük sənaye parkının ərazisində neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabətqabiliyyətli məhsulların istehsalı və emalı müəssisələri fəaliyyət göstərir. Burada ümumi investisiyaların həcmi, təqribən, 6,6 milyard manatdan artıq olan 38 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. İndiyədək rezidentlər tərəfindən sənaye parkına 5,6 milyard manatdan çox investisiya yatırılıb. Ötən müddətdə parkın ərazisində 6 min 97 daimi iş yeri yaradılıb.

***XQ***

# İnnovativ ekosistem və gələcəyin iqtisadi modeli

## *Müsahibimiz İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi İdarə Heyətinin sədri Fərid Osmanovdur*

*Rəqəmsal yenilənmə artıq sadəcə texnoloji proses kimi qiymətləndirilmir – bu, iqtisadiyyatın strukturunu dəyişən, idarəetmə fəlsəfəsini yenidən formalaşdıran və dövlətlərin rəqabət qabiliyyətini müəyyən edən əsas amillərdən birinə çevrilib. Qlobal miqyasda süni intellektin sürətli inkişafı, data əsaslı qərarvermə modellərinin genişlənməsi və rəqəmsal infrastrukturun strateji əhəmiyyət qazanması yeni iqtisadi mərhələnin konturlarını cızır.*

*Azərbaycan da bu proseslərdən kənarda qalmır. Bu kontekstdə İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin fəaliyyəti diqqət mərkəzində dayanır.*



**– Prezident İlham Əliyevin fərmanı ilə təsdiqlənən "Rəqəmsal İnkişaf Konsepsiyası" agentliyin fəaliyyətini istiqamətləndirir. Bu konsepsiyanın əsas pillələri ölkəmizin rəqəmsal strategiyasına necə təsir edir və agentlik bu istiqamətdə konkret hansı yeni layihələr həyata keçirəcək?**

– Azərbaycan Prezidenti İlham Əliyevin 2025-ci il 16 yanvar tarixində təsdiq etdiyi "Rəqəmsal İnkişaf Konsepsiyası" ölkəmizdə rəqəmsal texnologiyaların tətbiqi yolu ilə dövlət idarəetməsinin təkmilləşdirilməsini, iqtisadi inkişafın sürətləndirilməsini və vətəndaşların həyat keyfiyyətinin artırılmasını hədəfləyən ən fundamental sənədlərdən biridir. Konsepsiya rəqəmsal iqtisadiyyatın inkişafını, texnologiya tətbiqlərinin genişləndirilməsini, rəqəmsallaşdırma proseslərinin optimallaşdırılmasını, istifadəçiyönümlü rəqəmsal xidmətlərin əhatə dairəsinin genişləndirilməsini, insan resurslarının inkişafını, həmçinin dövlət-vətəndaş əlaqələrinin yaxşılaşdırılmasını əsas hədəflər kimi müəyyən edir.

Eyni zamanda, bu sənəd vətəndaş, biznes və dövlətin ehtiyaclarını vahid bir çərçivədə nəzərə alan effektiv və rəqəmsal idarəetmə modelini əsas tutur. İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin fəaliyyəti də məhz bu strateji prioritetlər üzərində köklənib. Əsas məqsədimiz dövlət idarəçiliyində müasir texnologiyaların tətbiqini genişləndirməklə məlumat əsaslı qərarvermə mexanizmlərini gücləndirmək, o cümlədən inzibati xərclərin azaldılmasına və rəqəmsal proseslərin inkişafına dəstək vermək, "bir pəncərə" prinsipi ilə vətəndaşlara və biznes subyektlərinə təqdim olunan rəqəmsal dövlət xidmətlərini genişləndirməklə təqdim olunan xidmətləri daha çevik, şəffaf və vətəndaşyönümlü modelə keçirməkdir.

Dövlət idarəetmə sisteminin rəqəmsallaşdırılması istiqamətində agentlik dövlət qurumlarının və sahibkarlıq subyektlərinin informasiya infrastrukturunun rəqəmsallaşma səviyyəsinin diaqnostikasını həyata keçirir. Agentlik qanunvericiliyə əsasən dövlət qurumlarında rəqəmsal yetkinlik səviyyəsinin ölçülməsi və inkişafın izlənilməsi üçün xüsusi metodologiya tətbiq edir, həmçinin qurumlarda rəqəmsallaşma səviyyəsinin ilkin diaqnostikasını, özünüqiymətləndirmə mexanizmini həyata keçirir. Bu, dövlət sektorunda rəqəmsal transformasiyanın real vəziyyətini müəyyən etməyə və inkişaf istiqamətlərini planlaşdırmağa imkan yaradır.

Digər mühüm addım dövlət informasiya ehtiyatlarının və sistemlərinin vahid şəkildə idarə olunmasıdır ki, bu məqsədlə dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri formalaşdırılır. Reyestr vasitəsilə dövlət qurumlarında mövcud informasiya sistemlərinin texniki infrastrukturu, xidmətlərin iş prosesləri və mövcud resurslar təhlil edilir, təkrarçılığın qarşısının alınması və sistemlərin optimallaşdırılması üçün zəruri tədbirlər müəyyənləşdirilir.

Rəqəmsal cəmiyyətə etimad mühitində keçidin təmin edilməsi və rəqəmsal inkişaf üçün zəruri kadr potensialının inkişaf etdirilməsi məqsədilə vahid rəqəmsal hökumət arxitekturasının və proses arxitekturası toplusunun hazırlanması üzərində işləyirik. Bütün rəqəmsal dövlət xidmətləri üçün vahid istifadəçi təcrübəsi və dizayn standartlarının tətbiqini nəzərdə tutan xidmətlərin vahid dizayn sisteminin formalaşdırılması istiqamətində işlər aparılır. Bu yanaşma rəqəmsal dövlət xidmətlərinin vətəndaşlar üçün daha rahat, anlaşılan və əlçatan olmasını təmin etməyə xidmət edir.

Agentlik, həmçinin rəqəmsal xidmətlər üzrə istifadəçi məmnunluğunun artırılmasına xüsusi diqqət yetirir, həyat hadisələri əsaslı dövlət xidmətlərinin mütəmadi təhlilini aparır və prioritet xidmətlərin rəqəmsallaşdırılması istiqamətində yeni layihələr həyata keçirir. Paralel olaraq əsas dövlət informasiya sistemlərində formalaşan məlumatların dürüstlüyü, bütövlüyü və dəqiqliyi təhlil edilir, əhalinin rəqəmsal savadlılığının artırılması məqsədilə vətəndaşların rəqəmsal hazırlıq səviyyəsinin qiymətləndirilməsi, kibermәlumatlılığın artırılması və rəqəmsal bacarıqların inkişafına yönəlmiş müxtəlif proqramlar və sorğular həyata keçiririk.

Ümumilikdə, "Rəqəmsal İnkişaf Konsepsiyası" ölkəmizdə rəqəmsal transformasiyanın sistemli və davamlı şəkildə həyata keçirilməsi üçün əsas yol xəritəsidir. Agentlik olaraq bizim əsas məqsədimiz bu konsepsiyanın praktik müstəvidə həyata keçirilməsini təmin etmək və Azərbaycanın rəqəmsal inkişafını yeni mərhələyə çıxarmaqdır.

**– İnnovasiya və startap mühitinin inkişafı istiqamətində görülən işlər çərçivəsində müvafiq mədəniyyətin formalaşdırılması kimi təşəbbüslərin rolunu necə qiymətləndirirsiniz? Bu tədbirlər startapların beynəlxalq bazarlara çıxışına hansı töhfə verir?**

– Agentlik qabaqcıl dünya təcrübəsini və yerli ekosistemin xüsusiyyətlərini təhlil edərək innovasiya fəaliyyətini 5 sütun üzərində formalaşdırmışdır: İKT üzrə təşkilatların və startapların fəaliyyətini dəstəkləyən zəruri qanunvericilik və infrastrukturun təşkili, maliyyə və bazar əlçatanlığı istiqamətində dəstək göstərilməsi, insan kapitalı və innovasiya mədəniyyətinin inkişaf etdirilməsi. Beləliklə, innovasiya ekosistemi quruculuğuna baxışımız bu 5 (qanunvericilik və infrastruktur, maliyyə, bazar əlçatanlığı, insan kapitalı və mədəniyyətin inkişafı) fundamental prinsipi ehtiva edir.

Agentlik olaraq startap ekosisteminin inkişafı istiqamətində həyata keçirdiyimiz tədbirlər də innovasiya mədəniyyətinin gücləndirilməsini özündə birləşdirən kompleks yanaşmaya əsaslanır. İnnovasiya mədəniyyətinin formalaşmasında ölkəmizdə yaradılan innovasiya mərkəzləri müstəsna əhəmiyyət kəsb edir. Xüsusilə universitetlərin nəzdində fəaliyyət göstərən bu mərkəzlər startap quruculuğuna yeni başlayan gənclər üçün innovativ sahibkarlıq düşüncəsinin formalaşdığı əsas platforma rolunu oynayır.

Bakı və Sumqayıtda fəaliyyətə başlayan, eləcə də ADNSU, Naxçıvan Dövlət Universiteti və Gəncədə yerləşən Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində yaradılmış innovasiya mərkəzlərində mentorluq, inkubasiya, akselerasiya, prototipləşdirmə və tədqiqat imkanları təqdim edilir. Bu mərkəzlər ideyaların yarandığı məkan olmaqla məhdudlaşmır, həmçinin ideyaların real məhsula çevrilməsi üçün texnoloji və intellektual mühiti mümkün edən hərtərəfli infrastruktur imkanlarını təqdim edir. İndiyə qədər bu mərkəzlərdə 340-dan çox tədbirin keçirilməsi və 14 mindən çox iştirakçının cəlb olunması Bakı və regionlarda innovasiyaya olan yüksək marağı göstərir.

Agentlik inkubasiya və akselerasiya proqramlarının reallaşması üçün dəstəkləyici təşəbbüslərlə də çıxış edir. Bu proqramlar sayəsində erkən mərhələdə olan startaplar ideyalarını sınaqdan keçirir, minimal işlək məhsulların bazar uyğunluğunu müəyyən edirlər. Bu təşəbbüslər startaplara imkan verir ki, real dəyər yaradan və rəqabət qabiliyyəti yüksək olan məhsulları inkişaf etdirə bilsinlər. Startapların bu mərhələdə formalaşdırdığı düzgün məhsul yanaşması gələcəkdə onların miqyaslanmasına ciddi təsir edir.

Beynəlxalq tərəfdaşlıqlar və xarici innovasiya oyunçularının yerli ekosistemə cəlb edilməsi də mədəniyyətin formalaşması üçün mühüm faktordur. ABŞ-ın nüfuzlu "Plug and Play" platforması ilə əməkdaşlığımız startapların "Silikon vadisi" kimi inkişaf etmiş ekosistemin metodologiyası əsasında beynəlxalq şəbəkələrə inteqrasiyasına xidmət edir. Eyni zamanda, Beynəlxalq Telekommunikasiya İttifaqının MDB məkanında ilk akselerasiya mərkəzinin ölkəmizdə yaradılması da startapların müasir standartlar əsasında fəaliyyət göstərməsinə və qlobal bazarlara çıxışının sürətlənməsinə imkan yaradır. Belə təşəbbüslər innovasiya mədəniyyətinin ölkə daxilində yayılması ilə yanaşı, yerli startapların dünya bazarlarına daha hazırlıqlı və rəqabətqabiliyyətli məhsullarla çıxmasına şərait yaradır.

Nəticə etibarilə, innovasiya mədəniyyətinin formalaşdırılmasına yönəlmiş təşəbbüslər startapların ideya mərhələsindən qlobal bazarlara qədər olan bütün inkişaf yolunu əhatə edən, dayanıqlı və dəyər yaradan ekosistemin dinamik fəaliyyət göstərməsinə xidmət edir.

**– Azərbaycanın rəqəmsal inkişaf gündəliyində süni intellektin ayrıca strateji istiqamət kimi formalaşdırılması nəzərdə tutulurmu? Bu sahədə milli yol xəritəsinin hazırlanması hansı mərhələdədir və yaxın perspektivdə hansı əsas addımların atılması planlaşdırılır?**

– Süni intellekt bu gün qlobal miqyasda ən sürətlə inkişaf edən texnologiyalardan biridir və bir çox ölkələrdə artıq dövlət siyasətinin əsas prioritet istiqamətlərindən birinə çevrilib. Azərbaycanda da bu sahə ölkə rəhbərliyi səviyyəsində prioritetləşdirilmiş texnologiya kimi qiymətləndirilir və son illər bu istiqamətdə ardıcıl addımlar atılır.

Ötən il "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün Süni İntellekt Strategiyası"nın təsdiq edilməsi ilə ölkəmizdə süni intellektin inkişafı və tətbiqi üçün strateji çərçivə formalaşdırılıb. Bu sənəd süni intellekt texnologiyalarının inkişafı, məlumatların idarə edilməsi və infrastrukturunun təkmilləşdirilməsi, süni intellekt sahəsində istedad və bacarıqların yüksəldilməsi, həmçinin əlverişli biznes mühitinin yaradılması üzrə əsas istiqamətləri müəyyən edir.

Paralel olaraq, bu sahədə dövlət standartları qəbul edilib, Milli Süni İntellekt Mərkəzi və Süni İntellekt Akademiyası fəaliyyətə başlayıb ki, bu da ölkədə süni intellekt ekosisteminin formalaşması baxımından mühüm addımdır. Ölkəmizdə, həmçinin hüquqi aktlar üzrə süni intellekt dəstəkli axtarış və təhlil funksionallığını özündə birləşdirən "E-qanun.ai" platforması yaradılıb. Platformanın əsas məqsədi qanunların hər kəs üçün daha əlçatan və anlaşılan olmasını təmin etməkdir.

Bu ilin fevral ayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə keçirilən və "Azərbaycanın yeni rəqəmsal arxitekturası"na həsr olunan müşavirədə də süni intellektin inkişafı xüsusi diqqət mərkəzində olub. Beləliklə, "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı" təsdiq edilib. Bu sənəddə rəqəmsallaşma sahəsinin inkişafı, innovasiya fəaliyyəti sahəsində inkişafın təmin edilməsi və kibertəhlükəsizlik sahəsində fəaliyyətin təkmilləşdirilməsi istiqamətləri ilə yanaşı, süni intellekt texnologiyaları sahəsində də fəaliyyətin təkmilləşdirilməsi əsas prioritetlərdən biri kimi müəyyən olunub.

Bu çərçivədə yanaşmamız süni intellekt texnologiyalarının ölkədə sistemli, dayanıqlı və təhlükəsiz şəkildə tətbiqini təmin etməkdir. İlkin mərhələdə "dövlət məlumat hövzəsi"nin yaradılması, dövlət informasiya ehtiyatlarında və sistemlərində formalaşan məlumatların hövzəyə inteqrasiyası, həmçinin süni intellekt tətbiqləri üçün zəruri texnoloji infrastrukturun qurulması planlaşdırılır. Eyni zamanda, dövlət qurumlarında süni intellek texnologiyalarından istifadə etməklə müvafiq həllərin tətbiqi üzərində işlər aparılır.

Praktiki tətbiqlər baxımından isə əsas istiqamətlərdən biri süni intellekt texnologiyalarının dövlət xidmətlərinə inteqrasiyasıdır. Bu xüsusda, "mygov" platformasında süni intellekt əsaslı həllərin tətbiqini təmin edəcək infrastrukturun qurulması üzərində işlər davam edir. Məqsəd dövlət xidmətlərini daha proaktiv, daha sürətli və istifadəçiyönümlü etməkdir.

Ümumilikdə məqsədimiz süni intellekti yalnız texnoloji yenilik kimi deyil, ölkənin rəqəmsal inkişaf modelinin mühüm tərkib hissəsi kimi formalaşdırmaqdır. Bu yanaşma dövlət idarəçiliyinin daha səmərəli təşkilinə, innovasiya ekosisteminin inkişafına, həmçinin vətəndaş və sahibkarlıq subyektlərinə təqdim olunan xidmətlərin keyfiyyətinin yüksəldilməsinə mühüm töhfə verəcək.

**– "mygov" platformasında istifadəçi sayının, rəqəmsal xidmətlərdən istifadənin artması əsasən hansı rəqəmsal xidmətlərin genişlənməsi hesabına baş verib? Eyni zamanda, "mygov ID" sistemi çərçivəsində hansı yeni çağırışlar gündəmdədir?**

– "mygov" platforması qurumların elektron xidmətlərinin göstərilməsini, habelə bütün növ dövlət xidmətləri və vətəndaş müraciətləri nəticəsində təqdim edilən sənədlərin (məlumatların) mərkəzləşdirilmiş qaydada təqdim olunmasını və onlardan istifadəni, vətəndaş müraciətlərinin və informasiya sorğularının mərkəzləşdirilmiş qaydada təqdim edilməsini və cavablandırılmasını, habelə fərdi məlumatlarının sorğulanmasına dair razılığın verilməsini və idarə olunmasını təmin edir.

Məqsədimiz rəqəmsal dövlət xidmətlərini vahid rəqəmsal ekosistemdə birləşdirərək vətəndaşların bu xidmətlərə daha rahat, sürətli və təhlükəsiz çıxışını təmin etməkdir. Bu baxımdan "mygov" yalnız bir xidmət platforması deyil, eyni zamanda dövlət–vətəndaş münasibətlərinin yeni, daha çevik və şəffaf modelinin formalaşmasında mühüm rol oynayan əsas alətlərdən biridir. Platformanın son illərdə sürətlə inkişaf etməsi və istifadəçi sayının artması da məhz bu yanaşma ilə bağlıdır. Bir tərəfdən platformada təqdim olunan rəqəmsal xidmətlərin sayı və funksionallığı genişlənir, digər tərəfdən isə vətəndaş təcrübəsini daha rahat edən yeni mexanizmlər tətbiq olunur.

Bu ekosistemin mühüm komponentlərindən biri "Vahid giriş" altsistemi olan mygov ID sistemidir. Bu sistem dövlət informasiya ehtiyatlarından və sistemlərindən istifadə zamanı istifadəçilərin təkmil sertifikatlı gücləndirilmiş elektron imza və digər elektron eyniləşdirmə vasitələri ilə vahid formada identikləşdirilməsini, habelə qeyd olunan informasiya ehtiyatlarına və sistemlərinə birdəfəlik girişi təmin edir. Eyni zamanda, "Rəqəmsal razılıq" altsistemi fərdi məlumatların sorğulanması zamanı şəxslərin onlara məxsus olan fərdi məlumatların toplanılmasına və işlənilməsinə razılıqlarının idarə edilməsini təmin edir.

Platforma üzərindən xidmətlər həm həyat hadisələri prinsipi ilə, həm də fərdi ehtiyaclara uyğun təqdim olunur. Məsələn, nikah, doğum, ölüm haqqında şəhadətnamələrin, əmək müqavilələrinin imzalanması, qurumlara rəsmi müraciətlərin göndərilməsi və cavablandırılması, məhkumluq arayışları, ailə və təhsil məlumatları, etibarnamələr, kommunal xidmətlər üzrə abonent məlumatlarının yenilənməsi, hərbi xidmət məlumatları, sosial müdafiə və təmin xidmətləri, iş yerindən arayış və bank kartları ilə ödənişlər artıq bir kliklə həyata keçirilir.

Bu xidmətlərin genişlənməsi nəticəsində "mygov" platformasında istifadəçi sayı son bir ildə 2,4 dəfə artaraq 2,9 milyona çatıb. Platforma üzərindən xidmət istifadəsi isə 11 dəfə artıb və 2026-cı ilin mart ayında 122 min əməliyyat və 331 min rəqəmsal sənəd istifadəsi qeydə alınıb. Bu da platformanın yalnız qeydiyyat baxımından deyil, aktiv istifadə və vətəndaş mərkəzli təcrübə baxımından da inkişaf etdiyini göstərir.

Qısaca desək, "mygov ID" və həyat hadisələri üzrə rəqəmsal xidmətlər, rəqəmsal sənədlər, ödənişlər, kommunal xidmətlər və məktublaşma funksiyaları vətəndaş təcrübəsini daha rahat, təhlükəsiz və əlçatan edib və platformanın sürətli böyüməsinin əsas təkanverici faktorlarıdır.

Xüsusilə qeyd edilməlidir ki, Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planında əsas tədbirlərdən biri bütün rəqəmsal dövlət xidmətlərinin və sənədlərin yalnız "mygov" vasitəsilə təqdim olunmasıdır. Ayrı-ayrı qurumların fərdi portal və mobil tətbiqləri vahid ekosistemdə birləşdiriləcək. Bu təşəbbüs xidmət pərakəndəliyini aradan qaldıracaq, xidmət keyfiyyətini yüksəldəcək və vətəndaşların bütün dövlət xidmətlərinə daha rahat və mərkəzləşdirilmiş şəkildə çıxışını təmin edəcək.

**– Rəqəmsal Məlumat Mübadiləsi altsistemi olan "digital.bridge" üzrə əməliyyatlar haqqında danışaq. Cari il üçün bu platforma üzrə hansı texnoloji yenilənmə tədbirləri planlaşdırılır?**

– "digital.bridge" bu gün dövlət informasiya ehtiyatlarının və sistemlərinin əlaqələndirilməsini, o cümlədən onlar arasında təhlükəsiz məlumat mübadiləsinin aparılmasını təmin edir. Bu isə həm dövlət qurumlarının işini sürətləndirir, həm də vətəndaşlara göstərilən rəqəmsal xidmətlərin daha çevik və rahat təqdim olunmasına imkan yaradır.

Platformanın dayanıqlılığı və yüksək yüklənmələrə davamlılığı müasir texnoloji arxitektura əsasında təmin edilir. Belə ki, platforma mikroservis arxitekturasında qurulub və sorğular asinxron məntiq üzrə işlənir, bu da sistemin çox sayda istifadəçi olduqda belə problemsiz və sürətli işləməsini təmin edir. Eyni zamanda, sistem bir neçə server üzərində paylanmış şəkildə işləyir. Gələn sorğular serverlər arasında yük balanslaşdırılması vasitəsilə bölüşdürülür.

Bu da sistemin sürətli işləməsini və yüksək yüklənmə zamanı belə sabit qalmasını təmin edir. Bu yanaşma platformanın davamlı, etibarlı və sürətli işləməsinə imkan yaradır. Hazırda sistem üzərindən gündəlik 3 milyondan çox tranzaksiya həyata keçirilir və indiyədək ümumilikdə 2 milyarddan artıq məlumat mübadiləsi baş tutub. Xüsusilə qeyd edilməlidir ki, platformanın təhlükəsizliyi informasiya təhlükəsizliyinin idarəedilməsi sistemi çərçivəsində tənzimlənir.

Məqsədimiz platformanı daha çevik, dayanıqlı və daha geniş imkanlara malik inteqrasiya mühitinə çevirməkdir ki, bu da dövlət qurumları arasında məlumat mübadiləsini daha effektiv təşkil etməyə və rəqəmsal xidmətlərin keyfiyyətini daha da artırmağa imkan verəcək.

**– Rəqəmsal səriştələrin inkişafı üzrə proqramlar və kibertəhlükəsizlik təlimləri çərçivəsində indiyədək yüzlərlə gənc ixtisaslı mütəxəssis yetişib. Bu təlim proqramlarının konkret nəticələri nədir, məzunların işlə təminatına bu nə kimi fayda verir?**

– Ümumiyyətlə, İKT sahəsində kadr potensialının artırılması bizim üçün hər zaman prioritet istiqamətlərdən biri olub. Rəqəmsal transformasiyanın sürətlə getdiyi bir dövrdə ixtisaslı mütəxəssislərin hazırlanması böyük əhəmiyyət daşıyır. Məhz buna görə də agentlik olaraq bu sahədə mütəmadi müxtəlif proqramlar və təşəbbüslər həyata keçiririk.

Bu istiqamətdə həyata keçirdiyimiz layihələrdən biri "IT SkillsBridge" proqramıdır. Proqram Andersen Lab ilə əməkdaşlıq çərçivəsində reallaşdırılır və əsas məqsədi gənclərin İT sahəsində praktiki bacarıqlar əldə etməsinə dəstək verməkdir. Bugünədək proqram çərçivəsində 210 nəfər təlimlərə cəlb olunub, hazırda isə 120 nəfər Andersen Lab-da işə cəlb olunmaqla təlim prosesini davam etdirir. Proqramın əsas üstünlüyü ondan ibarətdir ki, iştirakçılar yalnız nəzəri biliklərlə kifayətlənmir, eyni zamanda, şirkətdə işə götürülməklə real layihələr üzərində işləyərək praktiki təcrübə qazanırlar.

Bu da onların əmək bazarına daha hazırlıqlı şəkildə daxil olmasına imkan yaradır. Eyni zamanda, proqram çərçivəsində iştirakçılara karyera inkişafı ilə bağlı məsləhətlər, şəbəkələşmə imkanları və İKT sahəsində müxtəlif tədbirlərdə iştirak imkanları da təqdim olunur. Məqsədimiz İKT sektoru üzrə mümkün qədər yüksək məşğulluq səviyyəsinə nail olmaq və sektorun ölkə iqtisadiyyatına verdiyi töhfəni artırmaqdır.

Digər mühüm təşəbbüslərimizdən biri də Azərbaycan Kibertəhlükəsizlik Mərkəzinin fəaliyyətidir. Bu mərkəzin əsas məqsədi ölkədə kibertəhlükəsizlik ekosisteminin inkişafına töhfə vermək, bu sahədə mütəxəssislərin sayını artırmaq və onların peşəkar hazırlığını gücləndirməkdir. Layihə çərçivəsində dövlət qurumları, özəl sektor və universitetlərlə əməkdaşlıq qurulub və beynəlxalq təcrübənin ölkəyə gətirilməsi təmin olunur. Bu istiqamətdə İsrailin Technion Texnologiya İnstitutu ilə əməkdaşlıq xüsusi əhəmiyyət daşıyır.

Mərkəzdə təhsil alan tələbələr beynəlxalq mütəxəssislərin iştirakı ilə "Red Team", "Blue Team" və "Purple Team" kimi qabaqcıl kibertəhlükəsizlik istiqamətləri üzrə praktiki təlimlər keçirlər. Bu təlimlər iştirakçılara həm hücum, həm müdafiə, həm də kompleks təhlükəsizlik strategiyaları üzrə real bacarıqlar qazandırır. Bugünədək Azərbaycan Kibertəhlükəsizlik Mərkəzindən 480 nəfər məzun olub, hazırda isə 7-ci tədris dalğası üzrə 60 tələbə təhsilini davam etdirir. Məzunların işlə təminat göstəricisi isə 86 faiz təşkil edir və onlar həm dövlət qurumlarında, həm də qabaqcıl yerli və beynəlxalq şirkətlərdə fəaliyyət göstərirlər.

**– "EPAM Systems"ın Azərbaycanda fəaliyyətə başlaması və agentliyin layihələrinə qoşulması gündəmdədir. Bu tərəfdaşlığın əsas hədəfləri nədir, beynəlxalq təcrübə ölkədə hansı yeni layihələrdə tətbiq ediləcək?**

– Xarici texnologiya şirkətlərinin Azərbaycana cəlb edilməsi və uzunmüddətli tərəfdaşlıqların qurulması ölkəmizdəki ekosistemin potensialından xəbər verir. Agentliyin aparıcı qlobal şirkətlərlə əməkdaşlığı Azərbaycanı regionun əsas innovasiya mərkəzinə çevirmək məqsədini daşıyır.

Bu istiqamətdə mühüm addımlardan biri rəqəmsal transformasiya və İT konsaltinq sahəsində dünya liderlərindən olan Amerikanın "EPAM Systems" şirkətinin Azərbaycanda fəaliyyətə başlamasıdır. Bakıda açılmış nümayəndəlik yalnız əməliyyat funksiyalarını yerinə yetirməyəcək, eyni zamanda innovasiya mərkəzi kimi fəaliyyət göstərərək irimiqyaslı rəqəmsallaşma, süni intellekt və İKT sahəsində insan kapitalının inkişafı üzrə layihələrin icrasını təmin edəcək. Əməkdaşlığın xüsusilə süni intellekt istiqamətini əhatə etməsi "EPAM Systems"in digər ölkələrdə sınaqdan keçirilmiş qabaqcıl həllərinin Azərbaycanda tətbiqinə və beynəlxalq təcrübənin ölkəyə transferinə imkan yaradacaq.

Agentlik hazırda ABŞ-ın qlobal miqyasda tanınan "EPAM Systems" şirkəti ilə birlikdə süni intellekt infrastrukturunun qurulması istiqamətində strateji layihə həyata keçirir və bu layihə çərçivəsində "mygov" platformasında süni intellekt əsaslı çatbot istifadəyə verilmişdir. İlkin mərhələdə bu həll vətəndaşlara platformadakı xidmətlər, funksionallıqlar və həyat hadisələri ilə bağlı məlumatları daha rahat və operativ şəkildə əldə etməyə imkan verəcək. Daha sonra isə "mygov" platformasında xidmətlərin və məlumatların süni intellekt əsaslı agent(lər)in dəstəyilə anında alınması imkanı yaradılacaqdır.

"EPAM Systems" ilə birgə üzərində işlədiyimiz və yaxın aylarda istismara veriləcək digər rəqəmsal məhsul "mygov Biznes"dir. Belə ki, "mygov Biznes" platforması sahibkarlıq subyektlərinin dövlət qurumlarına müraciətinin elektron təşkilini, sahibkarlıq fəaliyyəti üçün zəruri olan bütün məlumatların mərkəzləşdirilmiş qaydada əldə edilməsini, eləcə də sahibkarlıq subyekti barəsində məlumatın işlənilməsinə razılığın idarə olunmasını, sahibkarlıq subyektlərinə elektron xidmətlər göstərilməsini, habelə dövlət xidmətləri göstərilməsində istifadə edilən müvafiq dövlət informasiya ehtiyatlarının və sistemlərinin təkmilləşdirilməsini, o cümlədən sahibkarı təmsilçilik səlahiyyətinin idarə edilməsinin təşkilini təmin edəcəkdir.

Beləliklə, məqsəd sahibkarın fərqli portallar arasında keçid etmədən əsas öhdəlik və müraciətlərini bir platforma üzərindən icra edə bilməsini təmin etməkdir.

***Müsahibəni qələmə aldı:***
***Nurlan ABDALOV***
***XQ***

*Günün sualı*

# Süni zəka insanı hara aparır?

## *Əmək bazarında inqilabi yeniləşmənin hüdudları*

**Bu gün süni intellektin sürətli inkişafı qlobal miqyasda əmək bazarının strukturuna ciddi təsir göstərir. Bu köklü texnoloji dəyişiklik təkcə istehsal proseslərini deyil, həm də xidmət sektorunu, təhsil sistemini və ümumilikdə sosial-iqtisadi münasibətləri köklü şəkildə dəyişir. Bir tərəfdən məhsuldarlığın artması, xərclərin azalması və yeni imkanların yaranması müşahidə olunursa, digər tərəfdən iş yerlərinin itirilməsi və sosial bərabərsizlik kimi narahatlıqlar diqqət çəkir.**



Süni intellektin əmək bazarına təsiri inkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycan gündəliyində də əsas mövzulardan birinə çevrilib. Rəqəmsallaşma və innovasiya siyasətinin davamlı şəkildə həyata keçirildiyi respublikamızda artıq texnologiyaların tətbiqi əmək bazarına təsir göstərməyə başlayıb.

Bu məsələdə fərqli düşünənlər də var. **Ekspert Adil Əfəndiyevin** sözlərinə görə, dövrün tələbi ilə süni intellektin inkişafı nəticəsində bir sıra iş yerlərinin bağlanılması heç də işsizliyin genişlənməsi və sosial bərabərsizliyin artması anlamına gəlmir. Başqa sözlə, bəzi ənənəvi peşələr ixtisar edilsə də, bu, kütləvi işsizlik deyil, əslində, əmək bazarında köklü dəyişikliyin baş verməsidir.

Digər tərəfdən, süni intellekt insanları tam əvəz etmir, əksinə, məhsuldarlığı artırır, yeni sahələr, məsələn, məlumat analitikası, robototexnika yaradır, "ağ vərəq qorxusu"nu aradan qaldıraraq yaradıcı prosesləri sürətləndirir. Bu isə işçilərin daha çox tapşırıq yerinə yetirməsinə imkan verir. Beləliklə, süni intellekt fəaliyyət prosesini sürətləndirərək mütəxəssislərin fəaliyyətini asanlaşdırır.

Bundan başqa, süni intellekt, xüsusilə, dizayn, mətn yazarlığı və analitika sahələrində işləyənlərə yardımçı olsa da, insan əməyini tam əvəz edə bilmir, daha çox rəqəmsal transformasiya çərçivəsində insan – maşın əməkdaşlığı formalaşdırır. Eyni zamanda, səhiyyə, təhsil və istehsalat sahələrində robototexnikanın tətbiqini sürətləndirsə də, bu, yeni bacarıq tələb edən iş yerlərinin yaranması ilə müşayiət olunur. Eləcə də işçilərin yeni texnologiyaları öyrənməsinə və yaradıcı, strateji düşüncə tələb edən sahələrə yönəlməsinə zəmin yaradır.

Süni intellektin əmək bazarına təsirinə gəldikdə isə demək olar ki, rəqəmsallaşma və innovasiya siyasətinin davamlı şəkildə həyata keçirildiyi ölkəmizdə hazırda texnologiyaların tətbiqi əmək bazarına təsir göstərməyə başlayıb. Bu baxımdan Ombudsman Səbinə Əliyevanın bir müddət bundan əvvəl Milli Məclisdə səsləndirdiyi fikirlər xüsusi diqqət çəkib. Ombudsman süni intellektin tətbiqinin gələcəkdə iş yerlərinin azalmasına səbəb ola biləcəyini vurğulayaraq, dövlətin bu proseslərə qabaqlayıcı şəkildə hazırlaşmasının vacibliyini qeyd edib. Bu yanaşma sosial müdafiə mexanizmlərinin gücləndirilməsini və əmək bazarında çevik uyğunlaşma siyasətinin formalaşdırılması zəruriliyini gündəmə gətirib.

### Rəqəmsal əmək – möcüzəli əlçatanlıq

Mütəxəssislərin fikrincə, süni intellekt, ilk növbədə, təkrarlanan və standartlaşdırılan işləri əvəz edir. AMEA-nın vitse-prezidenti, akademik Rasim Əliquliyevin sözlərinə görə, kassir xidmətləri, məlumatların emalı, sadə ofis işləri artıq avtomatlaşdırma prosesinin əsas hədəfləridir. Bu sahələrdə insan əməyinin texnologiyalarla əvəz olunması daha sürətlə baş verir.

Bununla belə, gələcək mərhələdə yüksək ixtisas tələb edən sahələrin də bundan müəyyən dərəcədə təsirlənəcəyi istisna edilmir. Hüquq, maliyyə analitikası, jurnalistika, hətta tibbin bəzi sahələrində süni intellektin tətbiqi genişlənməkdədir. Bu isə əmək bazarında ənənəvi peşələrin yenidən qurulmasına gətirib çıxarır.

Akademikin fikrincə, süni intellekt təkcə mənfi nəticələrin baş verə biləcəyi ilə bağlı narahatlıq yaratmır, eyni zamanda, yeni inkişaf imkanları da açır, rəqəmsal əmək bazarı anlayışını sürətlə formalaşdırır. Bu model vasitəsilə coğrafi məhdudiyyətlər aradan qaldırılır, insanların qlobal bazarda fəaliyyət göstərmək imkanları genişləndirilir.

Bu baxımdan dil texnologiyalarının inkişafı xüsusi önəm daşıyır. Süni intellekt əsaslı tərcümə sistemləri dil baryerlərini minimuma endirərək Azərbaycan vətəndaşlarının beynəlxalq əmək bazarına çıxışını asanlaşdırır. Bu, xüsusilə distant iş imkanları və beynəlxalq layihələrdə iştirak baxımından mühüm üstünlüklər yaradır.

### Virtual məkanın bələdçiləri

**Mobil təhlükəsizlik və süni intellekt həlləri üzrə proqram təminatı mühəndisi Qulu Əmiraslanov** bildirir ki, süni intellekt dövründə ən perspektivli peşələr əsasən texnologiya və yaradıcılıq birləşməsi ilə formalaşır. Bu, süni intellekt mühəndisliyi, biotexnologiya və "yaşıl" enerji sahələri əsasında gerçəkləşir. Belə bir prosesdə insan amilinin əvəzolunmaz olduğu sahələr də aktuallığını qoruyur. Bu məsələdə psixologiya, təhsil, sosial xidmətlər və yaradıcı sənətlər kimi istiqamətlərdə insanın başqasının düşüncə və davranışlarını dərindən anlamaq qabiliyyəti və emosional zəka əsas meyar olaraq qalır.

Süni intellekt əmək bazarını dəyişir və bu proses qaçılmazdır. Əsas məsələ isə bu dəyişikliklərin necə idarə olunmasındadır. Belə ki, əgər texnoloji inkişaf sosial siyasətlə uzlaşdırılırsa, bu birləşmə cəmiyyət üçün yeni imkanlar yaradır. Əks halda isə sosial gərginlik və işsizlik problemləri dərinləşir. Bu səbəbdən həm dövlət, həm biznes sektoru, həm də fərdlər yeni reallıqlara uyğunlaşmağa hazır olmalıdır.

İnsan kapitalına investisiya, təhsilin modernləşdirilməsi və innovasiyaların təşviqi gələcək uğurun əsas təminatıdır. Bütün bunlar deməyə əsas verir ki, süni intellekt insanı əvəz etmək üçün deyil, onun imkanlarını genişləndirmək məqsədilə yaradılan bir vasitədir. Bundan necə yararlanmaq isə cəmiyyətin strateji seçimindən asılıdır.

Yeri gəlmişkən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin qiymətləndirmələrinə görə, ölkədə mövcud iş yerlərinin, təxminən, 20-25 faizi orta və uzunmüddətli perspektivdə avtomatlaşdırma narahatlığdan xəbər verir. Bu, xüsusilə aşağı və orta ixtisas tələb edən sahələrdə daha çox diqqət çəkir. Eyni zamanda, respublikada yeni texnoloji peşələrə tələbat sürətlə artır. Son illərin vakansiya dinamikası da göstərir ki, proqramlaşdırma və proqram təminatı mühəndisliyi, "Data" və biznes analitik sahəsi, kibertəhlükəsizlik, rəqəmsal marketinq, süni intellekt kimi istiqamətlərdə işçi tələbatı getdikcə çoxalır. Müşahidələr də deməyə əsas verir ki, informasiya texnologiyası sahəsində maaşlar ölkə üzrə orta əməkhaqqından 2-3 dəfə yüksəkdir. Bu isə əmək bazarında struktur dəyişikliklərinin artıq başlandığını göstərir.

Bu sahədə ölkənin ali təhsil sistemində də dəyişikliklər aydın nəzərə çarpır. Son 5 ildə informasiya texnologiyaları və texniki ixtisaslara qəbulun əhəmiyyətli dərəcədə artması, dövlət sifarişli yerlərdə texnologiya yönümlü ixtisasların payının genişlənməsi, peşə təhsili müəssisələrində yeni rəqəmsal ixtisasların açılması da qeyd edilən fikrin bariz ifadəsidir. Bununla belə, ekspertlər bildirirlər ki, əmək bazarının tələbatı ilə təhsil sistemi arasında hələ də müəyyən uyğunsuzluq qalmaqdadır. Bu isə struktur işsizlik narahatlığını artırır.

### Narahatlığa əsas yoxdur

Ombudsman Səbinə Əliyevanın Milli Məclisdə səsləndirdiyi fikirlər də bu baxımdan xüsusi önəm daşıyır. Onun vurğuladığı kimi, süni intellektin tətbiqi nəticəsində iş yerlərinin azalması ehtimalı sosial müdafiə mexanizmlərinin gücləndirilməsini tələb edir. Bu baxımdan Azərbaycanda hazırda fəal məşğulluq proqramlarının həyata keçirilməsi, özünüməşğulluq layihələrinin genişləndirilməsi, peşə hazırlığı kurslarının təşkil olunması zamanı süni intellekt dövrünün tələblərinin nəzərə alınması vacibdir.

Bütün bunlarla yanaşı, rəqəmsal bacarıqların inkişafı milli prioritetə çevrilməli, regionlarda da bu imkanlar genişləndirilməlidir. Kibertəhlükəsizlik sahəsində kadr çatışmazlığının aradan qaldırılması diqqətdə saxlanılmalıdır. Yeni peşələrə keçid üçün çevik mexanizmlər formalaşdırılmalıdır. Süni intellekt modellərinin öyrədilməsi üçün həcmli, dəqiq və müxtəlif məlumat bazalarının əlçatanlığı gerçəkləşdirilməlidir. Sadə alqoritmlərdən kənara çıxaraq, özünü təkmilləşdirən "smart" sistemlərin tətbiqinə də üstünlük verilməlidir. Bu addımlar süni intellektin yalnız sürətli deyil, həm də səmərəli və təhlükəsiz inkişafını gerçəkləşdirə bilir.

Eyni zamanda, süni intellektin sürətli inkişafı məqsədilə yüksək hesablama gücünə malik infrastrukturun yaradılması, böyük və keyfiyyətli məlumat bazalarının reallaşdırılması və bu sahəyə investisiyaların cəlb edilməsi zəruridir. Həmçinin dərin öyrənmə və neyron şəbəkələrin təkmilləşdirilməsi, eləcə də yanlış məlumat narahatlığını azaltmaq məqsədilə etik qaydaların müəyyənləşdirilməsi inkişafı sürətləndirir.

Azərbaycan üzrə statistik göstəricilər süni intellektin əmək bazarına təsirinin artıq başladığını göstərir. Belə ki, rəqəmsal iqtisadiyyatın payı artır, yeni peşələr yaranır, ənənəvi sahələr isə transformasiyaya məruz qalır. Lakin əsas məsələ bu dəyişikliklərin sürətinə uyğun adaptasiya etməkdir. Əgər təhsil sistemi yenilənərsə, insan kapitalına investisiya artırılarsa, sosial müdafiə mexanizmləri gücləndirilərsə süni intellekt Azərbaycan üçün müəyyən narahatlıqdan daha çox imkan mənbəyinə çevrilə, əks halda struktur işsizlik və sosial bərabərsizlik problemləri qaçılmaz ola bilər.

***Vaqif BAYRAMOV***
***XQ***

*Ekspert rəyi*

**Elvin ABBASOV,**
**informasiya texnologiyaları mütəxəsisi**



Süni intellektin tətbiqi ilə ilk ixtisarların daha çox təkrarlanan sahələrdə baş verəcəyi gözlənilir. Milli Məclisdə diqqətə yönəldilən bu çağırış süni intellektin əmək bazarına təsirlərini hüquqi və sosial müstəvidə qiymətləndirməyi tələb edir. Süni intellektin tətbiqi ilə ilk ixtisarların daha çox rutin, təkrarlanan və böyük həcmli məlumat emalı tələb edən sahələrdə baş verəcəyi gözlənilir. Bura xüsusilə müştəri xidmətləri (call-center), məlumat daxiletmə operatorları, mühasibatlığın texniki hissələri və standart hüquqi sənədlərin hazırlanması daxildir.

Beynəlxalq şirkətlərlə qurulan sıx ünsiyyət və əməkdaşlıq ölkəmizə yeni texnoloji imkanlar qazandırsa da, bu keçid prosesində vətəndaşların əmək hüquqlarının qorunması üçün yeni tənzimləmə mexanizmlərinə böyük ehtiyac var. Çünki ixtisarların qarşısını almaq üçün əsas strategiya işçilərin yenidən ixtisaslaşma proqramlarına cəlb edilməsidir. Şirkətin süni intellekt tətbiqi səbəbindən işçini azad etməzdən əvvəl, həmin kadrın yeni rəqəmsal bacarıqlara yiyələnməsi məqsədilə təlim keçməsini reallaşdıran qanunvericilik bazası formalaşdırıla bilər.

Məsələn, texniki hesabatlarla məşğul olan bir əməkdaşın süni intellekt sistemlərinin çıxardığı nəticələri analiz edən mütəxəssisə çevrilmə imkanı var. Bu yanaşma həm iş yerlərinin saxlanmasına, həm də ölkənin ümumi rəqəmsal savadlılıq səviyyəsinin artmasına kömək edir. Süni intellekt dövründə işsizlik narahatlığını azaltmağın yolu texnologiyanı məhdudlaşdırmaqdan deyil, insan kapitalını bu dəyişikliklərə hazırlamaqdan keçir.

Dövlətin tənzimləyici rolu təhsil sisteminin əmək bazarının yeni tələblərinə çevik uyğunlaşdırılmasında və sosial müdafiə mexanizmlərinin gücləndirilməsində özünü göstərməlidir. Vətəndaş məsuliyyəti çərçivəsində isə hər bir fərd davamlı öyrənmə prinsipi ilə öz rəqəmsal bacarıqlarını inkişaf etdirməyə çalışmalıdır.

*Qlobal Şəhərsalma Forumu*

# Tikdim ki, izim qala...

## *Azərbaycan memarlığında zamanın nəbzi döyünür*

**Respublikamızda tikinti işlərinin geniş vüsət alması isə XIX əsrin sonlarına–XX əsrin əvvəllərinə təsadüf edir və həmin dövrdən indiyədək qorunub saxlanılan yaşayış, ictimai binalar özündə Şərq və Qərb memarlığının nadir nümunələrini əks etdirir.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2026-cı ilin yanvar ayında əsas kapitala 1405,9 milyon manat məbləğində investisiya yönəldilmişdir ki, bunun da 96,3 milyon manatı yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş investisiyaların 1004,0 milyon manatını daxili investisiyalar təşkil etmiş, bunun 577,2 milyon manatı tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Şəhərimizin arteriya damarı hesab olunan, böyük strateji əhəmiyyət daşıyan Bakı Metropoliteninin tikintisi, inkişaf perspektivi də Heydər Əliyevin gördüyü nəhəng işlər cərgəsindədir. Bakı Metropoliteninin bugünkü səviyyəyə çatmasında ulu öndərin müstəsna xidmətləri olmuş və rəhbərliyi dövründə 14 stansiya tikilib istifadəyə verilmişdir. Tikintisi aparılan bütün stansiyaların məhz milli memarlıq üslubunda layihələndirilməsinə və inşa olunmasına ümummilli lider şəxsən rəhbərlik etmişdir.



Son illər Prezident cənab İlham Əliyevin rəhbərliyi altında respublikamızda həyata keçirilən köklü iqtisadi islahatlar tikinti, abadlıq sahəsində də özünü bariz şəkildə göstərmişdir. Paytaxt Bakı, bölgələrimiz görkəmini büsbütün dəyişmiş, müxtəlif təyinatlı tikinti obyektlərinin miqyası və əhatə dairəsi genişlənmiş, yeni - yeni yaşayış binaları, göydələnlər, parklar salınmışdır.

Bu gün işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən quruculuq işləri hər bir vətəndaş üçün qürurvericidir. Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş rayonlara ardıcıl və mütəmadi səfərləri həmişə böyük maraq və ruh yüksəkliyi ilə qarşılanır. Bu səfərlər ondan xəbər verir ki, dövlət siyasətinin prioritet istiqamətlərindən birini məhz işğaldan azad edilmiş ərazilərimizin yenidən qurulması və insanların yaşayışının təmin edilməsi təşkil edir. Bu ərazilərimizdə genişmiqyaslı tikinti-quruculuq işlərinin sürətlə aparılması tikinti sektorunda yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Cənnət-məkan torpaqlarımızda tikililər dünya memarlıq-tikinti mədəniyyətinin tələblərinə uyğun olaraq yerinə yetirilir.

* * *

Həmsöhbətim, **45 il inşaat sahəsində çalışmış, hazırda təqaüddə olan Əli Məmmədov** bildirir ki, paytaxt Bakı hər zaman tarixi və diqqətçəkən tikililəri ilə göz oxşayıb: "Müstəqillik qazanandan sonra da Bakının ən görkəmli yerlərində gözəl memarlıq kompleksləri yaradılıb, şəhərin simasını müəyyən edən müasir binalar, göydələnlər tikilib. İllər ötdükcə, bu siyahıya zamanla yeni-yeni möhtəşəm və bənzərsiz abidələr də əlavə olunub. Xüsusilə, Ulu öndərimizin adını daşıyan Heydər Əliyev Mərkəzi dünya memarlığının incilərindən sayılır və müasir Bakının rəmzlərindən biri hesab olunur. Mərkəz müasirliyi və yeniliyi özündə təcəssüm etdirən unikal arxitektur quruluşa malikdir. Azərbaycan muğamının dünyada geniş təbliği məqsədi ilə yaradılan, Dənizkənarı Bulvarda yerləşən, Avropa standartları ilə inşa edilən Beynəlxalq Muğam Mərkəzi də paytaxtımızın gözəlliyini daha da artırır. Siyahıya müasir memarlıq üslubu ilə fərqlənən və xüsusi gözəlliyi ilə seçilən Heydər Əliyev Fondunun, Dövlət Neft Şirkətinin (SOCAR), Neft Fondunun, İqtisadiyyat Nazirliyinin inzibati binalarını əlavə emək olar–həmsöhbətim söyləyir".

Xalqımızın yüzlərlə zəhmətkeş insanı olub ki, onlar Azərbaycanda əvəzsiz xarüqələr yaradıblar. Küləklər şəhəri Bakının əfsanəvi meri olmuş Əliş Ləmbəranski paytaxtın gözəlliyini artıran insan olub. Əliş müəllim qurub-yaratmaq eşqi hüdudsuz, eyni zamanda, universal olub. Eləcə də vaxtilə Bakı Baş Tikinti İdarəsinin rəisi vəzifəsində çalışmış Rauf Gülməmmədovun da bu baxımdan əməyi dəyərləndirilməlidir.

Əli müəllimlə birlikdə "Ağ şəhər"i gəzirik. Təcrübəli bir tikinti mütəxəssisi köhnə binalarla indiki tikililəri müqayisə edir, ötən illər ərzində paytaxtın necə dəyişdiyini dəyərləndirir, xüsusilə layihələrin möhtəşəmliyindən söz açır. Bildirir ki, Azərbaycan inşaatçıları bu gün də fədakar və zəhmətkeşdirlər, davamlı olaraq ölkəmiz üçün tikinti-quruculuq işləri həyata keçirir, qurub-yaradırlar. Məhz gözəlləşən paytaxtımız, görkəmini dəyişən şəhər və kəndlərimiz bu peşə sahiblərinin hünər sərgiləridir.

"Ağ şəhər"dəki tikililərə diqqətlə nəzər yetirən Ə.Məmmədov fəxrlə qeyd edir ki, binalar bir-birindən gözəl memarlıq üslubunda layihələndirilərək belə şəhər salınıb: "Çoxu da hündür olmayan binalardır. Hava bir az qaralan kimi, buradakı mənzərə şəhərə xüsusi gözəllik verir. Elə almaq üçün boş mənzil tapmaq da müşkül məsələdir. Gəzdikcə, sanki, özünü hansısa bir xarici ölkədə təsəvvür edirsən. Qayda-qanunla, sıralama ilə tikilən bütün binalar olduqca fərqlidir. Burada qurulan infrastruktur da təqdirəlayiqdir. "Bakı Ağ Şəhər" layihəsi şəhərin müasir memarlığına öz töhfələrini verə biləcək bir nümunədir. Müasir, gözəlliyinə görə seçilən binalar Bakının çoxəsrlik tarixi olan mövcud memarlığına harmonik şəkildə qarışır və paytaxtı daha da gözəlləşdirir".

Belə bir ifadə var: "Tikdim ki, izim qala". Bu, məhz insanın gördüyü işlərlə yadda qalmaq arzusunu ifadə edir. İnşaatçıların gördüyü işlər bu baxımdan çox dəyərlidir. Onların tikdikləri binalar, yollar və körpülər yalnız daşdan və betondan ibarət deyil, həm də zəhmətin, əzmin və bacarığın nəticəsidir. Aparılan tikintilərdə Azərbaycan memarlığının heç zaman bitib tükənməyən milli ruhu, koloriti və daimi müasirliyi öz əksini tapır. Eyni zamanda müasirliklə milliliyin vəhdəti, tarixi ənənələrin davam etdirilməsi hazırlanan layihələrdə yaşadılır.

Sözsüz ki, ötən hər gün özünün yenilikləri ilə diqqəti cəlb edir. Eyni zamanda müasirliklə milliliyin vəhdəti, tarixi ənənələrin davam etdirilməsi yeni layihələrdə yaşadılır. Təkcə paytaxt Bakıda deyil, eləcə də regionlarda bir-birindən gözəl tikililər istifadəyə verilir.

***Müşfiq MİRZƏ***
***XQ***

# Azərbaycan heyəti II Afrika Şəhərsalma Forumunda

**Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri, Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının (WUF13) milli koordinatoru Anar Quliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Keniyanın paytaxtı Nayrobi şəhərində keçirilən İkinci Afrika Şəhərsalma Forumunda iştirak edir.**



Tədbirin açılış mərasimində çıxışı zamanı komitə sədri Anar Quliyev cari il mayın 17-22-də Bakıda keçiriləcək WUF13-ün qlobal dialoqun davam etdirilməsi baxımından mühüm platforma olacağı bir daha beynəlxalq auditoriyanın diqqətinə çatdırılıb.

Forum çərçivəsində, həmçinin "Mənzil və şəhər inkişafı üçün innovativ maliyyələşmə: dövlət-özəl tərəfdaşlığı" mövzusunda keçirilən Nazirlər Sessiyasına qatılan Anar Quliyev "Hər kəs üçün münasib mənzil" qətnaməsi üzrə Hökumətlərarası İşçi Qrupun həmsədri qismində Azərbaycan və Somali adından Birgə Bəyannamə ilə çıxış edib.

Səfər çərçivəsində, eyni zamanda, Anar Quliyevlə BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax arasında növbəti işgüzar görüş keçirilib və tərəflər Bakı şəhərində keçiriləcək WUF13-ə hazırlıq məsələlərini müzakirə ediblər. Bildirilib ki, artıq 16 mindən çox iştirakçının qeydiyyatdan keçməsi tədbirə yüksək beynəlxalq marağın əyani göstəricisidir.

***XQ***

# Silahlar münaqişəni daha da qəlizləşdirdi



(əvvəli 1-ci səhifədə)

İslamabad şəhərində aparılacaq İran və ABŞ danışıqları Yaxın Şərq coğrafiyasında regional təhlükəsizlik arxitekturasının mütləq yenilənməsini tələb edən əsas platformadır. Aprelin 7-də ABŞ Prezidenti Donald Tramp rəsmi Tehranla 2 həftəlik qarşılıqlı atəşkəs rejiminin qüvvəyə mindiyini rəsmən bəyan edərək, regional deeskalasiya yönündə tarixi qərar qəbul etdi. Onun xüsusi olaraq vurğuladığı kimi, Vaşinqton administrasiyası Tehranın 10 maddəlik təkliflər paketini gələcək mərhələli danışıqlar prosesi üçün hüquqi baza olaraq qəbul edir. 10 maddəlik sənəd bütün Yaxın Şərq regionunda mövcud qüvvələr nisbətinin yenidən müəyyənləşdirilməsini ehtiva edir. Sənədin əsas maddələri vasitəsilə region dövlətlərinin qlobal təhlükəsizlik strukturundakı legitim funksionallığını tam şəkildə bərpa etməyə geniş siyasi zəmin yaranacaq. Təkliflər paketində sanksiya rejiminin yumşaldılması, daxili işlərə kənar müdaxilənin məhdudlaşdırılması, suveren hüquqların beynəlxalq hüquq normaları çərçivəsində tanınması kimi əsaslı strateji müddəaların mövcudluğu istisna edilmir.

Təsdiqlənmiş 2 həftəlik atəşkəs barədə beynəlxalq pakt ABŞ, rəsmi Tehran və aidiyyəti müttəfiqlərin ortaq diplomatik konsensusu əsasında aprelin 8-nə keçən gecə tam qüvvəyə minib. Razılaşmanın şərtlərinə əsasən, Tehran rəhbərliyi İrana qarşı hər hansı konvensiyalı hərbi hücum edilməyəcəyi təqdirdə bütün müdafiə xarakterli cavab zərbələrini dərhal dayandırmağa razılıq verib. Belə rasional və asimmetrik siyasi gediş İran idarəetmə elitasının xarici siyasət kursunda konstruktiv tənzimləmə siyasətinə üstünlük verdiyini göstərir. Qlobal güc mərkəzləri üçün belə siyasi modifikasiya böyük əhəmiyyət daşıyır. Yaxın Şərq cəbhəsində potensial irimiqyaslı müharibənin qarşısının alınması beynəlxalq miqyasda qlobal dəniz marşrutlarının fasiləsiz işləməsini, xüsusən də enerji tranzitinin stabil fəaliyyətini tam təmin edir. İran silahlı qüvvələri tərəfindən idarə olunan hərbi koordinasiya qərargahları mövcud texniki məhdudiyyətləri xüsusi nəzərə almaqla Hörmüz boğazından ticarət gəmilərinin təhlükəsiz keçidinin tam zəmanət altına alınacağını bəyan edib. Diplomatik institutların intensiv fəaliyyəti radikal hərbi ssenarilərin qarşısını alır, çoxsəviyyəli siyasi dialoqun hegemonluğuna geniş yol açır.

Hörmüz boğazı qlobal dəniz logistikası arxitekturasının ən həssas və strateji mərkəzdir. Həmin nəqliyyat marşrutunda mütləq siyasi nəzarətin təminatı Vaşinqtonun xarici siyasət doktrinasında dəyişməz prioritet hesab edilir. ABŞ həmin hövzə suları daxilində gəmiçiliyin maneəsiz hərəkətini qorumaq məqsədilə Şimali Atlantika Müqaviləsi Təşkilatının (NATO) xüsusi struktur öhdəliklər götürməsində inadkar mövqe sərgiləyir. Prezident Donald Tramp NATO-nun Baş katibi Mark Rutte ilə keçirdiyi rəsmi siyasi görüşdə alyans üzvlərindən Hörmüz boğazından keçən beynəlxalq gəmiçiliyin təhlükəsizliyini təmin etmək üçün daha konkret kollektiv addımlar atmalarını, təşkilatın dəniz əməliyyatlarında qlobal məsuliyyətini bilavasitə artırmalarını qətiyyətlə tələb edib. Tramp administrasiyası konseptual qaydada hesab edir ki, Avropa dövlətlərinin iqtisadi təchizat zəncirində mühüm funksiya yerinə yetirən Yaxın Şərq logistika dəhlizlərinin hərbi mühafizəsi bilavasitə Avropa dövlətlərinin müdafiə strategiyasına daxil edilməlidir.

Yaxın Şərq regionunda gedən qlobal sülhə meyilli tendensiyaların digər paralel vektorunda İsrailin Baş naziri Benyamin Netanyahunun Livan istiqamətində qəbul etdiyi strateji qərar dayanır. Netanyahunun Livan rəhbərliyi ilə danışıqlara başlamaq barədə verdiyi siyasi tapşırıq hərbi təzyiq alətlərindən diplomatik vasitəçilik xəttinə doğru inamlı keçid siyasətini əks etdirir. Müvafiq tarixi addım İsrail dövlətinin təhlükəsizlik strategiyasında dərinlik axtarışının bariz nümunəsidir. Təl-Əvivin mütləq hədəfi Livan rəsmiləri ilə açıq konstruktiv dialoq yaradaraq şimal cəbhəsində davamlı sabitlik, sərhəd toxunulmazlığı doktrinasını həyata keçirir. Qonşu dövlətlərlə daimi hərbi toqquşma rejiminin iqtisadi zərərini, beynəlxalq ictimai rəydə yaranan izolyasiya təhlükəsini dərindən dərk edən rəsmi Təl-Əviv diplomatik korpusun analitik potensialından fəal istifadə etməyə məcbur qalıb. Təmasların başlanması barədə verilən qəti rəsmi tapşırıq regional təcridi yarmaq, bölgədə səmərəli sülh infrastrukturunu qurmaq niyyətinin ən obyektiv göstəricisidir. Levant coğrafiyasında eskalasiya tədricən azaldıqca beynəlxalq sülhməramlı səylərin intensivləşməsi üçün münbit diplomatik şərait yaranır. Ümid edirik ki, bütün qeyd edilən diplomatik əməliyyatlar ərəb-İsrail münasibətlərində sabitliyin bərpasına dolayısı ilə zəmin yaradacaq.

Avrasiya qitəsinin digər kəskin böhran ocağı olan Şərqi Avropada formalaşan diplomatik mənzərə mövqe müharibəsindən dəqiq diplomatik manevrlərə struktur keçidini nümayiş etdirir. Rusiya və Ukrayna artıq Pasxa bayramı ərəfəsində hərbi əsirlərin genişmiqyaslı mübadiləsini tam uğurla həyata keçirə bilər. Qeyd olunan məsələ barədə Ukrayna Prezident Ofisinin rəhbəri Kirill Budanov yerli kütləvi informasiya vasitələrinə müsahibəsində olduqca mühüm, ümidverici detalları ictimaiyyətə açıqlayıb. Mübadilə prosesinin bərpası qütbləşmiş tərəflər arasında mühüm humanitar təmasların mümkünlüyünü təsdiqləyən nadir işlək mexanizm rolunu oynayır. Kirill Budanov tərəfindən səsləndirilən rəsmi fikirlərə görə, əsirlərin azad edilməsi prosesi tam reallığa çevrilir. Kirill Budanov yaranmış humanitar vəziyyəti xüsusi sitatla vurğulayıb: “Ümid edirik ki, həmin proses ya bayram ərəfəsindəki gün, ya da ertəsi gün baş tutacaq. Məhz belə addımı gözləmək tamamilə mümkündür. Hamımız həmin anı dərin intizarla gözləyirik”. Rəhbər şəxsin qəti inamla vurğuladığı kimi, gec-tez Ukrayna prezidenti ilə Vladimir Putin arasında tarixi görüş mütləq baş tutmalıdır. Səslənən bəyanat Ukraynanın idarəetmə elitasında, eləcə də siyasi isteblişmentində mövcud hərbi qarşıdurmanın son həll nöqtəsinin yalnız danışıqlar masasında, ən ali siyasi rəhbərlik səviyyəsində tapılacağına dair artan dəmir inamı açıq nümayiş etdirir.

Beynəlxalq miqyasda müşahidə edilən mövcud təlatümlü, lakin tənzimləməyə yönəlik irəliləyişlər dünya nizamının yenidən siyasi inşası kimi xarakterizə olunmalıdır. Keçmiş illərin gərginlikləri əksər hallarda asimmetrik müharibələr vasitəsilə hegemon güclərin amansız toqquşmasını çox aydın nümayiş etdirirdi. Lakin cari ilin aprel dinamikası qəti şəkildə isbat edir ki, artıq böyük qərar mərkəzləri kənar regional dövlətlərə sərt təsir göstərərək onları konstruktiv danışıqlara məcbur edirlər.

Qlobal təhlükəsizliyə doğru atılan hər düşünülmüş addım həm də dövlətlərin milli mənafeyi qorumaq instinktindən doğur. İslamabad razılaşması, Tehran–Vaşinqton arasında kompromis, Netanyahunun Livan açılımı, Hörmüz boğazında formalaşan kollektiv məsuliyyət cəhdləri, Pasxa bayramında həssas humanitar addımlar silahların susdurulması məqamının yetişdiyini, bəşəriyyətin tamamilə fərqli, inkişaf etmiş tarixi formata keçdiyini aydın təcəssüm etdirir. Cəbhə döyüşləri tədricən yerini intellektual diplomatik müzakirələrə buraxır. Güclü dövlətlərin riskli hərbi ambisiyalara məcburi fasilə verərək paktlar üzərində sıx işləməsi sivilizasiyanın qorunub saxlanması yolunda atılan uğurlu addım sayılmalıdır.

*Yusif ŞƏRİFZADƏ*
*XQ*

# Azərbaycan–Almaniya siyasi məsləhətləşmələri

**Aprelin 10-da Bakıda Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib.**

Azərbaycan nümayəndə heyətinə xarici işlər nazirinin müavini Fariz Rzayev, Almaniya nümayəndə heyətinə isə Almaniya Federativ Respublikasının Xarici İşlər Nazirliyinin Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya ölkələri üzrə müvəkkili Niklas Vaqner rəhbərlik ediblər.



Məsləhətləşmələr çərçivəsində ikitərəfli əməkdaşlıq məsələləri üzrə siyasi əlaqələrin cari vəziyyəti nəzərdən keçirilib, davamlı siyasi dialoqun saxlanılması baxımından qarşılıqlı səfərlərin və beynəlxalq tədbirlər çərçivəsində görüşlərin əhəmiyyəti vurğulanıb.

Məsləhətləşmələr zamanı regionda mövcud vəziyyət, Azərbaycan-Ermənistan normallaşma prosesi və davamlı sülhün təmin olunması istiqamətində atılan addımlar, işğaldan azad edilmiş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa, yenidənqurma və minatəmizləmə işləri barədə ətraflı məlumat verilib.

*XQ*

# Konstitusiya Məhkəməsi Plenumunun iclası

## *Bakı Apellyasiya Məhkəməsinin müraciətinə baxılıb*

**Fərhad Abdullayevin sədrliyi ilə Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.**

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən bildirilib ki, məhkəmə iclasında Bakı Apellyasiya Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinin tələbləri baxımından Azərbaycan Respublikası Vergi Məcəlləsinin 23.1.15-3-cü və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 355-5.1-ci maddələrində nəzərdə tutulan “hüquqi şəxsin icra orqanının rəhbəri” anlayışının şərh edilməsinə dair Konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim O.Qvaladzenin məruzəsini, maraqlı subyektlər Bakı Apellyasiya Məhkəməsinin müraciətini və Milli Məclis Aparatının mülahizəsini, Ali Məhkəmə, Vəkillər Kollegiyası, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən təqdim edilmiş mütəxəssis mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Mülki proses və kommersiya hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru A.Mirzəyevanın rəyini və iş materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinin tələblərinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri - əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə əsasən Azərbaycan Respublikası Vergi Məcəlləsinin 23.1.15-3-cü və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 355-5.1-ci maddələrində nəzərdə tutulan “hüquqi şəxsin icra orqanının rəhbəri” anlayışı xarici hüquqi şəxsin filial və ya nümayəndəliyinin rəhbərini də ehtiva edir.

Müvafiq məsələyə baxılarkən hüquq tətbiqedən orqanlar tərəfindən vergiödəyicisinin öz öhdəliklərinin icrasından yayınması ilə bağlı ilkin sübutlar araşdırılmalı, alternativ tədbirlərin tətbiqinin mümkünlüyü və tətbiq edilən məhdudiyyətin gözlənilən nəticəyə mütənasibliyi qiymətləndirilməli, belə tədbirin tətbiqi şəxsin hüquqlarının lüzumsuz məhdudlaşdırılmasına gətirib çıxarmamalıdır.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

*XQ*

*Yağışın fəsadları*

**İçərişəhər, sadəcə, Azərbaycan paytaxtının daş yaddaşı, bənzərsiz şarmı, qədim ərazisi, keçmişlə müasirliyin vəhdəti, xarici turistlərin, yüksək çinli qonaqların mütləq baş çəkdikləri məkan deyil, həm də Bakının ruhudur. Buranın əyri-dolanbac küçələrinin hər qarışı, Qala divarının hər kərpici bizə tarixdən söz açır, keçmişi unutmamağı xatırladır. Paytaxtın açıq səma altındakı bu əsrarəngiz muzeyi dövlətin daim diqqət və qayğısı altındadır.**

# Bakının “daş yaddaşı”nı göz bəbəyi kimi qorumalıyıq

## *İçərişəhərin Qala divarında baş verən qopma operativ şəkildə aradan qaldırılır*

Amma insanın qarşısında acız qaldığı təbii fəlakət – sel, daşqın yerin, tikilinin qədimliyinə, müasirliyinə baxmır. Son 10-15 gündə ölkə ərazisində olduğu kimi, paytaxtda da müşahidə olunan, doluya, selə, daşqına, çevrilən, torpaq sürüşmələri yaradan intensiv yağışlar İçərişəhərin Qala divarına da təsirsiz ötüşməyib. Bu barədə “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin məlumatında deyilir ki, Qala divarının bir hissəsində baş vermiş qismən dağılma ilə bağlı dərhal operativ tədbirlər görülür. Məlumatda o da qeyd olunur ki, hazırda əraziyə yüksəkixtisaslı mütəxəssislər cəlb olunub.

Dəvət olunan bərpaçılar qrupu uzun illər beynəlxalq təcrübəyə malik olmaqla yanaşı, Azərbaycanda bir sıra mühüm tarixi abidələrin təmir-bərpasında iştirak edib. Onların həyata keçirdiyi layihələr sırasında Qız qalası, Qoşa Qala qapısı, Şirvanşahlar Sarayı Kompleksi və digər mühüm abidələr var. Mövcud fəaliyyət planına uyğun olaraq, ilkin mərhələdə təcili konservasiya və sabitləşdirmə tədbirləri həyata keçiriləcək. Bu tədbirlər zədələnmiş sahənin daha da deformasiyaya uğramasının qarşısını almağa və konstruksiyanın dayanıqlılığını təmin etməyə yönəlib.

Növbəti mərhələdə ərazidə ətraflı texniki və mühəndis-ekspertiza qiymətləndirilməsi aparılacaq. Qiymətləndirmənin nəticələrinə əsasən, Qala divarının zədələnmiş hissəsinin elmi əsaslandırılmış bərpası həyata keçiriləcək. Təqdirəlayiq haldır ki, bu yanaşma bundan əvvəl İçərişəhər ərazisində həyata keçirilən digər bərpa layihələrində uğurla tətbiq olunub. Burada əsas meyar aparılan təmir-bərpa işlərinin uzunmüddətli qorumaya və davamlılıq prinsipinə əsaslanmasıdır. Yəni qısamüddətli kosmetik müdaxilələrə yol verilməməlidir.



Hazırda bərpa işləri yüksək dəqiqlik, xüsusi həssaslıq və beynəlxalq standartlara uyğun şəkildə aparılır.

Yeri gəlmişkən, qədim memarlıq incilərindən sayılan Qız qalasının orijinallığının qorunub saxlanması məsələsinə həmişə xüsusi diqqət və həssaslıqla yanaşılıb. Vaxtaşırı tələb olunan bərpa işləri beynəlxalq standartlara uyğun şəkildə aparılıb. Buna misal olaraq, 2011-2013-cü illərdə Almaniyanın “Remmers” şirkətinin iştirakı ilə əsaslı bərpa və konservasiya işlərini göstərmək olar. Böyük təcrübəyə, sahənin səriştəli mütəxəssislərinə malik bu şirkət Bakının Məhəmməd – Sınıqqala məscidində konservasiya işləri aparıb, Parisdə Notterdam, Kölndə Köln qalalarının bərpa işlərini yüksək peşəkarlıqla yerinə yetirib.

Oxucuların nəzərinə çatdıraq ki, dünya təcrübəsində tarixi qala divarlarının və antik konstruksiyaların bu cür qəfil deformasiyası hallarına tez-tez rast gəlinir. Xüsusilə iqlim dəyişikliyi, seysmik aktivlik səbəbindən Avropanın və Asiyanın qədim şəhərlərində oxşar vəziyyətlər müşahidə olunub. Açıq səma altındakı qədim tikililərin təbii fəlakətlərdən qorunması, yaxud bərpası isə ayrıca yanaşma tələb edir.

Azərbaycan dövləti tarixin müəyyən məqamlarını özündə əks etdirən abidələrin qorunmasında, bərpasında, onların gələcək nəsillərə çatdırılmasında zəruri tədbirlərin həyata keçirilməsi ilə bağlı mütəmadi addımlar atır. Ölkə başçısı İlham Əliyevin qayğı və diqqəti nəticəsində paytaxtda və bölgələrdə bir tərəfdən yeni, müasir abidələr ucaldılır, memarlıq kompleksləri yaradılır, digər tərəfdən tarixi abidələr, qədim binalar bərpa olunur, onlar özlərinin ikinci ömrünü yaşayır.

...Bəli, İçərişəhər açıq səma altında bir muzeydir. Bu muzeyin göz bəbəyi



“İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin açıqlamasında bildirilir ki, ölkəmizin ən mühüm tarixi-mədəni irs nümunələrindən sayılan Qala divarlarının qorunması həmişə prioritet vəzifə olub. Son illər həmin abidələrdə mərhələli bərpa və konservasiya tədbirləri sistemli şəkildə həyata keçirilib. Məlumatda o da qeyd olunur ki, aşınma hadisəsinin baş verdiyi 13 və 14 saylı bürclərin kəsişmə hissəsində indiyədək hər hansı bərpa və ya restavrasiya müdaxiləsinə ehtiyac olmayıb. Aşınmaya əsas səbəb son günlər müşahidə olunan aramsız yağıntılar nəticəsində yaranan rütubət və təbii erroziya prosesləridir. 

kimi qorunması, təmir-bərpası və abadlaşdırılması müntəzəm xarakter almalıdır. Mütəxəssislərin qənaətinə görə, tarixi abidələrin yağışın, qarın, dəyişkən iqlim şəraitinin təsirlərindən aşınmaya məruz qalmaları təbii prosesdir. Onu da bildirirlər ki, qədim memarlıq incilərinin “düşmənlərindən” biri də maşınların atmosferə buraxdığı zəhərli qaz, tüstüdür. Bakıda isə maşınlar durmadan çoxalır. Bu isə təbii fəlakətin ayağına yazılmayan, insan amilinə bağlı məsələdir...

*İ.HƏSƏNQALA*
*XQ*

# Əmək bazarında hüquqi tənzimləmə və sosial müdafiə

## *Çevik məşğulluq regionların inkişafı üçün də yeni imkanlar yaradır*



**“Əmək qanunvericiliyi hər bir ölkədə sosial-iqtisadi modelin əsas dayaqlarından biridir və işçi ilə işəgötürən arasında hüquqi münasibətləri tənzimləyən Əmək Məcəlləsində edilən son dəyişiklikləri həm əmək bazarının real iqtisadi münasibətlərə uyğunlaşdırılması, həm də işçi hüquqlarının daha etibarlı müdafiə mexanizminin, əmək münasibətlərində çevik və sosialyönlü hüquqi tənzimləmələrin tətbiqi istiqamətində mühüm strateji mərhələ kimi qiymətləndirmək olar”.**

Bu fikirləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın İdarə Heyəti sədrinin müavini Elçin Süleymanov XQ-yə ölkəmizdə əmək bazarının inkişafı ilə bağlı müsahibəsində bildirdi. Azərbaycan iqtisadiyyatında müşahidə olunan struktur transformasiya prosesinin əmək bazarının keyfiyyət və məzmun baxımından yeni mərhələyə daxil olmasını şərtləndirdiyini vurğulayan müsahibimiz dedi:

– Qeyri-neft sektorunun Ümumi Daxili Məhsulda payının 2015-ci illə müqayisədə əhəmiyyətli dərəcədə artması, məşğulluğun əsas artım mənbəyinin xidmət, ticarət, logistika, tikinti və digər qeyri-neft sahələrində formalaşması iqtisadi inkişafın daha şaxələndirilmiş modelə keçdiyini göstərir. Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, hazırda məşğul əhalinin mühüm hissəsinin qeyri-neft sahələrində cəmləşməsi struktur dəyişikliyinin davamlı xarakter aldığını təsdiqləyir.

Bu dəyişikliklər əmək münasibətlərinin formasını da əhəmiyyətli dərəcədə yeniləyir. Rəqəmsallaşma proseslərinin dərinləşməsi, məsafədən iş imkanlarının genişlənməsi, layihə əsaslı fəaliyyət və çevik məşğulluq modellərinin yayılması əmək bazarını daha dinamik və adaptiv hala gətirmişdir. Bu mərhələdə əmək qanunvericiliyinin yenilənməsi təbii və zəruri proses kimi çıxış edir.

Əmək bazarında baş verən struktur və funksional dəyişikliklərin hüquqi müstəvidə əks olunması iqtisadi inkişafın davamlılığının təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bu baxımdan Əmək Məcəlləsində edilən son dəyişikliklər mövcud reallıqlara cavab verən institusional uyğunlaşma kimi qiymətləndirilməlidir.

Yeni hüquqi yanaşma əmək bazarında formalaşmış müasir münasibətləri normativ çərçivəyə daxil etməklə şəffaflığı artırır, hüquqi müəyyənliyi gücləndirir və iqtisadi subyektlər üçün daha aydın mühit yaradır. Əvvəllər hüquqi boşluq kimi qəbul edilən məqamlar bu gün inkişaf üçün imkanlara çevrilir və əmək bazarının idarə olunan, çevik və səmərəli sistem kimi formalaşmasına xidmət edir.



Nəticə etibarilə Əmək Məcəlləsində edilən son dəyişikliklər mövcud struktur transformasiyanın məntiqi davamı kimi əmək bazarının yeni konfiqurasiyasına uyğunlaşmanı təmin edir. Bu yanaşma hüquqi tənzimləməni iqtisadi inkişafın tempi ilə sinxronlaşdırmaqla, əmək bazarının uzunmüddətli perspektivdə daha dayanıqlı və rəqabətqabiliyyətli inkişafına etibarlı zəmin yaradır.

**E.Süleymanov real əmək münasibətlərinin tanınması və inkişafı ilə bağlı dedi:**

– Əmək Məcəlləsində edilən dəyişikliklərin mühüm istiqamətlərindən biri əmək münasibətlərində istifadə olunan anlayışların dəqiqləşdirilməsi və müasir iqtisadi reallıqlara uyğunlaşdırılmasıdır. “Ailə vəzifələri olan işçi”, “məsafədən (distant) iş” və “ezamiyyət” kimi anlayışların normativ səviyyədə təsbit edilməsi əmək bazarında faktiki mövcud olan münasibətlərin tanınması baxımından prinsipial əhəmiyyət daşıyır. Bu yanaşma əmək qanunvericiliyinin deklarativ xarakterdən çıxaraq real iqtisadi davranışlarla uzlaşmasını təmin edir. Əmək bazarında anlayışların dəqiq tərifi hüquqi-texniki məsələ olmaqdan daha çox, institusional keyfiyyət göstəricisidir.

“Ailə vəzifələri olan işçi” anlayışının Əmək Məcəlləsinə daxil edilməsi Azərbaycan cəmiyyətinin sosial-mədəni xüsusiyyətlərini və əmək bazarının real demoqrafik yükünü nəzərə alan mühüm institusional addımdır. Ailə üzvlərinə, xüsusilə uşaqlara, yaşlılara və xüsusi qayğıya ehtiyacı olan şəxslərə qulluq yükü əmək bazarında iştirak imkanlarına birbaşa təsir göstərir. Bu reallığın hüquqi səviyyədə tanınması əmək bazarında sosial ədalətin gücləndirilməsinə, eyni zamanda, işçi qüvvəsinin əmək bazarında saxlanmasına xidmət edir.

Digər tərəfdən, bu anlayış işəgötürən üçün də daha aydın hüquqi çərçivə yaradır. Ailə vəzifələri ilə bağlı güzəştlərin və ya çevik yanaşmaların subyektiv qərarlar deyil, normativ əsaslara söykənməsi əmək münasibətlərində idarəolunanlığı artırır, ayrı-seçkilik risklərini azaldır və korporativ qərarların hüquqi əsaslarını möhkəmləndirir.

“Məsafədən (distant) iş” anlayışının hüquqi təsbiti isə müasir əmək bazarının transformasiyasını əks etdirən strateji addımdır. Rəqəmsallaşma və texnologiyaların inkişafı əmək fəaliyyətinin məkan asılılığını əhəmiyyətli dərəcədə azaltmışdır.

Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları, xidmətlər, maliyyə, dizayn, konsaltinq və digər sahələrdə distant iş təcrübəsi, faktiki olaraq, geniş yayılmışdır. Bu fəaliyyət formalarının hüquqi çərçivəyə salınması əmək bazarını reallıqdan geri qalan normativ mühitdən çıxararaq müasir iqtisadi modelə uyğunlaşdırır. Distant işin hüquqi tanınması həm işçilər, həm də işəgötürənlər üçün mühüm institusional üstünlüklər yaradır.

İşçilər üçün bu, əmək hüquqlarının qorunması, sosial sığorta təminatının saxlanılması və gələcək pensiya hüquqlarının formalaşması deməkdir. İşəgötürənlər üçün isə əmək resurslarından daha çevik istifadə, əməliyyat xərclərinin optimallaşdırılması və məhsuldarlığın artırılması imkanları yaranır. Nəticədə, əmək bazarında çeviklik qeyri-formallıq hesabına deyil, hüquqi tənzimləmə əsasında təmin olunur.

“Ezamiyyət” anlayışının normativ səviyyədə dəqiqləşdirilməsi də əmək münasibətlərində hüquqi müəyyənliyin artırılmasına xidmət edir. Ezamiyyətlə bağlı öhdəliklərin, xərclərin və kompensasiya mexanizmlərinin aydın tərifi əmək mübahisələrinin qarşısını almaqla yanaşı, müəssisələrin maliyyə və əməliyyat planlaşdırmasını asanlaşdırır. Bu, əmək münasibətlərində şəffaflığı gücləndirir və inzibati riskləri azaldır.

Ümumilikdə, anlayışların dəqiqləşdirilməsi Əmək Məcəlləsinin yalnız hüquqi sənəd kimi deyil, əmək bazarının real işləmə mexanizmini tənzimləyən institusional çərçivə kimi rolunu gücləndirir. Bu dəyişikliklər əmək münasibətlərini subyektiv razılaşmalardan və qeyri-rəsmi praktikadan çıxararaq qayda əsaslı, proqnozlaşdırılan və iqtisadi baxımdan səmərəli mühitə yaxınlaşdırır.

**Müsahibimiz rəqəmsal iqtisadiyyat və distant iş: hüquqi uyğunlaşma və institusional yetkinlik mərhələsi barədə də məlumat verdi:**

– “Məsafədən (distant) iş” anlayışının Əmək Məcəlləsində hüquqi təsbit edilməsi Azərbaycanın rəqəmsal iqtisadiyyat gündəliyi ilə birbaşa uzlaşan və əmək bazarının modernləşməsini sürətləndirən mühüm institusional addımdır. Son illər ölkədə elektron xidmətlərin genişlənməsi, informasiya-kommunikasiya texnologiyaları sektorunun inkişafı və rəqəmsal platformalar üzərindən göstərilən xidmətlərin həcminin artması əmək fəaliyyətinin məkan və zaman baxımından daha çevik formalar almasını şərtləndirmişdir.

Rəqəmsal iqtisadiyyat şəraitində əmək münasibətləri yalnız ənənəvi iş yerləri ilə məhdudlaşmır. Proqramlaşdırma, dizayn, rəqəmsal marketinq, konsaltinq, maliyyə xidmətləri və digər biliktutumlu-intensiv sahələrdə əmək fəaliyyəti fiziki məkandan asılılığını itirir. Bu şəraitdə distant işin hüquqi çərçivəyə salınması əmək bazarını normativ baxımdan reallıqla uzlaşdırır və iqtisadi inkişafın yeni modellərinə uyğunlaşmanı təmin edir.

Hüquqi uyğunlaşma olmadan bu proseslər qeyri-formal müstəvidə qalır, nəticədə, həm işçilər, həm də işəgötürənlər üçün risklər artır.

Distant işin normativ səviyyədə tanınması qeyri-formal məşğulluğun azaldılması baxımından xüsusi əhəmiyyət daşıyır. Əmək münasibətlərinin rəsmiləşdirilməsi vergi və sosial sığorta bazasının genişlənməsinə, əmək hüquqlarının qorunmasına və uzunmüddətli sosial təminat mexanizmlərinin güclənməsinə imkan yaradır. Bu yanaşma sosial sığorta sisteminin dayanıqlılığını artırmaqla yanaşı, əmək fəaliyyəti ilə pensiya hüquqları arasında əlaqəni də möhkəmləndirir.

Beləliklə, distant iş yalnız çeviklik deyil, eyni zamanda, sosial təminatla müşayiət olunan rəsmi məşğulluq forması kimi institusional çərçivəyə daxil edilir. İqtisadi baxımdan distant işin hüquqi tənzimlənməsi məhsuldarlığın artması və resurslardan daha səmərəli istifadə üçün əlavə imkanlar yaradır. İşəgötürənlər üçün bu, əməliyyat xərclərinin optimallaşdırılması, kadr bazasının coğrafi baxımdan genişlənməsi və əmək resurslarına çıxışın asanlaşması deməkdir.

İşçilər üçün isə əmək bazarına çıxış imkanlarının artması, regionlararası fərqlərin azalması və iş-ailə balansının daha çevik şəkildə qurulması kimi üstünlüklər formalaşır. Nəticədə, əmək bazarında inklüzivlik səviyyəsi yüksəlir.

Əvvəllər risk mənbəyi kimi qiymətləndirilən çevik iş formalarının hüquqi çərçivəyə salınması onları institusional inkişaf alətinə çevirir. Dövlət üçün bu proses əmək bazarının daha dəqiq monitorinqinə, statistikanın keyfiyyətinin yüksəlməsinə və əmək siyasətinin daha əsaslandırılmış şəkildə formalaşdırılmasına şərait yaradır.

Beləliklə, distant işin hüquqi uyğunlaşdırılması əmək bazarının rəqəmsal transformasiyasına cavab verən müasir institusional mərhələ kimi çıxış edir. Bu yanaşma çevikliyi qeyri-formallıq hesabına deyil, hüquqi müəyyənlik və sosial təminat əsasında təmin etməklə Azərbaycanın əmək bazarının daha dayanıqlı, şəffaf və rəqabətqabiliyyətli inkişafına möhkəm zəmin yaradır.

**Müsahibimizin əməkhaqqı mexanizmləri, gəlir sabitliyi və minimum əməkhaqqı açıqlaması da oxucularımız üçün maraqlıdır:**

– Əməkhaqqı ilə bağlı edilən son dəyişikliklər Azərbaycan reallığında yalnız sosial deyil, eyni zamanda, mühüm iqtisadi təsirə malik institusional yeniliklər kimi qiymətləndirilməlidir. Əməkhaqqının ödəniş dövriliyinin daha aydın müəyyən edilməsi, habelə məzuniyyət dövründə ödənişlərin “sonuncu əmək haqqından az olmamaqla” təmin edilməsi əmək bazarında gəlir sabitliyinin gücləndirilməsinə xidmət edir.

Əməkhaqqı mexanizmləri ev təsərrüfatlarının iqtisadi davranışında həlledici rol oynayır. Ölkənin mövcud şəraitində əhalinin əhəmiyyətli hissəsi üçün əməkhaqqı əsasən, yeganə gəlir mənbəyidir. Bu səbəbdən ödənişlərin gecikməsi və ya qeyri-müntəzəm xarakter daşıması yalnız fərdi səviyyədə deyil, bütövlükdə sosial-iqtisadi mühitdə gərginlik yarada bilən amillərdəndir. Yeni hüquqi yanaşma bu riskləri minimuma endirməklə ev təsərrüfatlarının maliyyə planlaşdırmasını asanlaşdırır və gəlirlərin davamlılığını təmin edir.

Məzuniyyət dövründə əməkhaqqının sonuncu əməkhaqqından az olmamaqla ödənilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu norma işçinin istirahət hüququnu real gəlir itkisi riski ilə müşayiət olunmayan təminata çevirir. İqtisadi baxımdan bu yanaşma əmək məhsuldarlığına da müsbət təsir göstərir, çünki işçi istirahət dövrünü sosial risk deyil, əmək prosesinin normal və zəruri mərhələsi kimi qəbul edir. Nəticədə, iş prosesinə qayıdış daha səmərəli və motivasiyalı şəkildə baş verir.

Əməkhaqqı ödənişlərinin sabitliyi makroiqtisadi baxımdan da əhəmiyyətlidir.

Gəlirlərin proqnozlaşdırılan olması istehlak davranışında kəskin dalğalanmaların qarşısını alır, daxili tələbin daha stabil formalaşmasına şərait yaradır. Bu isə xüsusilə qeyri-neft sektorunun genişləndirilməsi və daxili bazara əsaslanan iqtisadi artım modelinin gücləndirilməsi baxımından mühüm rol oynayır.

Əməkhaqqı mexanizmlərinin təkmilləşdirilməsi nəticəsində əldə olunan gəlir sabitliyi fiskal və monetar siyasət üçün də daha proqnozlaşdırılan mühit yaradır. İşəgötürən üçün ödəniş öhdəliklərinin aydın şəkildə müəyyən edilməsi idarəetmə intizamını gücləndirir, əmək mübahisələrinin və əlavə inzibati risklərin azalmasına şərait yaradır. Bu isə biznes mühiti üçün müsbət institusional siqnal olmaqla, uzunmüddətli planlaşdırma imkanlarını genişləndirir.

Bu dəyişikliklər yalnız sosial müdafiə tədbiri deyil, əmək bazarında institusional sabitliyi gücləndirən və iqtisadi tarazlığı dəstəkləyən mühüm mexanizm kimi çıxış edir. Gəlir sabitliyinin təmin olunması həm fərdi rifahın, həm də ümumi iqtisadi dayanıqlılığın möhkəmlənməsinə xidmət etməklə, Əmək Məcəlləsində aparılan hüquqi modernləşmənin praktik nəticələrini aydın şəkildə nümayiş etdirir.

**Sosial dialoq və institusional balans, insan kapitalı və peşə keyfiyyəti barədə müsahibimiz dedi:**

– Əmək və sosial məsələlər üzrə Üçtərəfli Komissiyanın hüquqi əsasının təsbit edilməsi əmək bazarında institusional idarəetmənin keyfiyyətcə yeni mərhələyə keçidini göstərir. Dövlət, işəgötürənlər və işçilər arasında dialoqun institusional səviyyədə gücləndirilməsi əmək bazarında qərarların birtərəfli deyil, balanslı və razılaşdırılmış şəkildə qəbuluna şərait yaradır.

Bu mexanizm əmək bazarında potensial risklərin erkən mərhələdə müəyyən edilməsinə, sosial gərginliklərin qarşısının alınmasına və əmək münasibətlərində sabitliyin qorunmasına xidmət edir. Sosial dialoqun institutlaşması mübahisələrin inzibati və ya hüquqi eskalasiyasını minimuma endirir, onları əvvəlcədən razılaşma və məsləhətləşmə müstəvisində həll etməyə imkan verir.

İnstitusional baxımdan Üçtərəfli Komissiya əmək bazarında münasibətlərin şəffaf və iştirakçı əsasda formalaşmasını təmin edir. Bu yanaşma həm biznes mühitinin proqnozlaşdırıla bilən olmasına imkan yaradır, həm də işçilərin hüquqlarının qorunmasına sistemli zəmanət verir. Nəticədə, əmək bazarında əmək münasibətlərinin tərəfləri arasında etimad səviyyəsi yüksəlir və uzunmüddətli iqtisadi planlaşdırma üçün sağlam institusional mühit formalaşır.

**Söhbətimizin sonunda E.Süleymanov regional əmək bazarı və çevik məşğulluq, potensialın reallaşdırılması, həmçinin sosial siyasət və pensiya sistemi ilə bağlı da məlumat verdi:**

– Regionların sosial-iqtisadi inkişafı əmək bazarının strukturlaşmasında mühüm rol oynayır. Son illər regionlarda infrastruktur layihələrinin, sənaye parklarının və aqroparkların yaradılması məşğulluq imkanlarını əhəmiyyətli dərəcədə genişləndirmişdir. Bu proses regionlarda iqtisadi fəallığın artmasına və yerli əmək resurslarının daha səmərəli istifadəsinə imkan yaratmışdır.

Regional əmək bazarının potensialının tam reallaşdırılması üçün mövsümi, layihə əsaslı və çevik məşğulluq formalarının hüquqi baxımdan tanınması xüsusi əhəmiyyət daşıyır. Son dəyişikliklər bu sahədə regionların əmək potensialını formal və dayanıqlı məşğulluq formatına çevirməyə imkan verir. Beləliklə, çevik məşğulluq regional inkişaf üçün risk deyil, institusional imkan kimi formalaşır.

Əmək bazarının inkişafı ilə sosial sahədə aparılan islahatlar arasında sıx və qarşılıqlı gücləndirici əlaqə mövcuddur. Prezident İlham Əliyev tərəfindən imzalanmış “Əmək pensiyalarının indeksləşdirilməsi haqqında” sərəncam bu əlaqənin praktik və sistemli təzahürüdür. Pensiyaların indeksləşdirilməsi, pensiya kapitallarının artırılması və bütün proseslərin proaktiv qaydada elektron sistem üzərindən həyata keçirilməsi sosial müdafiəni əmək bazarının leqallaşması ilə birbaşa əlaqələndirir.

Pensiya kapitallarının hər il indeksləşdirilməsi əmək müqaviləsi ilə çalışan və sosial sığorta sistemində iştirak edən vətəndaşlar üçün güclü motivasiya mexanizmi yaradır. Vətəndaşlar sosial sığorta ödənişlərinin yalnız cari öhdəlik deyil, gələcək rifah üçün real dəyər formalaşdırdığını görürlər. Bu isə qeyri-formal məşğulluğu problemdən çox, institusional inkişaf üçün hədəf və ehtiyat potensial kimi təqdim edir.

Beləliklə, Əmək Məcəlləsində 2025–2026-cı illərdə edilən dəyişikliklər texniki-hüquqi düzəlişlərdən daha geniş strateji məna daşıyır. Bu dəyişikliklər əmək bazarında institusional keyfiyyətin yüksəldilməsi, insan kapitalının qorunması və iqtisadi inkişafın dayanıqlı əsaslar üzərində qurulması istiqamətində ardıcıl və məqsədyönlü addımlar kimi qiymətləndirilməlidir.

Əmək bazarının inkişafı ilə hüquqi modernləşmə arasında formalaşan qarşılıqlı gücləndirici əlaqə Azərbaycanın orta və uzunmüddətli perspektivdə rəqabətqabiliyyətli, sosial baxımdan ədalətli və iqtisadi baxımdan dayanıqlı inkişaf modelinin əsas sütunlarından birinə çevrilir.

***Söhbəti hazırladı:***
***Zərifə BƏŞİRQIZI***
***XQ***



# I Ümumittifaq Türkoloji Qurultay milli mətbuatda

**1926-cı il fevralın 26-dan martın 6-dək Bakıda keçirilən I Ümumittifaq Türkoloji Qurultayı Azərbaycan jurnalistikası tarixində əlamətdar hadisə olmuşdur. Həmin gün İsmailiyyə binasında Azərbaycan Milli Mətbuatının 50 illiyi geniş miqyasda qeyd edilmişdi, 1875-ci ildən 1925-ci ilə qədər Azərbaycanda ana dilində çap olunmuş bütün qəzet və dərgilərin sərgisi təşkil edilmişdi.**

**Qurultay yalnız türkdilli xalqların dil, ədəbiyyat və mədəniyyət məsələlərini müzakirə etməklə kifayətlənməmiş, eyni zamanda, milli mətbuatın rolunu da ön plana çıxarmışdır. O dövrdə qəzet və jurnal redaksiyaları qurultayın gündəmini oxucuya çatdırmaq üçün böyük zəhmət sərf etmiş, məruzələrin mahiyyətini və çıxışçıların fikirlərini diqqətlə işıqlandırmışdı.**

**Doğrudur, qurultayla bağlı zaman-zaman tədqiqatlar aparılsa, kitablar, məqalələr yazılsa da, konfranslar keçirilsə də, Azərbaycan mətbuatının bu tarixi toplantıdakı fəaliyyəti, fədakarlığı araşdırılmamışdır. Qurultayda iştirak və məruzə edən məşhur türkoloqların, dilçilərin Azərbaycana gəlişi, qarşılanması, mətbuata verdikləri müsahibələr, təəssüratlar, məqalələr qurultay barədə**




**daha geniş məlumat əldə olunmasına kömək edir.**

**Qurultayın gedişi hər gün "Kommunist" (əski əlifba ilə Azərbaycan dilində), "Бакинский рабочий" (rus dilində), "Yeni yol", "Maarif işçisi" (latın qrafikası ilə) və digər mətbuat orqanlarında işıqlandırılır, iclasların yekunu kimi rəsmi bülletenlər çap edilir. Azərbaycandilli mətbuatda qurultayın gündəliyi, məruzəçilərin çıxışlarının təhlili və onların milli dil siyasəti haqqında fikirləri ön plana çıxarılırdı, "Бакинский рабочий" isə rusdilli oxucular üçün daha çox Avropa türkoloqları ilə əlaqələrə diqqət yetirirdi. Mətbuat yalnız hadisələri müəyyən tarixi çərçivədə təqdim etmir, eyni zamanda, qurultay iştirakçıları ilə ictimaiyyət arasında körpü rolunu oynayır və dil ilə mədəniyyət sahəsindəki məlumatların sistemli şəkildə yayılmasına xidmət edirdi.**

**Bu yazıların xüsusi əhəmiyyəti ondadır ki, məruzəçilərin mətbuata verdikləri müsahibələr və çap etdikləri məqalələrlə I Ümumittifaq Türkoloji Qurultayın rusca stenoqramı ilə təqdim olunan rəsmi hesabatlar arasında bəzi fərqliliklər mövcuddur. Bütün bunları nəzərə alaraq, qurultayla bağlı Azərbaycan mətbuatındakı yazıları sistemli şəkildə çatdırır, vacib bildiyimiz yazıların tərcüməsini və analitik şərhini veririk.**

**Belə yanaşma hadisələri tarixi kontekstdə yalnız təqdim etmir, həm də mətbuatın milli-mədəni məsələlərdəki rolunu və əhəmiyyətini akademik şəkildə açıqlayır. Oxucu bu yazılarda həm qurultayın canlı ab-havasını, həm də mətbuat səhifələrində əks olunan ictimai reaksiyaları, dövrün mədəni və siyasi ruhunu daha dərindən duya bilir.**

### "Yeni yol" qəzeti
### 1926-cı il, № 51

**I Ümumittifaq Türkoloji Qurultayı**
**27 fevral səhər iclası**

**Akademik Bartoldun məruzəsi**

***Türk xalqları tarixinin hazırkı vəziyyəti və onu öyrənmək yolunda olan yaxın məsələlər***

Türklər öz yaşayışlarının tarixi gedişatını az bir müstəsna ilə öz dillərində tarixi ədəbiyyat yaradamadılar. Türk xalqları tarixini öyrənmək üçün bir türkoloq olmaq kifayət etmir. Hanki bir əsr, hanki bir dövr ilə maraqlanacağımıza görə eyni zamanda həm sinoloq, həm irançı, həm də ərəbçi olmaq lazım gəlir. Türk dillərini tədqiq etmək üçün ən əhəmiyyətli bu ilk mənbə hesab olunan VIII əsrdəki Orxon kitabələridir. Bunu da unutmamalıdır ki, kitabələrin oxunması hələ bitib qurtarmamışdır və bəzi yerlərin izah olunmaması hələ mübahisəli qalmışdır. Ona görə mövcud olan təcrübələrə əsasən tarixi xülasə və nəticələr də çıxarmaq olmaz.

Professor Pelyonun son verdiyi məlumatlar Çin ədəbiyyatında ayrı-ayrı xalqların törənməsinə dair mövcud materialların olmasını göstərir. Bu materialların elan və tədqiq edilməsi kimi məsələlərdən çəkinmək lazımdır.

Dilçilərin (linqvist, lisaniyyatçı) çuvaş dili haqqındakı nəzəriyyə və çıxardıqları nəticə hunların meydana gəlmələri barəsindəki məsələlərə yenidən baxılmasını doğura bilər. Orta Asiya xalqlarının birinci köçməsi zamanında və bunun da başlıcası olan hunlardan, ola bilsin ki, çuvaşlar törəmiş olarlar.

Daha doğrusu, türk xalqından olmayan və antroloji nöqteyi-nəzərindən birinci olan qırğız xalqı tarixində də bir çox qaranlıq nöqtələr vardır.

P.K.Kozlovun fənni dəstəsi tapıntıları tədqiq edərkən də türk abidələrindəki maddi mədəniyyətin müddət və zamanını təyin etməyi çətinliyi qarşısında qalmışlar.

Ərəb mənbələri ilə istifadə edərkən ərəb ədəbiyyatı, o cümlədən coğrafiya məlumatları, yazı mahiyyətində olduğunu nəzərə almalıdır.

Bu və ya digər müəllifin əsərlərindəki məlumatın çoxu onun zamanına aid olmayıb, onun tərəfindən və sair yazılı mənbələrdən alınmışdır. Bu məlumatın çoxu özündən daha da əvvəlki əsrlərə dairdir. Orta Asiya haqqında kitablardan alınmayıb, fəqət, müəllifin özünün şəxsi müşahidələri və tədqiqatı nəticəsi olaraq yazılan ən doğru bir məlumat Türkiyədə təb edilən Mahmud Kaşğarinin əsəridir.

İndiyə qədər olan mənbələr, hətta Mahmud Kaşğarinin əsəri də buraya daxil olmaqla, Orta Asiyanın qərbi cəhətində yaşayan türklərin tarix mədəniyyətinin baçlıca amil və səbəbləri və onların yavaş-yavaş islamı təsirinə, İran müsəlmanları mədəniyyəti nüfuzuna qapılmaları xüsusunda heç bir material bulunmur.

Türklər arasında islamiyyətin müvəffəqiyyəti islamiyyətin ümumi mahiyyəti ilə bağlıdır. Bu dinin yayılması bir mədəni dünyanın və ya bir irqin məziyyət və xüsusiyyətləri ilə mərbut deyildir.

Öz vaxtında müsəlman Türkiyə (osmanlı) ədəbiyyatının birinci mərkəzi Kaşğar, ikincisi Seyhun çayının (Sır-Dərya) orta və aşağı axıntıları ətrafındakı yerlər də daxil olmaqla Xarəzm idi. Bu ikinci mərkəzə görə də osmanlı dili ərəb və fars dilləri sırasında olaraq müsəlman aləmində üçüncü ədəbi dil məqamını tutdu. Bu xüsusda da XIV əsrin şəhadət verir.

Ancaq Monqol hakimiyyəti zamanında İslam dini bir çox türk xalqlarının dini olmuşdur.

Monqolların hərbi müvəffəqiyyətləri nəticələri köçəri ənənələrini canlandıraraq sonralar türklərə monqolların özlərindən daha çox təsir etmişdir.

* * *

Bu mətn türk xalqlarının erkən tarixi və mədəniyyətinin öyrənilməsində mənbə probleminə diqqət çəkən ümumiləşdirici-elmi yanaşmanı əks etdirir. Müəllif vurğulayır ki, türklər tarixi proseslərin böyük hissəsində öz dillərində sistemli yazılı tarix yaratmadıqları üçün onların keçmişinin tədqiqi yalnız türkologiya ilə məhdudlaşa bilməz; sinologiya, iranşünaslıq və ərəbşünaslıq kimi sahələrin paralel istifadəsi zəruridir. Xüsusilə Orxon kitabələrinin əsas ilkin mənbə kimi göstərilməsi, lakin onların oxunuş və şərhinin hələ tam yekunlaşmaması, erkən türk tarixinə dair qəti nəticələr çıxarmağın elmi baxımdan problemli olduğunu göstərir. Mətn Çin, ərəb və digər xarici yazılı mənbələrin son dərəcə istifadəsinin vacibliyini ön plana çəkir və bu mənbələrdəki məlumatların çox vaxt müəlliflərin öz dövrlərinə deyil, daha əvvəlki mərhələlərə aid olduğunu qeyd edir. Bu kontekstdə Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" əsəri Orta Asiya türkləri haqqında birbaşa müşahidəyə əsaslanan nadir və etibarlı mənbə kimi qiymətləndirilir. Eyni zamanda, mətn etnoqenez və dil tarixi məsələlərinə toxunaraq çuvaş dili ilə hunlar arasında mümkün əlaqələri, həmçinin qırğızların mənşəyi kimi mübahisəli problemləri qabardır. Arxeoloji tapıntıların (P.K. Kozlov ekspedisiyası nümunəsində) xronoloji təyinatındakı çətinliklər isə maddi mədəniyyətin tarixləndirilməsində metodoloji problemləri göstərir. Mətnin son hissəsində islamın türklər arasında yayılması məsələsi mədəni və irqi amillərdən asılı olmayan ümumdini proses kimi təqdim edilir; Osmanlı ədəbi dilinin XIV əsrdə müsəlman dünyasında üçüncü böyük ədəbi dilə çevrilməsi isə bu prosesin mədəni nəticəsi kimi izah olunur. Monqol hakimiyyəti dövründə islamın türklər arasında geniş yayılması və monqol köçəri ənənələrinin sonrakı türk siyasi-mədəni formalaşmasına təsiri də ümumi tarixi kontekst daxilində dəyərləndirilir.



*Nadir MƏMMƏDLİ,*
*AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru,*
*filologiya elmləri doktoru, professor*

**Professor Borozdinin məruzəsi**
**(Şərqşünaslıq Cəmiyyətinin üzvü)**

Professor Borozdin göstərir ki, Şuralar İttifaqında türk xalqlarının keçməsi lazımınca və müfəssəl öyrənilməmişdir. Xüsusən mükəmməl olmayan abidə və yazıları boşluğunu doldurmaq üçün mühüm olan maddi mədəniyyət abidələri bi nöqsana malikdir.

Xəzər, bulqar, Orta Asiya və Azərbaycan türk xalqlarının mədəni abidələri ilə tanış olmağın böyük əhəmiyyəti vardır.

Professor Xəzər və bulqar abidələrinin hələ lazımınca öyrənilmədiyini göstərərək, qeyd edir ki, yalnız son zaman Oktyabr dövründən sonra Ədiboyunda və Krımda tatar mədəniyyətini öyrənmək üçün bəzi arxeoloji qazıntılar icra edilmişdir. Bu qazıntılar tatar mədəniyyəti inkişafı xüsusunda elmdə hakim olan bir çox boşboğazlığı məhv etdi.

Təbii olaraq XIII və XIV əsrin tatarlarını fabrik və zavod sənayenin və buxar yanacaq sisteminin tərəqqi etmiş XX əsr insanları kimi təsvir etmək olmaz. Bununla bərabər, biz bir çox mədəni ünsürlər və mədəni təsirlər görürüz ki, nəticə etibarilə Altun Ordanın (Золотая Орда) mədəniyyətini təşkil edir.

Sonra profesor Krım hökumətinin tapşırığı ilə Soltahda icra edilən qazıntılar üzərində müfəssəl surətdə duraraq, nəticədə Türkoloji Qurultay Şərqçilik Cəmiyyəti və Krım Cümhuriyyəti adından Soltahda tapılan qədim abidələrin təsviri albomunu təqdim etdi. Sonra professor Borozdin gələcək Türkoloji qurultaylarda bir çox bu kimi albomların olacağına və türk xalqının istər arxeoloji, istər arxeoqrafik ekspedisiyalar şəklində keçmişin iqtisadi, ictimai və mədəni quruluşunu öyrənmək üçün bu işi davam etdirəcəyinə ümid etmişdir. Borozdinin son sözləri: Yaşasın azad Şərq! Yaşasın böyük mədəni işlərə yol verən və yardım edən Şuralar İttifaqı! Bu sözlər sürəkli alqışlarla qarşılanmışdır.

Bu məsələ üzrə professor Messaroş və Kursin məruzədə bulundular.

Türklər haqqında antropoloji və etnoqrafi kitablar azdır. Təsadüfi olanları isə qiymətsizdir. Poleontoloji tədqiqatlar hənüz başlanğıc haldadır. Türk mədəniyyətini öyrənmək üçün onun nəzəri şəkillərini göz önünə gətirmək və buna görə də ayrı-ayrı olan yaşayış ünsürlərinin coğrafi nöqteyi-nəzərindən yayılması və bizim etniki qrup dediyimiz bioloji vahidini təşkil edən amilləri öyrənmək lazımdır.

Ancaq bunları öyrəndikdən sonra biz tədqiqi lazım gələn fənni məsələləri meydana qoya bilərik. Fəqət o zaman türk xalqlarının qrup və məntəqələri əsarətləri və təbiyyəti haqqında bir şey deyə bilərız.

Məruzəçi öz sözünü insan cəmiyyətlərinin biolojisini qəti öyrənmək yolunda müvəffəqiyyətlər diləyərək, bəşəriyyətin mədəniyyətindəki təkamülü göstərib, diletantlıqdan (sənaye, nəfs və ya başqa bir şeyə həvəskarlıq) doğru müəyyən fənni tətəbbö və tədqiqə keçmək zamanı yetişdiyini söyləmişdir.

* * *

Mətn professor Borozdinin çıxışı əsasında Sovet dövründə türk xalqlarının tarixi-mədəni keçmişinin yetərincə və sistemli şəkildə öyrənilmədiyi fikrini ön plana çıxarır. Xüsusilə yazılı mənbələrin və epiqrafik abidələrin natamamlığı fonunda maddi mədəniyyət nümunələrinin əsas tamamlayıcı mənbə kimi çıxış etməli olduğu vurğulansa da, bu sahədə aparılan tədqiqatların da metodoloji və faktoloji boşluqlarla müşayiət olunduğu qeyd edilir. Bu yanaşma türk tarixinin yalnız mətn əsaslı deyil, arxeoloji və arxeoqrafik materiallar vasitəsilə kompleks şəkildə araşdırılmasının zəruriliyini göstərir. Xəzər, Bulqar, Krım, Orta Asiya və Azərbaycan türklərinə aid mədəni abidələrin öyrənilməsi məsələsi xüsusi əhəmiyyət kəsb edir. Borozdin Xəzər və Bulqar abidələrinin uzun müddət elmi diqqətdən kənarda qaldığını, yalnız Oktyabr inqilabından sonra Krım və Volqaboyu bölgələrində aparılan arxeoloji qazıntıların tatar mədəniyyəti haqqında elmdə mövcud olan stereotip və qeyri-elmi təsəvvürləri təkzib etdiyini bildirir. Altun Orda mədəniyyətinin sənaye dövrü meyarları ilə deyil, tarixi-mədəni kontekst daxilində dəyərləndirilməli olduğu fikri isə tarixi anaxronizmin tənqidinə yönəlmişdir.

Mətn, eyni zamanda, türkoloji tədqiqatların gələcəyinə dair optimist ideoloji fikir təqdim edir: Soltahda aparılan qazıntıların nəticələrinin Türkoloji Qurultaya albom şəklində təqdim edilməsi, gələcəkdə bu tip arxeoloji və arxeoqrafik ekspedisiyaların davam etdiriləcəyinə dair ümidlər Sovet elmi-siyasi diskursu ilə uzlaşdırılır. Borozdinin yekun şüarları mətndə elmi fəaliyyətin ideoloji legitimləşdirilməsi funksiyasını daşıyır. Son hissədə antropoloji, etnoqrafik və paleontoloji tədqiqatların zəif inkişafı vurğulanır və türk xalqlarının etnogenezi, mədəni strukturu və sosial təşkilatlanmasının yalnız bioloji, coğrafi və mədəni amillərin kompleks şəkildə öyrənilməsi əsasında dərk edilə biləcəyi qeyd olunur. Məruzəçi elmi diletantlıqdan uzaqlaşıb sistemli və metodoloji cəhətdən əsaslandırılmış tədqiqata keçidin zəruriliyini bildirərək, türkoloji araşdırmaların gələcək istiqamətlərinə konseptual formaya salır.

**Doyçen Ubeydulinin məruzəsi**
**(Azərbaycan Darülfünunun doçenti)**

Sonra yoldaş Übeydulin türk-tatar xalqlarının indiki vəziyyəti və onların tarixinin öyrənilməsi üçün gələcək vasitələr haqqında məruzədə bulunmuşdur. Məruzəçi türk-tatar xalqının keçmişinin türk-tatar alimləri tərəfindən Avropa metodu üzrə öyrənməyə XIX əsrdə başlandığını qeyd edərək, 1905-ci il inqilabının türk xalqları üçün böyük əhəmiyyəti olduğunu göstərir. Bu inqilabdan sonra Rusiyadakı türk xalqlarının məktəb və mədrəsə proqramına milli tarix dərsi keçilmişdi. Oktyabr inqilabı isə bu məsələyə daha böyük əhəmiyyət verdi. Türk-tatar xalqları istiqlaliyyət qazanaraq, qohum və ya qonşu xalqları öyrənmək lüzumunu hiss etdilər. Bundan sonra ölkənin və xalqın tarixi xalq və hökumət məktəblərində qəti dərs şəklini aldı. Nəhayət, türk-tatar xalqları və məmləkətinin tarixi yeni açılmış ali məktəblərində özünə yer tapdı və buraya da bir çox türk-tatar alimləri cəlb olundu.

Oktyabr dövründə türk-tatar tarixi ədəbiyyatı yeni əsaslar meydana atdı. Hərgah türk alimləri bu vaxta qədər orta dövrü öyrənməklə məşğul idilərsə, oktyabrdan etibarən başlıca olaraq yeni dövrü öyrənməyə başladılar.

Son illərdə türk-tatar alimlərinin tarixini öyrənmək hərəkatı olduqca irəliləmişdisə də, bunların çoxu avamxas şəkildədir, bu da müəllimlərin elmi xalqa yaxınlaşdırmaq arzusu və xüsusi hazırlanmış şəxslərin olmamasından irəli gəlir.

* * *

Mətn Ubeydulinin məruzəsi əsasında türk-tatar xalqlarının tarixi şüurunun formalaşması və bu tarixin öyrənilmə mexanizmlərinin müntəzəm inkişaf mərhələlərini əks etdirir. Müəllif XIX əsrdən etibarən türk-tatar alimlərinin öz keçmişlərini Avropa elmi metodologiyası əsasında tədqiq etməyə başlamasını türk tarixşünaslığında keyfiyyətcə yeni mərhələ kimi təqdim edir. 1905-ci il inqilabının milli oyanış prosesində xüsusi rolu vurğulanaraq, bu dövrdən sonra türk xalqlarının məktəb və mədrəsə proqramlarında milli tarix fənninin yer alması mühüm nailiyyət kimi qiymətləndirilir.

Oktyabr inqilabı isə mətnə görə, türk-tatar tarixşünaslığının məzmun legitimliyini daha da gücləndirmiş, milli istiqlaliyyət ideyasının formalaşması ilə yanaşı, qohum və qonşu xalqların tarixinin öyrənilməsinə ehtiyac yaratmışdır. Bu proses nəticəsində türk-tatar tarixinin xalq və dövlət məktəblərində sistemli fənnə çevrilməsi, ali təhsil müəssisələrində isə ayrıca elmi istiqamət kimi təşəkkül tapması göstərilir. Xüsusilə türk-tatar mənşəli alimlərin ali məktəblərə cəlb edilməsi milli tarixşünaslığın kadr bazasının formalaşması baxımından əhəmiyyətli hesab olunur.

Mətn, həmçinin Oktyabr inqilabı dövründə türk-tatar tarixi ədəbiyyatının tematik istiqamətinin dəyişdiyini qeyd edir: əvvəlki mərhələdə əsasən orta əsrlərin tədqiqinə yönəlmiş araşdırmaların yerini yeni dövr tarixinin öyrənilməsi tutur. Bununla belə, müəllif son illərdə müşahidə olunan canlanmaya baxmayaraq, aparılan tədqiqatların bir hissəsinin elmi baxımdan yetərincə dərin olmadığını, bunun isə kütləvilik, maarifçilik məqsədi və peşəkar hazırlıqlı mütəxəssislərin çatışmazlığı ilə əlaqəli olduğunu vurğulayır. Bu tənqid türk-tatar tarixşünaslığında metodoloji yetkinlik probleminin mövcudluğunu göstərir.

**Professor Kursinin məruzəsi**
**(Macarıstan nümayəndəsi)**

Türk xalqlarının etnoqrafi vəziyyəti haqqında Kursin maraqlı bir məruzədə bulunur.

Qafqaziya və Zaqafqaziyanın əksəriyyətini təşkil edən türk xalqları öz yaşayışı və mədəniyyəti ilə pək müxtəlif şəkillərdədir. Öz çoxluğuna və iqtisadi, siyasi həyatda böyük rol oynamalarına baxmayaraq, onlar etnoqrafi nöqteyi-nəzərindən, yəni ki, həyat, ənənə, adətlər, antropoloji, dialektoloji xüsusiyyəti və qeyri-tərəfdən hənuz tədqiqi edilməmişdir. Doğrusu, sosializm təsərrüfat və siyasi quruluş üçün etnoqrafi tədqiqat elmcə, həm də əməli cəhətdən əhəmiyyətlidir.

Bütün Qafqaz xalqlarının etnoqrafisi tətəbbö və tədqiqat üçün ən əvvəlcə bu barədə indiyə qədər nə edildiyini bilmək lazımdır. Buna görə də Kafkaziya xalqlarının etnoqrafiyasını bildirən və öyrədən ədəbiyyat və kitabların biblioqrafi kataloqu düzəldilməlidir. Ondan sonra ərəb, İran, Türkiyə, Avropa müəlliflərinin və sair mənbələrdən Kafkaziyanın türk xalqları haqqında verilən məlumatı bir araya toplayaraq, ayrıca əsərlər təb etdirməlidir. Axırda isə "Kafkaziyanın tük xalqlarının etnolojisi haqqındakı materialları" ya bizdə, yaxud parça-parça çap və ya intisar etməli.

Türk xalqlarını sistematik halda tətəbbö və tədqiq üçün Bakıda etnoloji şöbəsi olmaqla bərabər, bir tədqiqat institutu təşkil etmək lazımdır.

Kafkaziyanın türk xalqlarını öyrənmək üçün Bakıda mərkəzi bir mətbuat orqanı tərtib edib, orada isə etnoloji mahiyyətində olan məsələlər başlıca mövqe tutmalıdırlar.

Kafkaziyadakı türk xalqlarını öyrənmək üçün Bakıda bir muze yaratmalı və yaxud müvəqqəti olaraq Azərbaycan Dövlət muzesi yanında bu məsələyə aid bir şöbə təşkil etməli.

Bakı Dövlət Darülfünununda Kafkaziya türk xalqlarını öyrənmək üçün etnoloji disiplin tədrisini qüvvətləndirməlidir.

* * *

Mətn Kursinin məruzəsi əsasında Qafqazda və Zaqafqaziyada yaşayan türk xalqlarının etnoqrafik vəziyyətinin elmi baxımdan yetərincə araşdırılmadığını ortaya qoyur. Müəllif vurğulayır ki, bu xalqlar say etibarilə çoxluq təşkil etmələrinə və regionun iqtisadi-siyasi həyatında mühüm rol oynamalarına baxmayaraq, onların yaşayış tərzi, ənənə və adətləri, antropoloji, dialektoloji və mədəni xüsusiyyətləri sistemli şəkildə tədqiq olunmamışdır. Etnoqrafik araşdırmaların sosialist təsərrüfat və siyasi quruluşun elmi əsaslandırılması baxımından həm nəzəri, həm də praktik əhəmiyyət daşıdığı xüsusi olaraq qeyd edilir.

Məruzədə metodoloji baxımdan mərhələli tədqiqat proqramı təklif edilir: əvvəlcə mövcud ədəbiyyatın və araşdırmaların vəziyyətinin müəyyənləşdirilməsi, bu məqsədlə Qafqaziya xalqlarının etnoqrafiyasına dair biblioqrafik kataloqun hazırlanması zəruri hesab olunur. Ardınca ərəb, fars, türk və Avropa müəlliflərinin mənbələrində yer alan məlumatların toplanaraq sistemləşdirilməsi və ayrıca nəşrlər şəklində çap edilməsi təklif edilir. Bu yanaşma mənbəşünaslıq və müqayisəli etnologiya prinsiplərinə əsaslanır.

Kursinin təkliflərində quruculuq mühüm yer tutur: Bakıda etnoloji şöbəsi olan xüsusi tədqiqat institutunun yaradılması, mərkəzi elmi mətbuat orqanının təşkili, türk xalqlarına həsr olunmuş muzey və ya muzey şöbəsinin formalaşdırılması, eləcə də Bakı Dövlət Darülfünununda etnologiya fənninin gücləndirilməsi zəruri tədbirlər kimi irəli sürülür. Bu təkliflər Qafqaz türklərinin etnoqrafiyasının təsadüfi müşahidələrdən çıxarılaraq sistemli və elmi əsaslı tədqiqat sahəsinə çevrilməsini hədəfləyir.

*(ardı var)*

*Təqvim yada salır*

# Zəfər yürüşünün aynası– Hərbi Qənimətlər Parkı



**Şəhəri gəzərkən, ilk növbədə, geniş küçələri, meydanları diqqətimizi cəlb edir, muzey, park və abidələri hər birimizdə maraq oyadır. Tarixin yaddaşı isə muzeyin daş divarları arasında qorunan eksponatlarda, vitrində dayanan bir qılıncda, saralmış, köhnə məktubda, ya da bir əsgərdən xatirə qalan geyimdə yaşayır. Aprelin 12-də yaradılmasının 5 ili tamam olan Hərbi Qənimətlər Parkında isə tarix başqa cür yaşayır. Orada külək ağacların yarpaqları ilə keçmişin izlərini oxşayır. Xalqımızın keçdiyi Zəfər yolu burada əzəmətli mənzərə kimi canlanır.**

Döyüş meydanından gətirilən hər bir qənimət – silah, ağır texnika şanlı Zəfərimizin sözlə ifadə olunmayan canlı sübutu, müstəqil dövlətimizin qüdrətinin, müzəffər ordumuzun şücaətinin rəmzidir. Hərbi Qənimətlər Parkı xalqımızın qəhrəmanlıq salnaməsinin tarixə həkk olunmuş səhifəsidir.

Vətən müharibəsi zamanı xalq və dövlət bir yumruq kimi birləşdi, "Dəmir yumruq" milli ruhda da formalaşdı. 44 günlük Vətən müharibəsində hər kəs bir cəbhədə döyüşürdü: əsgərlər səngərdə, analar duaları ilə onların yanında, gənc nəsil informasiya mübarizəsində... Və bu birliyin sayəsində xalqımız əsrlərə şahidlik edəcək tarix yazdı.

Parkda addımladıqca qəlbimizi qürur, şücaət, kədər, minnətdarlıq, sözlərlə ifadə edilməsi mümkün olmayan hisslər bürüyür. Bu park qəhrəmanlığı nümayiş etdirir. Çünki burada sərgilənən tanklar, zirehli maşınlar, artilleriya qurğuları bir zamanlar düşmənin güc simvolu idi. Bu gün isə onların məğlubiyyətin səssiz şahidləridir. Hər kəsə həqiqəti söyləyir: bu Zəfər asan qazanılmayıb.

**Övladları ilə birgə parkı ziyarətə gələn Leyla Həsənova deyir ki, Hərbi Qənimətlər Parkı gələcək nəsillərin qürur mənbəyi, yurd sevgisi məktəbidir:**

–Bu, baxaraq öyrənilən, hiss edərək dərk olunan həqiqətdir. Uşaqlar parkda gəzərkən onlara danışıram ki, mərd oğullarımız torpaq uğrunda necə mübarizə aparıb, canlarını fəda ediblər. Onları Parka gətirməzdən əvvəl, açığı, düşünürdüm ki, bu tarixi həqiqəti necə anladım? Bura gələndə isə bir daha əmin ol-



dum ki, bütün bunları gözlə gördükdə daha yaxşı qavranılır. Övladlarım hər şeyə maraqla baxır, tankları, texnikaları diqqətlə incələyirlər. Amma mən hər addımda dayanıb izah edirəm ki, bu gördükləriniz bir zamanlar bizə qarşı istifadə olunub.

Burada sərgilənən hər bir qənimətə baxanda insan dərk edir ki, qələbə asan qazanılmayıb. Bəzən uşaqlar suallar verir ki, bunları necə əldə etmişik? Mən də cavab verirəm ki, iradə, birlik və inamla...

**Məktəbli Röya Həsənova ordumuzun "ovladığı" tanklara baxaraq dillənir:**

–Hərbi Qənimətlər Parkında tanklara, böyük maşınlara baxanda bir az qorxuram. Elə bil ki, hərəkət etsə, qarşısında heç nə dayana bilməz. Amma sonra fikirləşirəm ki, bizim əsgərlərimiz bu tankları vurublar, onları dayandırıblar, ələ keçiriblər. Onlar necə qorxmayıblar?

Müəllimim deyir ki, əsgərlər Vətənini o qədər sevir ki, qarşılarına nə çıxırsa çıxsın, qorxularını unudurlar. Bu tankların qarşısında dayananda o sözlərin nə demək olduğunu anlayıram. Deməli, Vətən sevgisi hər şeydən böyükdür.

Vətən müharibəsi haqqında biz dərsdə də öyrənirik, televizorda da görmüşük. Amma buradakı kimi hiss etməmişdim. Bu park mənə kinolardakı döyüş səhnələrini xatırladır. Burada dayananda gözlərimi yumub



xəyal etməyə çalışıram ki, görəsən həmin an nə baş verirdi? Əsgərlər necə yaxınlaşırdı? Səslər necə eşidilirdi? Anam deyir ki, bütün bunlar insandan cəsarət tələb edir. Öz-özümə deyirəm ki, tank görəndə daha qorxmayacağam, düşünəcəyəm ki, əsgərlərimiz bu tankların qarşısında mərdliklə dayanıb, qalib gəliblər.

**Kiçik ziyarətçi Murad Mənsurlu isə söyləyir ki, o da böyüyəndə əsgər olacaq:**

– Buradakı tankları görəndə həm təəccübləndim, həm də bir az qorxdum. Onlar çox böyükdür, nəhəng robot kimidirlər. Böyüyəndə mən də torpaqlarımızı qoruyacam. Müəllimim deyir ki, əsgər həm güclü, həm də ağıllı olmalıdır. Ona görə də mən dərslərimi yaxşı oxuyuram.

Vətən müharibəsi haqqında bizə çox danışıblar, deyirlər ki, əsgərlərimiz qorxmadan döyüşüblər və torpaqlarımızı azad ediblər. Mən də istəyirəm ki, onlar kimi cəsur olum.

Parkda gəzə-gəzə fikirləşirəm ki, bu tank bir vaxtlar döyüş meydanında olub, özümü bir anlıq orda hiss etdim. Bu çox maraqlıdır. Artıq qərar vermişəm ki, böyüyəndə əsgər olum, Vətənimi qoruyum. İstəyirəm ki, gələcəkdə haqqında danışılan əsgərlərdən biri olum, başqa uşaqlar da məni tanısınlar.

**Cavidan Məmmədov qeyd edir ki, Vətən müharibəsi dövründə könüllü əsgər getmək üçün yaşı çatmırdı:**

–Mən bu park açılanda da gəlmişdim. O gün necə hiss etmişdimsə, indi də eyni hissləri yaşayıram, bəlkə də daha dərindən. Hərbi Qənimətlər Parkına hər dəfə gəldikcə qürur duyuram.

O günləri yaxşı xatırlayıram. Televizor qarşısında saatlarla xəbərləri izləyirdik. Ailəmə deyirdim ki, kaş, yaşım çataydı, mən də əsgər gedərdim. Çox istəyirdim ki, mərd oğullarımızla çiyin-çiyinə vuruşum. Bəlkə də o vaxt bu hisslərin dərinliyini tam anlaya bilmirdim. Amma indi gəlib bu qənimətlərin qarşısında dayananda başa düşürəm ki, o istək haradan gəlirmiş. Bu, Vətən sevgisidir.



Bu, torpağa bağlılıq, özünü bu millətin bir parçası hiss etməkdir.

Buradakı texnikalara baxanda bir zamanlar bunların bizə qarşı istifadə olunduğunu düşünürəm. Bu tanklar, silahlar torpaqlarımızı işğal altında saxlamaq üçün gətirilmişdi. Amma bu gün onlar burada səssiz, hərəkətsiz dayanır. Bu mənzərə insana çox şey deyir, anlayırsan ki, necə böyük bir qələbə qazanılıb. Əsgərlərimiz bu qələbəni asanlıqla əldə etməyiblər. Min bir əziyyətlə, çətin şəraitdə döyüşüblər. Bəziləri geri qayıtmayıb... Ona görə də onların borcu heç zaman ödənməz.

**Əsgərlikdən yaxın aylarda qayıtdığını deyən Toğrul Teymurov bildirir ki, xidmətə getməzdən əvvəl müharibə haqqında müəyyən təsəvvürləri var idi:**

– Televiziyada gördüklərim, eşitdiklərim, oxuduqlarım hər biri fərqli hiss yaşadırdı. Hərbi hissədə olduğum zaman başa düşdüm ki, müharibə tamamilə başqa bir reallıqdır. Orada hər şey daha ciddi, məsuliyyətli və ağırdır. Xidmət etdiyim müddətdə gerçəkləri daha yaxşı dərk etdim, anladım ki, düşmənlə üz-üzə gəlmək böyük iradə, dözüm və cəsarət tələb edir. Bəzən bir addım belə nəyisə dəyişir. Amma Azərbaycan əsgəri bu çətinliyin öhdəsindən gəlməyi bacarır. Çünki onun qəlbində Vətən sevgisi var.

Hərbi Qənimətlər Parkına gələndə xidmət günlərimi xatırlayıram. Bu park mənim üçün gördüklərimin, öyrəndiklərimin canlı təsdiqidir. Burada nümayiş olunan qənimətlərə baxanda qələbənin nə qədər böyük zəhmət və əziyyət hesabına əldə olunduğunu görürük. Hərbi hissədə olduğumuz vaxtlarda belə bu park haqqında çox danışılırdı. Əsgərlər arasında bu parkın adı xüsusi qürurla çəkilirdi. Hətta səngərdə bu barədə söhbətlər olurdu. Deyirdik ki, orada bizim Zəfərimizin sübutları sərgilənir. Bu, bizə motivasiya verirdi.



Hərbi Qənimətlər Parkı Azərbaycanın Zəfərini bütün dünyaya göstərir. Bu, həm də bir mesajdır – Azərbaycan əsgəri öz torpağını qorumaq uğrunda canından keçməyə hazırdır və bunu sübut edib. Azərbaycanın qazandığı Zəfər tarixin yaddaşına qızıl hərflərlə yazılmış milli qürur səhifəsidir. Bu qələbə illərlə formalaşan iradənin, sarsılmaz inamın və bir xalqın öz torpağına sahib çıxmaq əzminin nəticəsidir.

Vətən müharibəsi zamanı düşmənin 522 yük maşınının qənimət kimi götürülməsi hərbi gücün, düzgün strategiyanın və cəsarətin göstəricisidir. Hər bir qənimət düşmənə verilən cavab, eksponatlar isə Azərbaycan əsgərinin gücünü dünyaya göstərən mesajdır. Qarabağ Azərbaycandır!

***Ləman TƏHMƏZ***
***XQ***

# Şəhid milli qəhrəman yad edilib





**Sabirabad Rayon Mədəniyyət Mərkəzində Azərbaycanın Milli Qəhrəmanı, 2016-cı il Aprel döyüşlərinin şəhidi Murad Mirzəyevin anadan olmasının 50 illiyinə həsr olunmuş anım mərasimi keçirilib.**

Sabirabad Rayon İcra Hakimiyyətinin və Mil-Muğan Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən mərasimdə rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, ərazi nümayəndələri, bələdiyyə sədrləri, idarə, müəssisə və təşkilatların kollektivləri, şəhid ailələri, müharibə əlilləri və veteranları, mədəniyyət işçiləri, ictimaiyyətin və gənclərin nümayəndələri iştirak ediblər.

Mil-Muğan Regional Mədəniyyət İdarəsinin rəisi Nadir Quliyev rayonun Muğan Gəncəli kəndindən anadan olan Murad Mirzəyevin şərəfli həyat və döyüş yolundan geniş bəhs edərək onun göstərdiyi igidlik və qəhrəmanlığın gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsi olduğunu bildirib. Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarov vurğulayıb ki, vətən uğrunda canından keçən igid oğullarımızın xatirəsi hər zaman uca tutulur, onların göstərdiyi şücaət xalqımızın yaddaşında əbədi yaşayır.

Mərasim çərçivəsində Murad Mirzəyevin həyat və qəhrəmanlıq yoluna həsr olunmuş "Tarixin səhifələri" adlı kitabın təqdimatı keçirilib. Kitabın müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, yazıçı-şairə Mülәmail Murad şəhidin Aprel döyüşlərində göstərdiyi misilsiz şücaətlərindən bəhs edib.

Milli Qəhrəmanın atası Telman Mirzəyev oğlunun xatirəsinə göstərilən diqqət və ehtirama görə dövlət başçısına minnətdarlığını bildirib.

Sonda Milli Qəhrəmanın həyat və döyüş yolundan bəhs edən "Komandir" sənədli filmi nümayiş olunub.

***Mikayıl NƏRİMANOĞLU,***
***XQ-nin bölgə müxbiri***

*12 Aprel Aviasiya və Kosmonavtika Günüdür*

**Hər il 12 aprel dünya tarixində mühüm bir mərhələnin rəmzi kimi qeyd olunur. 1961-ci il aprelin 12-də sovet kosmonavtı Yuri Qaqarinin kosmosa uçuşu yeni bir tarixin başlanğıcı olmuşdu. Həmin gün insanın ilk dəfə kosmosa uçmasının ildönümü və elm, texnologiya, cəsarət və kəşf ruhunun təntənəsi kimi qəbul edilir.**

# Kainata açılan qapı

## *Azərbaycan beynəlxalq kosmik ailənin fəal üzvüdür*

Aviasiya və kosmonavtika sahəsi bu gün sürətlə inkişaf edir. Müasir dövrdə beynəlxalq qurumlar yeni texnologiyaların köməyi ilə kosmosun daha dərindən öyrənilməsinə çalışırlar. Ay və Mars missiyaları, peyk texnologiyalarının inkişafı, kosmik turizm ideyaları bu sahənin gələcək perspektivlərini daha da genişləndirir. Ölkəmizdə kosmik sahədə Azərkosmos vasitəsilə həyata keçirilən peyk layihələri Azərbaycanın qlobal kosmik sənayedə yerini möhkəmləndirir.



**Azərkosmosun Peyk və peyk əməliyyatları departamentinin rəhbəri Rüstəm Allahverdiyev** XQ-yə bildirdi ki, ötən əsrin 70-ci illərində kosmonavtika sahəsində mühüm nailiyyətlər əldə edilmiş, ilk kosmonavtlar nəsli formalaşmış, Yerin və yerətrafı fəzanın tədqiqi ilə bağlı çoxsaylı müşahidələr aparılmışdı. Həmin dövrdə dünyada Yerin təbii ehtiyatlarının və ətraf mühitin vəziyyətinin kosmik vasitələrlə daha operativ və qlobal miqyasda öyrənilməsi məsələləri ön plana çəkilirdi.

Ölkəmiz də dövrün yeniliklərindən geri qalmırdı. Kosmik məsələlər 1973-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Bakıda keçirilən Beynəlxalq Astronavtika Konqresində müzakirə edildi. Qlobal konqresə ev sahibliyi edərək Azərbaycan dünya miqyasında sənaye və elmi bazanı təkmilləşdirmək üçün kosmik elm tədqiqatçılarının "elit klubu"na daxil olmağa hazır olduğu mesajını verdi.

Məhz həmin konqresdən sonra Milli Elmlər Akademiyasında kosmik elm və mühəndislik üzrə yeni istiqamətlər formalaşdırıldı, Şamaxı Rəsədxanası Mars,





Venera və digər kosmik cisimlərin öyrənilməsində iştirak etdi. 1987-ci ildə Azərbaycanda anadan olmuş ilk astronavt Musa Manarov Sovet kosmik proqramı çərçivəsində kosmosa uçdu və kosmonavtika tarixində ikinci ən uzunmüddətli (365 gün 23 saat) kosmik uçuşu həyata keçirdi.

Müstəqil Azərbaycanın müasir kosmik yolu 2008-ci ildən start götürdü.

Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində ölkəmizdə kosmik sahənin inkişafına xüsusi diqqət ayrıldı. Kifayət qədər kompleks texnoloji xüsusiyyətləri özündə ehtiva edən peyklər bir-birinin ardınca orbitə çıxarıldı. Azərbaycanın ilk peyki olan Azerspace-1-in 2013-cü ildə orbitə buraxılması ilə ölkəmizin kosmik sənayesində yeni mərhələ başladı. Daha sonra 2014-cü ildə Yerin məsafədən müşahidə peyki Azersky, 2018-ci ildə isə Azerspace-2 uğurla orbitə çıxarıldı. Bu peyklərin istifadəyə verilməsi kosmik sahədə insan kapitalının formalaşmasının əsasını qoydu.

Peykləri idarə etmək, həmçinin mühəndislik, infrastruktur, biznes və bazar təhlili, xidmət və həllər, beynəlxalq kosmik hüququn tələbləri, rəqəmsal həllər, rabitə xidmətləri, peyk məlumatları və süni intellekt həlləri üzrə ixtisaslaşdıq. Yeni nəsil kosmik sahə üzrə mütəxəssislər yetişdirdik və bu davamlı prosesdir.

Bu il Agentlik artıq 15 illik fəaliyyətini qeyd edir. Bu müddət ərzində ölkəmiz kosmik sənayenin formalaşmasına töhfə verərək qlobal kosmik xəritədə etibarlı tərəfdaş kimi tanınıb. Azərkosmos Azərbaycanın və regionun ilk peyk operatoru olaraq ölkəmizin texnoloji və iqtisadi inkişafında strateji əhəmiyyətə malikdir.

Hazırda Azərbaycanın peykləri digər dövlətlərə də xidmət göstərir. Peyklərimiz Afrika, Avropa və Mərkəzi Asiyanı əhatə edən geniş coğrafiyada telekommunikasiya, yayım və internet xidmətləri təqdim edir. Yerin məsafədən müşahidəsi xidmətləri vasitəsilə kənd təsərrüfatı, ətraf mühitin mühafizəsi, fövqəladə halların idarə olunması, hasilat sənayesi, nəqliyyat və yol infrastrukturu, müdafiə və təhlükəsizlik, turizm, xəritəçəkmə və şəhərsalma, meliorasiya və su təsərrüfatı, dövlət əmlakının idarə olunması və kadastr sahələrində innovativ layihələr həyata keçirilir.

Artıq Azərbaycan 48 ölkədən biri olaraq öz kosmik resurslarına malikdir və müəyyən tezliklər üzrə orbital mövqeyə sahibdir. İstənilən zaman 46° şərq uzunluğunda orbitə peyk çıxara bilər. Peyk xidmətləri ilə yanaşı, kosmik sahədə intellektual məhsulların ixracına da başlanılıb.

Müsahibimiz qeyd etdi ki, yerli kosmik ekosistemin inkişafı yolunda ən mühüm təşəbbüslərdən biri KOSMİK Akademiyadır. Azərbaycanda kosmik texnologiyalar sahəsində istedadlı gənclərin yetişdirilməsi üçün bir sıra önəmli təşəbbüslər həyata keçirilmişdir. Xüsusilə Azərkosmosun bu sahədəki fəaliyyəti regionda kosmik ekosistemin formalaşmasına və inkişafına mühüm töhfə verir. 2021-ci ildən etibarən, bu fəaliyyətlərə daha strukturlaşdırılmış yanaşma tətbiq etdik və KOSMİK Akademiya fəaliyyətə başladı. Qısa müddət ərzində təşəbbüs minlərlə məktəbli, tələbə və gəncləri birləşdirən bir mərkəzə çevrildi. 2024-cü ildə irəli sürülən bu təşəbbüs artıq özünü iddialı layihələrdə doğruldur.

Azərkosmosun KOSMİK Akademiyasının təşkilatçılığı və Braziliya Kosmik Agentliyinin dəstəyi ilə həyata keçirilən "Azərbaycan Milli Peyk İnnovasiya Müsabiqəsi" çərçivəsində 7-9-cu sinif şagirdlərinin hazırladığı "PocketQube" – kiçik ölçülü "Azərbaycanın Zəfəri" peyki 28 noyabr 2025-ci ildə SpaceX raketi ilə orbitə buraxıldı.

Dünya kosmik ailəsinin üzvü olmaq və bu sahədə etibarlı tərəfdaş kimi tanınmaq ölkəmizə qlobal kosmik tədbirlərə ev sahibliyi etmək imkanı verir. Ötən il 24–25 aprel tarixlərində keçirilən Kosmik Texnologiyalar Konfransına ev sahibliyi etdik. Konfrans çərçivəsində Türk Dövlətləri Təşkilatına üzv ölkələrin kosmik qurum rəhbərlərinin növbəti görüşü təşkil olundu. Sayca dördüncü olan bu görüşdə kosmik sahədə birgə layihələrin həyata keçirilməsi müzakirə edildi. Tədbirin Azərbaycanda keçirilməsi ölkəmizin kosmik sahədə texnologiyaların vacib rolunu vurğulamaqla yanaşı, bu sahədə innovasiyaların və tədqiqatların təşviqində regional mövqeyimizi gücləndirmək üçün imkan yaradacaq.

Konfrans kosmos sahəsində 35 ölkədən 112 təşkilatı təmsil edən 400-dən çox iştirakçını bir araya gətirdi. Bakı "STC-2025" konfransına Yaxın Şərq, Avropa, Asiya, Şimali və Cənubi Amerika, eləcə də Afrikadan iştirakçılar qatıldı. Artıq dördüncü dəfə keçirilən "STC" konfransında kosmik agentliklərin liderləri, dövlət sektoru və özəl kosmik şirkətlərin nümayəndələri, investorlar, yerli və beynəlxalq media qurumlarının təmsilçiləri iştirak etdilər. Kosmik Texnologiyalar Konfransı Avrasiya regionunda kosmik sahənin perspektivlərinin müzakirəsi və dialoqu, eləcə də uzunmüddətli tərəfdaşlıqların qurulması üçün tanınmış platformadır. Məqsədimiz regional əməkdaşlığı daha da gücləndirməkdir. Azersky-2 proqramı üzrə işlər davam edir. Yeni telekommunikasiya proqramımız və Azerspace-3 adlı yeni peykin orbitə buraxılması istiqamətində fəaliyyətlər aparılır.

Bir sözlə, Azərbaycanın kosmik sahədə nailiyyətləri artıq beynəlxalq səviyyədə tanınır. Peyklərimiz vasitəsilə geniş çeşidli xidmətlər təqdim olunur, kadrların inkişafı və milli kosmik ekosistemin gücləndirilməsi ölkəmizin texnoloji inkişaf səviyyəsini göstərir. Azərbaycan kosmik texnologiyalarda strateji yanaşma tətbiq edərək həm daxili ehtiyaclarını qarşılayır, həm də qlobal kosmik bazarda mövqeyini möhkəmləndirir.

***Mustafa KAMAL***
***XQ***

*Yeni nəşrlər*

# İrəvanda Azərbaycan məktəbi

**Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra tariximizin xüsusi məqsədlərlə təhrif olunmuş və inkar edilmiş, saxtalaşdırılmış, üstüörtülü qalmış səhifələrinin, məqamlarının saf-çürük edilməsi üçün yeni imkanlar yarandı. Bu gün Qərbi Azərbaycan həqiqətlərinin yeni elmi yanaşmalar əsasında dərindən və əhatəli şəkildə araşdırılmasına, tarixi gerçəkliklərin aşkara çıxarılıb geniş elmi ictimaiyyətə təqdim olunmasına həmişəkindən daha çox ehtiyac var.**




Cənubi Qafqaz Rusiya tərəfindən işğal edilənədək Azərbaycanın aparıcı elm və mədəniyyət mərkəzlərindən olan İrəvan şəhərində milli təhsil irsimizin araşdırılıb dəyərləndirməsi elmi aktuallıq kəsb etməklə yanaşı, həm də geostrateji gerçəklər baxımından strateji zərurətdir. Qərbi Azərbaycanşünas alim, İrəvanda milli təhsil tariximizin tanınmış ilk peşəkar tədqiqatçısı, filologiya üzrə fəlsəfə doktoru, dosent Cəlal Allahverdiyevin böyük zəhmət hesabına ərsəyə gətirdiyi "İrəvanda Azərbaycan təhsil tarixi" adlı fundamental əsəri həm də siyasi-strateji əhəmiyyətə malikdir.

Cəlal Allahverdiyev 2000-ci illərdən başlayaraq İrəvan ədəbi-mədəni mühiti ilə bağlı ardıcıl və sistemli tədqiqatlar aparmış, "İrəvan ədəbi mühiti" (2010), "İrəvan pedaqoji məktəbi" (2015), "İrəvan. Ensiklopedik foto toplu" (2017), "İrəvanda milli maarifçilik mühiti" (2017), "Ömrün illəri" (2021), "İrəvan Müəllimlər Seminariyası" (2022) və digər əsərlərində milli təhsil irsimizlə bağlı faktları, mütləq həqiqəti qələmə almışdır.

Kitab "İrəvanda Azərbaycan təhsilinin inkişaf mərhələləri" ilə başlayır. Müəllif qədim tarixə, zəngin mədəniyyətə və ədəbi irsə malik olan İrəvan şəhərində təhsilin çox-çox əzəllərdən təşəkkül tapdığını, xalqımızın dövrün xüsusiyyətlərinə uyğun tədris ocaqları yaratdığını qeyd edir. Tədqiqatçı məscid, mədrəsə və camelərdə milli-mənəvi dəyərlərin yetişən gənc nəslə aşılanması işində yeganə vasitə olan bu tədris-təlim ocaqları haqqında tarixi məlumatları sistemləşdirmişdir.

Kitabda müxtəlif dövrlərdə İrəvanda yaşayıb-yaratmış Mirzə Abbas Məhəmmədzadə, Axund Məhəmmədbağır Qazızadə, Mirzə Hüseyn Həsənzadə İrəvani, Axund Əbdülhəsən Qazızadə, Cəfər bəy Cəfərbəyov, İsfəndiyar bəy Sultanov, Mirməhəmməd Mirfətullayev, Mustafa Rəcəbov, Mehdi Kazımov, Mirzə Əbdülsəttar Kazımov, Yusif Heydərzadə, Bülbül Kazımova, Kərim bəy İsmayılov, Əkbər Rzayev, Tərlan xanım Sultanova, Həqiqət Abbasova, Fərrux Rzayev və başqa tanınmış maarif xadimləri haqqında məlumatlar onların pedaqoji və elmi fəaliyyətləri ilə bağlı geniş təsəvvür formalaşdırır.

Tədqiqatda Rusiyanın Cənubi Qafqazı işğal etdikdən sonra İrəvanda ilk qəza məktəbinin, İrəvan progimnaziyasının, İrəvan Oğlanlar Gimnaziyasının, İrəvan şəhər ibtidai məktəbinin, İrəvan rus-Azərbaycan (tatar) məktəbinin yaranması, inkişafı və bu təhsil ocaqlarında şagird kontingentinin milli tərkibi, azərbaycanlı müəllimlər və sair məsələlər haqqında məlumatlar arxiv sənədləri əsasında təqdim edilir. İrəvan Müəllimlər Seminariyasının nəinki Qərbi Azərbaycanda, o cümlədən Cənubi Qafqazda milli pedaqoji fikrin inkişafındakı xidmətlərinə də geniş yer ayrılıb. XIX əsrin sonu XX əsrin əvvəllərində irəvanlı maarifçilər – Mirzə Ələkbər Elxanov, Mirzə Hüseyn Həsənzadə İrəvani, Mirzə Abbas Məhəmmədzadə, Mirzə Cabbar Məmmədzadə, Axund Məhəmmədbağır Qazızadə, Həsən bəy Qazıyev ana dili dərsliklərinin yazılmasında və milli maarifçiliyimizin inkişafında böyük xidmətlər göstərmişlər.

Müəllif İrəvanda qadın təhsili və azərbaycanlı xanım ziyalıların maarif və mədəniyyət tariximizdəki rolunu, onların maarifçilik missiyasını diqqətlə nəzərdən keçirmiş, İrəvanda yaşayıb-yaradan azərbaycanlı maarifpərvər qadınların təhsil sahəsindəki nəcib xidmətlərini və onların ictimai fəallıqlarını geniş şəkildə diqqətə çatdırmışdır. Cənubi Qafqazda azərbaycanlı qızlar məktəbinin 1862-ci ildə məhz ilk dəfə İrəvanın yaxınlığındakı Uluxanlıda açıldığını faktlar əsasında üzə çıxarmışdır.

Kitabda ali və orta ixtisas təhsilli milli pedaqoji kadrlar hazırlayan İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinin, İrəvan Dövlət Qiyabi Pedaqoji İnstitutunun, İrəvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan şöbəsinin tarixinin araşdırılması fonunda həm də dövrün ictimai-siyasi mənzərəsi özünəməxsus çalarları ilə öz əksini tapır. Bu təhsil ocaqlarında təhsil almış ixtisaslı kadrların Qərbi Azərbaycanda milli maarifçilik tarixində, ictimai-siyasi həyatında, pedaqoji və ictimai fikrin inkişafında ayrı-ayrı sahələrdəki fəaliyyətləri haqqında verilmiş məlumatlar da təqdirəlayiqdir.

Bir məsələni də qeyd etmək yerinə düşər ki, müəllif tədqiq etdiyi mövzu ilə bağlı həmin dövrə aid yaddaşlarda olanlardan, xatirələrdən indiyədək təhsil tariximizə məlum olmayan sənədlərdən, fotoşəkillərdən istifadə etməklə əsərinin elmi sanbalını daha da artırmışdır.

Kitabın sonuncu bölməsi ermənilərin Qərbi Azərbaycanda milli təhsilimizə qarşı həyata keçirdikləri urbisid aktları barədədir. Burada ermənilərin milli təhsilimizə qarşı törətdikləri sosial-mənəvi terror aktları ardıcıllıqla sadalanır və bütün çalarları ilə təsvir olunur. Müəllif bu bölmənin sonunda "İrəvanda təhsil tarixi"mizlə bağlı fikirlərini bu sözlərlə yekunlaşdırır: "Biz əminik ki, yenə də öz tarixi və əzəli yurd yerlərimizə qayıdıb, vaxtilə o fədakar maarifçilərimizin, müəllimlərimizin Qərbi Azərbaycanda milli maarifçilik mühitində yandırdığı maarif şöləsini yenidən alovlandıracağıq".

Kitab Vətənə, xalqa dərin məhəbbətin təzahürüdür. 20-yə qədər kitabın, 1 dərsliyin və 2 dərs vəsaitinin, 300-ə qədər elmi-publisistik məqalənin müəllifi, 4 kitabın tərtibçisi, bir sıra kitabların redaktoru və rəyçisi, İrəvanda milli maarifçilik mühitinin peşəkar araşdırmaçısı Cəlal Allahverdiyevin "İrəvanda Azərbaycan təhsili tarixi" kitabı bütövlükdə Azərbaycan təhsil tarixinə dəyərli töhfədir.

***Almaz ÜLVİ,***
***filologiya elmləri doktoru, professor,***
***Qərbi Azərbaycan İcması Qadınlar Şurasının sədr müavini***

*Yaddaşlarda yaşayanlar*

# "Səhər"dən "Bulaq" səsi gəlmişdi

## *Yaxud hər görəndə anamı xatırladığım qadın*

**Məhluqə Sadıqovanı bir neçə dəfə öz verilişimə – dövlət radiosunun Xəbərlər baş redaksiyasının "Səhər" musiqili informasiya proqramına dəvət etmişdim. Hər dəfə "vaxt olsa gələrəm" və ya "o barədə sonra danışarıq" kimi bəhanələrlə əlimi boşda qoymuşdu. Düşünürdüm ki, bu bəhanələrin təməlində onun haqqında Rafael Hüseynov, Məmməd Aslan, İntiqam Mehdizadə, Tahir Talıblı kimi tanınmış qələm sahiblərinin hazırladıqları materiallar dayanır. Yəqin radioda o qədər də təcrübəsi olmayan bir əməkdaşa müsahibə vermək istəmir.**





Qərəz, bir gün radionun proqram baş redaksiyasının direktoru, mərhum Zöhrab Zeynalov dedi ki, qardaşım Fərhadın (o zamankı Azərbaycan Dövlət Universitetinin professoru, görkəmli türkoloq Fərhad Zeynalovu nəzərdə tuturdu) işlədiyi kollektivin texniki işçilərindən birinin oğlu şəhid olub. Qardaşım xahiş edir ki, həmin şəhid haqqında radioda veriliş hazırlansın. Mən də səni nəzərdə tutub dedim, baş üstə. Həmin süjeti hazırla, sonra mən də sənin hansısa xahişini yerinə yetirərəm.

Süjeti hazırladım, efirə getdi və Zöhrab müəllim bəyəndiyini söylədi. Elə həmin an ondan xahiş etdim ki, Məhluqə xanımın mənim verilişimə gəlməsinə kömək etsin. "Baş üstə" dedi və həmin müqtədir sənətkarın verilişimə gəlməsini təmin etdi.

…Səsyazma studiyasındakı ilk arqumentim, təxminən, belə olmuşdu: "Hörmətli dinləyicilər, Xalq artisti Məhluqə xanım Sadıqovanın təqdim edilməsinə ehtiyac yoxdur. Ölkədə onun səsinə, sənətinə heyran olmayan tapılmaz. Ancaq öz atamı təqdim etməyə ehtiyac hiss edirəm. Atam – sadə bir kənd adamı 20 ildən çoxdur ki, "Bulaq" verilişinin heç bir sayını ötürmür. Toyda və ya yasda olsa belə, özünü həmin verilişədək evə çatdırır. Üstəlik, radioda çalışdığım 3 ilə yaxın müddətdə tez-tez məndən soruşur ki, "Bulaq" verilişini aparan qadının həyatdakı səsi, söhbəti də elədirmi?"

Bütün bunları deyəndən sonra əlavə etdim ki, Məhluqə xanım, sizə xüsusi bir sualımız yoxdur. Amma "Bulaq" verilişinin yaranması, buraya gəlməyiniz, həmin efir əsərinə 20 illik sədaqətiniz barədə eşitmək istərdik.

Məhluqə xanım "O vaxtlar…" – deyə söhbətə başladı və mən 10 illər boyu heyranı olduğum səsi eşitdikcə, sanki, "uyuyurdum". 5 dəqiqə üçün nəzərdə tutulmuş lent yazısının 10 dəqiqəyə başa çatdığını bilmədim.

Veriliş efirə gedəndən sonra əməkdaşımız Zərxanım Əhmədli eyhamla gülərək dedi: "Səhər"dən "Bulaq" səsi gəlirdi. Ancaq Məhluqə xanımın söhbətin əvvəlində dediyi fikir səni necə tutmuşdusa, sual verə bilmədin".

Xatırladım ki, Məhluqə xanım mənim səsimin bu qəbildən olan verilişlər üçün uğurlu olduğunu demişdi və həmin an mən özümü, sanki, "Oskar" mükafatı almış kimi hiss etmişdim.

Allah o böyük sənətkara rəhmət eləsin! Aprelin 28-də onun 119-cu ad günüdür.

***İ.QAÇAYEV***

*Ramiz Həsənoğlu – 80*

**Dövrümüzün görkəmli rejissoru, Xalq artisti, Əməkdar incəsənət xadimi Ramiz Həsənoğlu (Mirzəyev) ilə 40 ildir ki, tanışam. Uca boyu, sənətkar əzəməti, Azərbaycan mədəniyyətinə danılmaz xidmətləri, başlıcası isə səmimiyyəti ilə bütün televiziya və teatr cameəsində böyük hörmət-izzət qazanıb.**

Ramiz Həsənoğlu 1946-cı il aprel ayının 13-də İrəvanda doğulub. Onun 2 yaşı olanda deportasiyaya məruz qalan ailəsi Gəncəyə köçüb. Yeniyetmə çağlarından isə taleyi Bakıya bağlanıb. Orta məktəbi burada bitirib və Azərbaycan Dövlət Teatr İnstitutunun mədəni-maarif fakültəsinin qiyabi şöbəsinə daxil olub. Bir ara zavodda fəhləlik edib. 1966-cı ildən milli televiziyada Fikrət Qaradağlının köməyi ilə rejissor assistenti işləməyə başlayıb. Ağaəli Dadaşov, Rauf Kazımovski, Arif Babayev, Kamil Rüstəmbəyov, Həbibə Məmmədxanlı kimi görkəmli sənətkarlardan görüb-götürüb. Ən müxtəlif janrlar üzrə təcrübə qazanıb. Müsabiqə yolu ilə qəbul olunduğu Sankt-Peterburq Dövlət Teatr, Musiqi və Kinematoqrafiya Akademiyasını 1978-ci ildə uğurla başa vurub. Sonrakı məhsuldar onilliklərini də televiziyaya, teatra həsr edib. Daim dinamik yaradıcı mühitdə olduğu üçün özünü bəxtigətirənlərdən sayır.

# Bir ömrün 60 illik "teleserial"ı

## *"Sənət yalnız meydan və rəqabət olan yerdə qabağa gedə bilər"*



...Bu yazıya başlamazdan öncə AzTV-nin "Sabah" studiyasında çalışan dostum Seymur Şahbazzadəyə zəng edib Ramiz Həsənoğlunun hazırda hansı layihə üzərində işlədiyini soruşdum. Dedi ki, ustad düz 60 illik yaradıcılıq fəaliyyətindən sonra artıq istirahətə çıxıb. AzTV-də struktur yenilənməsi ilə əlaqədar "Sabah", "Telefilm" və "Kino" studiyaları birləşdirilir. Təbii ki, orada Ramiz müəllimin yaradıcılıq ideyalarını gerçəkləşdirməsi üçün həmişə "yaşıl işıq" yanacaq.

Əlbəttə, bundan sonra da onun, necə deyərlər, dinc oturmayacağını bilirəm. Çünki daim işıq kimi parlayan, işıq olan rejissor Ramiz Həsənoğlu kölgədə qalanlardan deyil. Ana televiziyamızda çalışdığım illərdə onunla sənət barədə "atüstü" söhbətlərim çox olub və televiziya rejissorluğunu adi bir peşədən sənət səviyyəsinə yüksəltmək üçün göstərdiyi səylərə, yaradıcılıq yanğısına heyran qalmışam. Teatrşünas, Əməkdar incəsənət xadimi Aydın Talıbzadə də görkəmli rejissorun həmin keyfiyyətlərini onun haqqında yazdığı "Ustad və ayna: ruhun, çinarın, telefonun ekran estetikası" adlı monoqrafiyada hərtərəfli təqdir edib. Kitabda Ramiz Həsənoğlunun çəkdiyi teletamaşalar və telefilmlər zamanın, dövrün mahiyyətini açan bir kod kimi təqdim olunub.

...2023-cü ilin bir payız günü Ramiz Həsənoğlunu "Xalq qəzeti"nin "XalqTV" studiyasına dəvət etmişdim. Deyilən vaxtda gəldi və milli kinomuzun 120, özünün rəhbərlik etdiyi "Sabah" Yaradıcılıq Birliyinin 30 illiyi ilə bağlı maraqlı müsahibə alındı. Söhbət zamanı ona dedim ki, qayğı göstərdiyiniz gənclərin yaradıcılığında kiçicik işıq ucu göründümü, siz onu geniş tamaşaçı kütləsinə çatdırmaq üçün "lağım"ı qayğı ilə böyütmüsünüz. Özünüz də zəngin yaradıcılıq yolunuzla daim nümunə olmusunuz. Filmotekanızda 200-dən çox film var. Sonrakı nəsillər "Nekroloq", "Fatehlərin divanı", "Qatarda", "Yaşıl eynəkli adam" kimi tamaşalara baxa-baxa estetik zövqlərini inkişaf etdiriblər. Möhürünü vurduğunuz əsərlər – "Topal Teymur", "Günahsız Abdulla", "Ordan-burdan", "Evləri köndələn yar"... saymaqla bitən deyil. Cavabı belə oldu:

– Ardıcıllar yetişdirmək vacib şərtdir. "Sabah"ın təşəkkülünün çətin dövrü idi, texniki işlər çox vaxt aparırdı. Hətta rejissorluğu bir kənara qoyub, prodüserliklə, təşkilatçılıqla məşğul olduğumu görən bəstəkar dostum Cavanşir Quliyev bir gün mənə dedi ki, ay Ramiz, sən rejissorsan, tamaşa hazırlamalısan, amma özünü vermisən təşkilati işlərə. Bunun axırı necə olacaq? Düz deyirsən, – dedim, – ancaq mən hələlik istedadlar üçün meydan yaradıram, sonra yaxşı olacaq. Sənət isə yalnız meydan və rəqabət olan yerdə qabağa gedə bilər. Və zaman göstərdi ki, mən haqlıyam.

Həmin müsahibədə Ramiz müəllimə verdiyim bir sualı və cavabını da yada salmaq yerinə düşər.

– "Siz böyük sənətkarlarımız – Əməkdar mədəniyyət işçisi Həsənağa Mirzəyevlə unudulmaz teatr və kino aktrisası, Əməkdar artist Ətayə Əliyevanın övladı və sənət davamçısısınız. Sizin sənətkarlığınızın bir qaynağı da ailə ocağıdır. Belə mühitdən kənarda böyümüş, amma bu sahəni seçən, sevən gənclərə nə tövsiyə edərdiniz?

– Heç kəs anadangəlmə peşəkar olmur. Sənət addım-addım, pillə-pillə yol getməkdir, bilikləri toplamaq, daxilən zənginləşmək, zövqun püxtələşməsidir. Budur, sənətin yolu. Heç şübhəsiz, mütaliə və dünyagörüşünü artırmaq da şərtdir. Sənətkarlarla ünsiyyət, lazım olan filmlərə baxmaq, kitabları oxumaq, lazım olmayanlardan qaçmaq vacib şərtlərdir. Mənim sənətə gəlməyimdə, təbii ki, ailəmin, valideynlərimin təsiri olub, amma ustadlarımın rolu danılmazdır. Bunlar vaxtilə Azərbaycan televiziyasının rejissurasının əsasını qoyan insanlar idi. Gənclər ustad sənətkarlardan daim öyrənməyə can atsalar, yaxşı olar".

Hər bir insan özü öz həyatının rejissorudur, – deyən Ramiz Həsənoğlu Rüstəm İbrahimbəyovun ssenarisi əsasında çəkdiyi "Ailə" bədii filminə görə 2000-ci ildə Moskvada keçirilən Avrasiya festivalının baş mükafatına layiq görülüb. Televiziya işlərindən başqa, canlı teatr sahəsində də gücünü sınayıb. Musiqili Komediya Teatrında "Məzəli əhvalat" və Milli Akademik Dram Teatrında "Brüsseldən məktublar"a uğurlu quruluş verib.

Ömrünün 80-ci ilinin zirvəsinə çatan, bir vaxtlar gur olan qara saçları indi dağ qarını xatırladan Ramiz Həsənoğlunun yubileyi ərəfəsində yada salmalı xidmətləri həddindən çoxdur. Elə "Qobustan" incəsənət toplusunun ona həsr olunmuş son nömrəsini vərəqləmək yetər ki, necə qənimət sənətçi olduğu bir daha görünsün. Toplunun baş redaktoru, fəlsəfə doktoru, yazıçı Pərvin Nurəliyeva qələmi ilə Ramiz Həsənoğlunun portret cizgilərini çox gözəl çəkib.

"Ədəbiyyat" qəzetinin şöbə müdiri, filologiya elmləri doktoru, Milli Məclisin deputatı Elnarə Akimova da yubilyarla bağlı özəl duyğularını sevə-sevə ifadə edib. "R.Həsənoğlunu digər rejissorlardan ayıran cəhət təbiətindəki poetiklik, ədəbiyyatı sevən ruha sahib olmasıdır. Ona görə klişe dramaturji fəndlərdən imtina edərək özünün estetik dalğasına güvəndi. Bu cəhət onda tamaşaçıya intellektual emosiya ötürməsində, onun birbaşa şüuruna, düşüncələrinə təsir etməsində rol oynadı. Anar, R.İbrahimbəyov, R.Rövşən, V.İbrahimoğlu, C.Quliyev və başqa sənət xadimləri ilə R.Həsənoğlu arasındakı qarşılıqlı münasibətlər rejissor üçün yaratdığı əsərlərə yeni baxış, traktovka sərgiləmək baxımından arsenal olsa da, bu gün onun adı ilə bağlı yüksək materiyalı işlərin dayaqlandığı müstəvinin poeziya olması da nəzərdən qaçmır".

Göründüyü kimi, Ramiz Həsənoğlu bir sənətkar kimi çox dəqiq xarakterizə edilir. Bu mənalı iqtibasdan sonra bizə o qalır ki, qısaca deyək:

– Ramiz müəllim, yubileyiniz mübarək! Sizə daha mənalı və uzun ömür arzulayırıq!

***Əli NƏCƏFXANLI***
***XQ***

*Zəfər yolçuları*

# Xocavənd dağlarında 7 oğulun qəhrəmanlıq dastanı

## *O zaman düşmən öz döyüşçülərini onlara bənzəməyə çağırmışdı*

**Aprelin 10-da İkinci Fəxri xiyabanda 1997-ci ilin aprel ayında Xocavənd istiqamətində icra olunan xüsusi döyüş tapşırığı zamanı düşmənlə qeyri-bərabər döyüşdə misilsiz qəhrəmanlıq göstərərək şəhid olmuş kəşfiyyatçılarımızın xatirəsinə həsr edilən anım mərasimi keçirildi. Bu, hərb tarixində silinməz izlər qoyan, fədakarlığı ilə xalqın yaddaşında əbədiləşən cəsur oğullarımızın ruhuna ehtiramın ən ali ifadəsi kimi yadda qaldı.**



1997-ci il aprelin 7-də cəbhənin Xocavənd rayonu istiqamətində düşmən arxasına keçən 8 nəfər – leytenantlar Elxan Ağayev və Vüqar Yarəhmədov, çavuşlar Anar Rzayev, Dinar Mustafayev, Aqşin Həsənov, Nizami Ələkbərov, Fariz Cavadov və Aqil Əhmədov Füzuli rayonunun Horadiz istiqamətindən təmas xəttini keçir və təxminən 40–50 kilometr yol qət etməklə döyüş tapşırığını yerinə yetirirlər. Azərbaycanın xüsusi təyinatlı kəşfiyyatçı qrupu döyüş tapşırığını yerinə yetirdikləri üçüncü gün mühasirəyə düşür.

Ermənistan silahlı birləşmələri ilə qeyri-bərabər döyüşə girən qrupun 1 üzvü ağır yaralanır. Silahdaşlarından 1 nəfərin həlak olduğunu zənn edən digər 7 nəfər döyüş sursatları tükəndiyindən düşmənin əlinə sağ keçməmək üçün qumbara ilə özlərini partladırlar. Huşsuz vəziyyətdə əsir götürülən kəşfiyyatçı isə 23 aylıq əsirlikdən sonra ulu öndər Heydər Əliyevin sayəsində Beynəlxalq Qırmızı Xaç Komitəsinin vasitəçiliyilə geri qaytarılır.

8 nəfər polad iradəli oğul – hər biri bir ananın son ümidi, hər biri bir evin çırağı olan igidlər ölümün gözünə dik baxarkən, əslində, bizə ölməzliyin nə olduğunu öyrətdilər. Düşmənin “təslim ol!” nidasını, əsir düşmək zillətini şəhadət şərbəti ilə dəf etdilər. Dumanlı Xocavənd dağlarını titrədən bu oğullar millətin qeyrətini canlarından üstün tutdular.

Üç gün–üç gecə o dağlarda zaman dondu, sanki, təbiət də bu azadlıq və ölüm savaşını izləməyə başladı. Xocavəndin sıldırım qayaları, dumanlı dərələri o ana qədər belə igidliyə şahidlik etməmişdi. Hər tərəfdən keçilməz mühasirəyə alınmış, sayca cəmi 8 nəfər olan kəşfiyyatçıların üzərinə bütöv ordu, ağır texnika və ölüm saçan silahlar yeridilsə də, onlar ac-susuz, iliyə işləyən soyuğun kəsdiyi o daşlıqlarda sanki ətdən və qandan deyil, poladdan yoğrulmuş dirəniş göstərdilər.

Mərmiləri tükənəndə, qalan son güllənin səsi dağlarda əks-səda verib kəsiləndə düşmən qələbə çaldığını zənn edirdi. Amma bilmirdilər ki, Azərbaycan əsgəri üçün qələbə şərəfini son nəfəsinə qədər qorumaqdır. Onlar keçmişin intiqamı və gələcəyin ümidi ilə böyüyən mərd oğullar idilər.

Bu səbəbdən sursatın bitməsi sonun başlanğıcı deyil, əbədiyyətə atılan ilk addım oldu. Hər birinin qəlbindəki sarsılmaz inam sıldırım qayaların əzəməti ilə birləşərək düşmənin canına lərzə saldı. Onlar şəhadəti ali məqam kimi qarşıladılar. Güllələr susanda başlayan ağır sükut tarixin yaddaşına qızıl hərflərlə yazılacaq qəhrəmanlıq dastanı oldu.

İllər keçsə də, baxışlarındakı kədərli qürur ifadəsi zərrə qədər solmayan, hər kəlməsində nisgilin ağrısı hiss olunan polkovnik Xətai Baxışov da anım mərasimində iştirak edirdi. Onun simasında həm rəhbərlik etdiyi əsgərlərin itkisindən doğan ata nisgili, həm də sarsılmaz qəhrəmanlığın şahidi olmağın vüqarı vardı.

**Polkovnik bildirdi ki, bu kəşfiyyat qruplarının icra etdiyi döyüş tapşırıqları ordumuzun qürur məsələsi idi:**



–Həmin günlərin ağırlığını və o qəhrəmanlığın miqyasını təsvir etməyə bəzən kəlmələr aciz qalır. O zamanlar Müdafiə Nazirliyinin tabeliyində olan xüsusi təyinatlı hərbi hissənin fəaliyyəti tamamilə məxfi saxlanılırdı. Əməliyyatın strateji məqsədləri barədə bu gün belə danışmaq qadağandır.

Biz xüsusi texniki qurğular vasitəsilə düşmənin radio danışıqlarını izləyirdik. Qeydə alınan hər cümlə kəşfiyyatçılarımızın göstərdiyi igidliklərdən xəbər verirdi. Gündə üç dəfə Müdafiə Nazirliyinə məruzə edərdim. Alınan məlumatlar sübut edirdi ki, kəşfiyyatçılarımız düşmənə sarsıdıcı zərbələr endirirlər.

Erməni komandanlığı öz əsgərlərinə Azərbaycan kəşfiyyatçısını nümunə göstərmiş, onları xüsusi ehtiramla dəfn etmişdi. Sonradan Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə mənə çatdırılan o dəhşətli şəkillərə baxanda ürəyim parça-parça oldu. Onların sinələri elə açılmışdı ki, sanki, qan rəngli qərənfil ləçəkləri vətən torpağına səpələnmişdi.

Həmin qanlı döyüşdən ağır yaralı və huşsuz halda əsir götürülən çavuş Aqil birinci qrup Qarabağ əlilidir. Erməni polkovniki onun gözlərindəki qətiyyəti, ölümü gülərüzlə qarşılayan iradəni görəndə heyrətini gizlədə bilməmişdi. O, Aqilin qarşısında dayanıb, bəlkə də həyatında ilk dəfə gördüyü bu mənəvi ucalığı anlamağa çalışaraq soruşmuşdu: “Sizi o torpaqlarda, analar necə böyüdürlər ki, bu şirin canınızı vətən naminə qurban verməyə bir an belə tərəddüd etmirsiniz? Necə olur ki, əsarətin zillətindənsə, şəhadətin ağrısını, ölümü bu qədər təmkinlə seçirsiniz?”

Bu, düşmənin Azərbaycan əsgərinin ruhu qarşısında acizliyinin etirafı idi. Həmin igidlərin göstərdikləri misilsiz fədakarlıq yağı düşməndə elə bir sarsıntı yaratmışdı ki, erməni komandanlığı öz əsgərlərində döyüş ruhunu dirçəltmək üçün başqa yol tapa bilmirdi. Onlar bizim 7 şəhid kəşfiyyatçımızın məzarı başında öz əsgərlərinə andiçmə mərasimi keçirirdilər. Bəli, onlar öz gənclərinə qəhrəmanlıq dərsi vermək üçün məhz bizim şəhidlərin müqəddəs ruhuna pənah aparmışdılar. Düşmən anlayırdı ki, məzarı üzərində and içiləcək qədər uca olan bu ruhun qarşısında heç bir qüvvə duruş gətirə bilməz.

**Kəşfiyyat qrupunun o müdhiş gecədən sağ çıxan yeganə şahidi, ömrünü vətən yolunda fəda etmiş çavuş Aqil Əhmədov gözlərindəki sönməz alovla qəhrəman silahdaşlarının xatirəsini bir daha canlandıraraq söylədi:**



–Biz millətimiz, müqəddəs torpağımız və şanlı bayrağımız naminə canımızdan keçməyə hazır idik və həmin gün bunu sübut etdik. O qanlı döyüşdə mən ağır yaralandım, şəhadət şərəfi mənə nəsib olmadı. Uzun müddət bunun ağrısını qəlbimdə daşıdım. Sonradan məlum oldu ki, yağı gülləsi ürəyimlə ciyərimin tam yaxınlığından keçibmiş. Huşumu itirməzdən əvvəl dağları lərzəyə gətirən partlayış səsini eşitdim.

Əsarətdə olduğum günlərdə ermənilərdən öyrəndim ki, 7 döyüş qardaşım eyni anda, bir-birinə sarılaraq özlərini əl qumbarası ilə partladıblar. 1 il 11 ay o cəhənnəm əzabına sinə gərdim və nəhayət, ümummilli lider Heydər Əliyevin sarsılmaz iradəsi və misilsiz səyləri nəticəsində yenidən vətənə qovuşdum. Bu gün qəlbim, bir az da olsa, təskinlik tapır. Çünki illər sonra qardaşlarımın qanı yerdə qalmadı, intiqamımız layiqincə alındı. Artıq əminəm ki, Xocavənd dağlarında canını qurban verən 7 igidin ruhu şaddır.

Kəşfiyyat qrupunun fədailəri arasında bir taleyin dərdi daha ağır, daha nisgilli idi. Qrupun ailəli olan yeganə üzvü Vüqar Yarəhmədov şəhadət şərbətini içəndə arxasında gözüyaşlı ömür-gün yoldaşı və atasının ölümündən sonra dünyaya gələcək can qoyub getmişdi. Onun əbədiyyətə qovuşmasından cəmi iki ay sonra dünyaya gələn körpəyə atasının adını verdilər. Adı ilə bərabər, atasının vüqarını, mətanətini və vətən sevdalı ruhunu da miras alan kiçik Vüqar böyüdükcə daxilindəki o qəhrəmanlıq çağırışına biganə qala bilmədi.

İllər sonra Vüqar atasının yarımçıq qalan izini tamamlamağa qərar verdi. Anasının və nənəsinin onsuz da illərdir kədərdən yorulmuş ürəyinə yenidən təşviş salmamaq üçün onlardan gizli, xəbərsiz könüllü olaraq kəşfiyyat qrupuna yazıldı. Taleyin hikmətinə bax ki, atası kəşfiyyatçı kimi tarix yazmışdı, oğlu isə o tarixin davamçısı olmaq üçün eyni yola baş qoydu. O, atasının üzünü heç vaxt görməsə də, ləyaqətini çiyinlərində daşıyır.

Qəhrəmanlıq sonradan seçilən tale deyil, ruhun əzəldən gələn harayı, yaradılış qayəsidir. Elə insanlar var ki, onlar dünyaya göz açdıqları andan şəhadət və zəfər eşqi ilə nəfəs alırlar.

**Bu tarixi döyüşün qəhrəmanlarından olan şəhid Vüqar Yarəhmədovun anası Elza Yarəhmədova ilə həmsöhbət olduq. Elza ana oğlunun uşaqlıq illərindən, vətən sevgisindən və keçdiyi şərəfli ömür yolundan bəhs etdi:**



–Atam İkinci Dünya müharibəsində kəşfiyyatçı olub. Həmişə müharibədən, tapşırıqları yerinə yetirməsindən danışırdı. Vüqar ona böyük maraqla qulaq asırdı və elə uşaqlıqdan hərbə böyük marağı yarandı, Vüqarın qəlbinə hərb sevdasını o salmışdı. Biz isə ailədə tək oğlan olduğu üçün onu hərbdən uzaqlaşdırmağa çalışırdıq. Hər ana istəyər ki, balası yanında olsun, təhlükədən uzaq dursun. Amma Vüqar bu peşənin vurğunu idi. Deyərdi ki, ana, kəşfiyyatçı 15 dəqiqənin içində tapşırığı yerinə yetirib geri dönür, qayıda bilməsə, düşmən əlinə keçməmək üçün özünü məhv edir. Sanki Vüqarın ürəyinə dammışdı ki, onu belə bir tale gözləyir və buna görə də çox tələsirdi.

Bəlkə də özündən sonra bir yadigar qoyub getmək istəyirdi və ona görə də tez evləndi. Toyunda hərbi paltarda oturmaq istəyirdi, lakin onu fikrindən daşındıra bildik. Martın 30-da sonuncu dəfə görüşdük. Yola salanda xeyli Novruz şirniyyatı qoydum. Dedi ki, sən əməliyyat olunanda gələcəm. Aprelin 10-da mən əməliyyata getdim, Vüqar da şəhid oldu. Şəhid olanda qumbaranın halqası dişində idi.

Oğlumun şəhid xəbərini məndən bir aya yaxın gizlətdilər. Aprelin 19-da xəstəxana palatasında televizora baxırdım. Jurnalistlər Heydər Əliyevə şəhidlərlə bağlı sual verəndə o dedi ki, müharibə gedən dövlətdə şəhidlər olar. O cümlə elə bil ürəyimə ox kimi sancıldı. Yoldaşımdan soruşdum ki, Vüqar niyə gəlmir? Axı bilirdi anası əməliyyat olunacaq. Özümə yer tapa bilmirdim. Məni aldadıb deyirdilər ki, cəbhə bölgəsindədir, Şamaxıya, Xaçmaza gedib.

Vüqar əsgərlərini öz canından çox istəyirdi. Gedəndə deyirdi ki, ana, əgər sənə əziyyət deyilsə, çoxlu yeməklər bişir, mənim əsgərlərim sağlam qidalanmalıdır. Axırıncı gün atası ondan bir sözünün olub-olmadığını soruşanda yenə “Şamaxıya gedirik” deyib gizlətmişdi. Getməmişdən qabaq vağzaldakı ticarət mərkəzindən əsgərləri üçün hədiyyələr almışdı.

Hərbi ali məktəbdə oxuyanda Qafqazlı olduğu üçün ona söz atanların cavabını verdiyinə görə onu xaric etmişdilər. Atası deyirdi ki, bəlkə qismətdir, elə Rusiyada qalıb başqa işlə məşğul olasan. Amma Vüqar razı olmadı, Moskvadakı səfirliyə, hərbi attaşeyə qədər çıxdı və yenidən bu sənətə qayıtdı. O, məktəbin tarixində qovulub yenidən bərpa olunan ilk tələbə oldu. Qayıdandan sonra cəmi 7 ay cavan leytenant kimi işləyə bildi. Həmişə çox gülərüz, mehriban idi. Lətifə danışmağı, karikatura çəkməyi və şeir yazmağı çox sevirdi.

**Şəhid Dinar Mustafayevin bacısı Şəfəq xanım da ürəkparçalayan xatirələrini bizimlə bölüşdü:**



–Bizi o ağrılı gündən 29 il ayırır. Lakin zaman ağrını azaltmır. Biz onun yoxluğundan sonra anladıq ki, nəfəs almaq hələ yaşamaq deyilmiş. 20 illik qısa ömür sürsə də, Dinar zamana sığmayan əbədiyyət qazandı, öz canını Vətən torpağına qatdı.

Biz Qərbi Azərbaycandan, öz dədə-baba yurdumuzdan didərgin düşüb Şəmkirin Ələsgərli kəndində məskunlaşanda, o, yurd itkisinin acısını hələ uşaq ikən yaşamışdı. Bəlkə də buna görə idi ki, onda düşmənə qarşı nifrət və doğma torpağa bağlılıq on qat, yüz qat daha güclü idi.

Dinarın şəhadət xəbəri mənə hər kəsdən əvvəl, yuxumda əyan olmuşdu. O gecə yuxumda radionun səsini eşitdim, diktor həyəcanla xəbər verdi: “Füzuli uğrunda gedən ağır döyüşlərdə Mustafayev Dinar İbrahim oğlu qəhrəmancasına həlak oldu”. Elə bir nalə çəkib oyandım ki, hər kəs də mənimlə birgə yuxudan ayıldı. Anama yuxumu danışanda, “bala, qardaşına uzun ömür vermisən” desə də, qardaşım artıq şəhadət zirvəsinə ucalmışdı. Bütün qohum-əqraba bilsə də, bizə deməyə cəsarət etmirdilər.

Oktyabrın 6-sı idi. Dedilər ki, Dinar yaralanıb, onu Bakıya gətirirlər. Amma ürəyimə dammışdı, bu, yaralanmaq deyildi. O zülmət gecəni yol boyu necə keçdik, bir Allah bilir. Sumqayıta çatanda mən qardaşımın tabutdakı soyuq cismini gördüm. Dinar artıq şəhidlik zirvəsinə ucalmışdı.

Zaman keçsə də ağrılar dinmir. Lakin bu ağrılar həm də azadlığımızın və mənəvi ucalığımızın bədəlidir. Şəhidlərimizin əziz xatirəsi qarşısında ehtiramla əyirik, onlar cismən aramızdan getsələr də, qoyub getdikləri şərəfli iz hər zaman yolumuzu işıqlandıracaq. İllərlə həsrətin dumanına bürünmüş o uca zirvələrdə artıq kədərin deyil, zəfərin mehi əsir. O gün 7 kəşfiyyatçımızın qanı ilə möhürlənən torpaqlarda bu gün biz artıq boynubükük deyil, alnıaçıq və qürurla addımlayırıq. Onların can qoyduğu, hər qarışını müqəddəs əmanət kimi qoruduğu torpaqlar indi azadlığın ən uca kürsüsüdür.

*Hazırladılar:*
***Fidan ƏLİYEVA,***
***Cavid QAÇAYEV (foto)***
***XQ***

# Türk rektor AMEA-da

**AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Türkiyənin Ərdəhan Universitetinin rektoru, professor Öztürk Emiroğlu ilə görüşüb.**



İsa Həbibbəyli görüş zamanı tarixi köklərə söykənən Azərbaycan ilə Türkiyə arasında mövcud dostluq, qardaşlıq münasibətlərinin bu gün çoxşaxəli xarakter daşıdığını vurğulayıb. Qeyd edib ki, bu münasibətlər tarixən formalaşmış ortaq dəyərlərə, mədəni bağlılığa, qarşılıqlı etimada əsaslanır və bu gün də bütün sahələr üzrə, xüsusilə elm və təhsil istiqamətində dinamik şəkildə inkişaf edir. Akademik İsa Həbibbəyli bu gün AMEA-nın qardaş ölkənin Elmlər Akademiyası (TÜBA), TÜBİTAK, Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumu kimi akademik təsisat və bir çox ali təhsil müəssisəsi ilə sıx əməkdaşlıq etdiyini söyləyib.

Öz növbəsində çıxış edən Ərdəhan Universitetinin rektoru Öztürk Emiroğlu rəhbərlik etdiyi ali təhsil müəssisəsinin fəaliyyəti, inkişaf strategiyası və beynəlxalq əlaqələri haqqında geniş məlumat verib. Rektor qeyd edib ki, universitetin əsas məqsədlərindən biri beynəlxalq əməkdaşlığı genişləndirmək və ortaq elmi layihələrin sayını artırmaqdır.

***Q.YUSİFOĞLU***
***XQ***

# “İrəvan” ansamblının musiqi töhfəsi





**Ötən günlərdə Beynəlxalq Muğam Mərkəzində İrəvan Xalq Çalğı Alətləri Ansamblının konserti olub.**

Kollektivin bədii rəhbəri, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru Maya Qafarova əvvəldə vurğulayıb ki, Qərbi Azərbaycan zəngin musiqi irsi, dərin mənəvi yaddaşı ilə əsrlərlə formalaşmış mədəniyyət dünyasıdır, burada səsləndirilən hər bir ifa isə yurda bağlılığının ifadəsidir.

Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, millət vəkili Əziz Ələkbərli qeyd edib ki, Qərbi Azərbaycan mədəni irsinin qorunması milli kimliyin yaşadılması baxımından xüsusi əhəmiyyət daşıyır. Musiqi bu günümüzü formalaşdıran, gələcəyə istiqamət verən mənəvi sütundur. Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədr müavini, millət vəkili Hikmət Babaoğlu musiqinin tarixi yaddaşı yaşadan və onu nəsildən-nəslə ötürən ən təsirli vasitələrdən biri olduğunu diqqətə çatdırıb.

Rəsmi hissədən sonra Qərbi Azərbaycan ədəbi mühitinin görkəmli nümayəndələrinin sözlərinə bəstələnmiş mahnılar səsləndirilib, milli musiqimizin zəngin çalarları tamaşaçılara duyğusal anlar yaşadıb.

VIII Muğam Televiziya Müsabiqəsinin laureatı Ülkər Abdullayeva, Elşad Həsənli, Mina Paşayeva, IX Muğam Televiziya Müsabiqəsinin diplomantı Yusif Cəfərbəyli, Ədilə Əliyeva, Əşrəf Bünyadzadə və Əməkdar artist Sevinc Sarıyeva vətənpərvərlik ruhu aşılayan muğam və mahnılar ifa ediblər.

***L.TƏHMƏZOVA***
***XQ***

## Ləğvetmə prosesində olan “AYNUR-119” ASC səhmdarlarının nəzərinə!

Ləğvetmə prosesində olan “Aynur-119” Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının 11 may 2026-cı il saat 15.00-da Bakı şəhəri, Salyan şosesi 2, bina 2, mənzil 19-20 ünvanında, 1-ci mərtəbədə növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

**1.** “AYNUR-119” ASC-nin ləğvetmə balansının təsdiqi.

**2.** “AYNUR-119” ASC-nin qalıq əmlakının iştirakçılar arasında bölünməsi planının təsdiqi.

**3.** “AYNUR-119” ASC-nin ləğvedicisinin qəbul etdiyi qərarların təsdiqi.

Yığıncaqda iştirak etmək vacibdir. Yığıncaqda iştirak edən şəxslər şəxsiyyət vəsiqələrini təqdim etməlidirlər. Səhmdar şəxsən iştirak edə bilmədiyi halda, onu təmsil edən şəxs müvafiq qaydada rəsmiləşdirilmiş etibarnamə əsasında iştirak edə bilər.

**Əlaqə telefonu:** +994 55-571-68-48 (Whatsapp).
**Email:** aynur.119@outlook.com
**Ləğvedici:** Kərimbəy Əlisa oğlu Kərimzadə

## Neftçala “Avtonəqliyyat” ASC səhmdarlarının nəzərinə!

9 iyun 2026-cı il saat 12.00-da Neftçala “Avtonəqliyyat” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** Neftçala “Avtonəqliyyat” ASC-nin 2025-ci ilin yekunu və qarşıda duran vəzifələri haqqında.

**2.** ASC-nin müşahidə şurasının və sədrinin seçilməsi.

**3.** ASC-nin təftiş komissiyasının hesabatı və yeni heyətin seçilməsi.

**4.** Səhmdar cəmiyyətin 2025-ci ilin yekununa görə dividendlərin bölüşdürülməsi.

**Ünvan:** Neftçala şəhəri, M.Ə.Sabir küçəsi 3.

## “Finex Kredit” BOKT ASC səhmdarlarının nəzərinə!

12 may 2026-cı il saat 11.00-da Bakı şəhəri, Nərimanov rayonu, Z.Bünyadov prospekti 1965-ci məhəllə, “Çinar Park” Biznes Mərkəzi, bina 1, ofis 413 nömrəli ünvanda “Finex Kredit” BOKT ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** Nizamnamə kapitalının artırılması barədə müzakirə.

**2.** Müşahidə şurasının tərkibinin formalaşdırılması barədə müzakirə.

**3.** 2025-ci ilin maliyyə-təsərrüfat yekunlarına aid kənar auditin hesabatı üzrə müzakirə.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələlərlə bağlı sənədlərlə hər həftənin çərşənbə axşamı günləri saat 12.00-dək tanış ola bilərlər.

**Əlaqə telefonu:** (+994 12) 311-41-45.
**E-mail:** info@finexkredit.az
**Ünvan:** Bakı şəhəri, Nərimanov rayonu, Z.Bünyadov prospekti 1965-ci məhəllə, “Çinar Park” Biznes Mərkəzi, bina 1, ofis 413.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 61 (31030) 11 aprel 2026-cı il, şənbə

## İDMAN

### Misli Premyer Liqasında XXVII tur



**Dünən Futbol üzrə Azərbaycan Premyer Liqasında XXVII tura start verilib. Günün yeganə oyunu Yevlaxda keçirilib. Gəncənin "Kəpəz" komandası "Karvan-Yevlax"ın qonağı olub. Qarşılaşma meydan sahiblərinin 4:1 hesablı qələbəsi ilə yekunlaşıb.**

Yevlax təmsilçisinin qollarını 38, 45+1 və 90+4-cü dəqiqələrdə Rauf Rüstəmli, 65-ci dəqiqədə Eltun Turabov vurub.

Gəncə komandasının heyətində 48-ci dəqiqədə Fərid Nəbiyev fərqlənib.

Turnir cədvəlində Gəncə təmsilçisi 21 xalla 10-cu, Yevlax klubu isə 11 xalla sonuncu – 12-ci pillədə yer alıb.

Qeyd edək ki, XXVII turun digər oyunları aprelin 11-12-də keçiriləcək.

### Güləşçilərimiz "Zəfər Kuboku"nda




**Azərbaycanın sərbəst və yunan-Roma güləşçiləri Türkiyənin Antalya şəhərində təşkil olunacaq U-17 yaş qrupu üzrə "Zəfər Kuboku"nda iştirak edəcəklər.**

Azərbaycan Güləş Federasiyasından verilən məlumata görə, böyük məşqçi Rafiq Hüseynov, məşqçilər Kamran Məmmədov, Zöhrab Abbasov və Müşviq Məmmədovun rəhbərliyi altında Əli Cavadlı, Əli Musayev (hər ikisi 45 kq), Ömər Salmanov, Yusif Mirzəyev, Ümid Babayev (hamısı 48 kq), Abdurrahman Hüseynli, Hüseyn Mustafazadə (hər ikisi 51 kq), Qurban Məcnunov, Amin Məmmədov (hər ikisi 55 kq), Elmir Çərkəzov, Elmir Abdulla (hər ikisi 60 kq), Orxan Həbibli, Nihad Məhərrəmov (hər ikisi 65 kq), Nadir Həsənov, Əli Məmmədov, İbrahim Babayev (hamısı 71 kq), Ruslan Nuriyev, İsfahan Həsənov, Zəka Yusubov (hamısı 80 kq), Zöhrab Səfərov (92 kq), Emin Baxşəliyev, Məhəmməd Mustafayev və Manaf Məmmədli (hər 3-ü 110 kq) yunan-Roma güləşində uğur qazanmağa çalışacaq.

Sərbəst güləş üzrə millinin tərkibində isə böyük məşqçi Əsgərxan Novruzov, məşqçilər Yaşar Əliyev və Allahverdi Vəliyevin rəhbərliyi altında Tunar Həsənov (45 kq), Hüseyn Rzazadə (48 kq), İbrahim Həsənov (51 kq), Abbas Şəfiyev (55 kq), Vahid Məmmədov (60 kq), Rəşid Nazarov (65 kq), Tunar Quliyev (71 kq), Nihad Süleymanlı (80 kq), Elgün Kərimli (92 kq) və Hakim Tağıyev (110 kq) yer alacaq.

Qeyd edək ki, aprelin 12-dən 14-dək təşkil olunacaq ənənəvi yarışda II dərəcəli hakim Xəyal Əliyev ədaləti qoruyacaq.

### AFFA və UEFA-nın birgə layihəsi



**AFFA-nın təşkilatçılığı ilə Təhsil və Reabilitasiya Mərkəzində UEFA-nın C kateqoriyalı məşqçi kursunun sonuncu mərhələsi başa çatıb.**

AFFA-nın mətbuat xidmətindən verilən məlumata görə, məşğələlərə təlimatçılar İlham Əzizzadə, Dəyanət Əliyev və Xanlar Əliyev rəhbərlik ediblər.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Milli futbol – 115*

# "Reportajı aparırdı Valid Sənani"

**Bu gün 115 yaşlı Azərbaycan futbolunda əlamətdar gündür. Dövlət televiziyamızda Azərbaycan dilində ilk reportaj 69 il əvvəl məhz bu gün, 1957-ci il aprelin 11-də efirə getmişdir. Həmin reportajla tarix yazan isə təkcə futbolumuzda yox, bütün idmanımızda, mətbuatımızda tanınıb, məşhurlaşmış telejurnalist, 1935-ci ilin mülayim may axşamında İçərişəhərdə anadan olub, taleyin hökmü ilə milli futbolumuzun 100 illik yubileyinin qeyd olunduğu 2011-ci ildə 76 yaşında əbədiyyətə qovuşmuş, respublikamızda futbol oyunlarının televiziyada Azərbaycan dilində ilk şərhçisi, Əməkdar jurnalist Valid Sənani olmuşdur. Hörmət və ehtiramla yad edirik.**

Digər mərhum həmkarım, daha bir Əməkdar jurnalist, o zaman bir çox il ərzində Azərbaycan Radio və Televiziya Verilişləri Komitəsində V.Sənani ilə çiyin-çiyinə çalışmış və təbii ki, onu daha yaxından tanımış Abas Əzimovun Azərbaycan futbolunun bir əsrlik yubileyi münasibətilə 2011-ci ildə nəşr etdirdiyi "Xatirələr işığında" kitabında dost və həmkarı haqqında geniş bir yazı da var. Görək, müəllif maraqlı məlumatlarla zəngin olan məqalədə Valid müəllim haqqında nələri qələmə alıb.

A.Əzimov yazıya "Danışır və göstərir Bakı" sərlövhəsi ilə başlayıb, qeydlərini bundan sonra oxuyacağınız sətrlərlə davam etdirmişdir. *Məqaləni kiçik ixtisarla təqdim edirik:*

"Mikrofon və kameralarımız Lenin adına Respublika stadionundadır".

– Bu sözlərlə ilk dəfə efirə çıxan biz jurnalistlərin sevimli dostu Valid Sənani idi. Bu, 1957-ci il aprelin 11-də olmuşdu.

Vaxtilə Valid bu barədə mənə belə demişdi: "O illərdə futbol reportajlarını rus dilində "Neftyanik"in (onda komanda belə adlanırdı–O.B.) keçmiş oyunçusu Aleksandr Qnezdov aparırdı. Bir dəfə Azərbaycan Radio və Televiziya Verilişləri Komitəsi sədrinin müavini Ənvər Əlibəyli (Allah ona rəhmət eləsin) məni yanına çağırıb dedi: Sən futbol reportajı apara bilərsən? Mən bir az tərəddüddən sonra razılığımı bildirdim.

Bundan bir neçə gün sonra Ənvər müəllim məni özü ilə respublika stadiounun apardı. Həmin gün burada Azərbaycan çempionatının növbəti turunun oyunu keçirilirdi. Yaxşı yadımdadır, Suraxanının "Kompressor" və Bakının OİK komandaları görüşürdülər. Ənvər müəllim məni sınaq məqsədilə stadiona gətirmişdi. O vaxt stadionda reportaj aparmaq üçün elə bir şərait yox idi. Bir yer tapıb oturdum. Çox həyəcanlı idim. Bilirdim ki, reportaj efirə getməyəcək. Buna baxmayaraq, həyəcanlı idim. Oyunun birinci hissəsindən sonra fasilədə operatorlar məni təbrik etməyə başladılar. "Çox yaxşı idi" dedilər. Mən təəccübləndim. Siz haradan bilirsiniz? Dedilər ki, reportaj birbaşa translyasiya olunur. Görüşün ikinci hissəsini də şərh etdikdən və oyun başa çatdıqdan sonra Ənvər müəllim mənə yaxınlaşıb təbrik etdi: "Hazırlaş, bundan sonra "Neftyanik"in oyunlarını sən şərh edəcəksən".

Valid 1957-ci ildən Azərbaycan radiosunun "Xəbərlər" baş redaksiyasında redaktor vəzifəsində işləməyə başlamışdı. Burada baş redaktor vəzifəsinədək yüksəlmişdi. O, jurnalistika fakültəsində təhsil almasa da (1957-ci ildə Azərbaycan Dövlət Universitetinin geoloji-coğrafiya fakültəsini bitirmişdi), özünü istedadlı, peşəkar jurnalist kimi tanıtmışdı. "Xəbərlər" baş redaksiyasının keçmiş baş redaktoru Hacı Hacıyev (Allah ona rəhmət eləsin) deyərdi: "Valid növbədə olanda mən arxayınam ki, hər şey yaxşı olacaq".

Məni jurnalistikaya cəlb edən də Valid olmuşdu. Tez-tez məni yarışlara göndərər, oradan xəbər gətirməyi tapşırardı. Validi müəllimim hesab edirəm. Jurnalist kimi yetişməyimdə onun böyük əməyi olmuşdur.

Həmkarım idmanı çox sevirdi. O, 1959, 1963 və 1967-ci illərdə jurnalist dostu Altay Zahidovla Moskvada keçirilən SSRİ xalqlarının spartakiadalarında olmuş, oradan operativ şəkildə Azərbaycanın idman ictimaiyyəti üçün reportajlar hazırlamışdı. 1963 və 1967-ci illərdə mən də Moskvada onlarla birlikdə çalışmışam.

Valid Sənani idman növlərindən ən çox futbolu sevərdi. "Neftyanik"in Bakıdakı oyunlarını hər dəfə izləyərdi. Bir çox futbolçu ilə dostluq edərdi. O, 1957-ci ildən sevimli komandasının oyunlarını həm televiziya, həm də radio ilə şərh etməyə başlamışdı. "Neftyanik"in 100-dən çox görüşündən reportaj aparıb.



Təkcə Bakıdan deyil, Moskva, Kiyev, Tbilisi, Rostov, İrəvan və başqa şəhərlərdən də oyunları şərh edirdi.

Valid Radio və Televiziya Verilişləri Komitəsində işləyərkən idarəyə yeni gəlmiş diktor Ofeliya xanımı görmüş və onu sevmişdi. Onlar bir oğul və bir qız böyüdüb boya-başa çatdırmışlar. Hazırda onların da öz ailələri var.

Valid Sənani 1989-cu ildə Azərbaycanın Əməkdar jurnalisti fəxri adına layiq görülüb. Bundan iki il sonra isə Azərbaycan Jurnalistlər Birliyinin sədr müavini seçilib və ömrünün axırınadək bu vəzifədə çalışıb.

Unudulmaz həmkarım çox yaxşı dost, səmimi insan idi. Heç kəsin xətrinə dəyməzdi. Ruhu şad olsun".

*Yazını təqdim etdi:*
*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

*Yazıya pozu yoxdur*

# Bir məktubun müəllifi



**O, etdiyi yaxşılıqları, xeyirxahlığı, mərhəməti və insanpərvərliyi ilə sayılıb-seçilirdi. Səmimi, müdrik və qayğıkeş insan kimi kəndimizin adamları tərəfindən zaman-zaman xatırlanır Uğurlu dayı. Adı kimi, işləri, əməlləri də uğurlu, ömür çırağı nurlu idi.**

Uğurlu dayı uzun müddət kəndimizdə kolxoz sədri, sovxoz direktoru və kənd sovetinin sədri vəzifələrində işlədi. Yaddaşlarda yaxşı adı ilə qaldı. O, mənim də yaddaşımda unudulmaz izlər buraxıb.

Bir gün məktəbdən çıxıb evə gedəndə kənd sovetinin binasının qarşısında məni görüb dayandı və gülümsündü. Əl verib görüşdü, iş otağına qalxmaq üçün gedəndə dedi:

– Gəl, otağa qalxaq, sənə sözüm var. Sovet sədrinin o sözündən heç bir məna anlaya bilmədim. Böyük bir kəndin rəhbər şəxsinin orta məktəb şagirdinə nə sözü ola bilərdi?! Sanki bu sözün arxasında mühüm bir sirr dayandığını və bu sirri heç kəsə açmayacağını bildirmək istəyirdi.

Otağa daxil olanda oturmaq üçün yer göstərdi. Sonra da stolun siyirtməsindən bir məktub çıxardı. Dedi ki, bu məktubda yazılanları araşdırmaq üçün redaksiyadan kənd sovetinə göndəriblər.

Məktubu uca səslə oxudu. Orada kənd sovet sədrinin və məktəb direktorunun fəaliyyətindəki "nöqsanlardan" söhbət açılırdı. Ümumiyyətlə, heç ağlıma da gəlməzdi ki, rayon qəzetinə kimsə mənim adımdan kəndin rəhbər işçiləri haqqında belə bir "donos" yazar. Mən orta məktəb şagirdi idim. Belə bir "donos" məktubu yaza bilməzdim. Orada yazılanlar ucuz demoqogiyadan başqa bir şey deyildi. Məktubu yazanın xətti də orta məktəb şagirdinin xəttinə oxşamırdı.

Hələ orta məktəbdə oxuduğum illərdən arzum jurnalist olmaq idi. Ona görə də rayonda çıxan "Qələbə bayrağı" qəzetində kiçik məqalələrim dərc olunurdu. O müddət ərzində bütün yazdıqlarım doğulub yaşadığım, böyüyüb boya-başa çatdığım kəndin təbii gözəllikləri və zəhmət adamları haqqında olurdu. Qəzetdə vaxtaşırı məqalələrim çıxdığına görə, inandırıcı görünməsi üçün hansısa bədxah mənim adımdan redaksiyaya belə bir məktub ünvanlamışdı.

Uğurlu dayı mənimlə sağollaşanda əlini ehmalca kürəyimə vurub dedi:

– Bilirəm, bunu sən yazmamısan. Araşdırdıq, öyrəndik və yəqin etdik ki, bu, kimin dəst-xəttidir. Sənin atan çox yaxşı kişidir. Sən də yaxşı oğlansan. Zəhmətkeş ailənin halal çörəyi ilə böyüyüb boya-başa çatmısan. Çoxuşaqlı ailənizə böyük hörmətim var. Sən öz arzularına çatmaq üçün çalışırsan. Dərslərini də yaxşı oxuyursan, maşallah. Qəzetdə çıxan məqalələrini maraqla oxuyuruq. Həmişə həqiqəti yazırsan. Ümidvaram ki, sən gələcəyin jurnalisti kimi də həqiqəti yazacaqsan. Yolun uğurlu olsun, oğlum. Düz yolla gedənə hər yerdə yaşıl işıqdır. Pislik edən də, yaxşılıq edən də özünə edir.

...İllər ötdü. Mən universitetin jurnalistika fakültəsinə daxil oldum. Orta məktəbdə olduğu kimi, ali məktəbi də müvəffəqiyyətlə başa vurdum. İşlədiyim sahələrdə jurnalist fəaliyyətimi uğurla davam etdirirdim. Hər yay məzuniyyətimi doğma kəndimizdə keçirirdim.

Onun adını yazmağı etikadan kənar sayıram. Çünki onu uşaqlıq illərindən tanıyırdım. Vaxtilə yaylaq qonşusumuz olmuşdu. Gözəl bir yay günündə, qəfil qonaq kimi, məni görmək üçün kənd evimizə gəlmişdi. Uşaqlıq illərindən kəndimizin adamlarına həmişə, hər yerdə hörmət və ehtiramla yanaşmışam. Onu da hörmət- izzətlə qarşılayıb dedim:

– Xoş gəlmisən, köhnə dost, köhnə qonşu. Buyur, otur.

Səliqəli ləklərdə gül-çiçəklə əhatə olunmuş bağçamızda anam süfrə açmışdı. Həyətimizdəki tut ağacının altında stol qoyulmuşdu. Ləziz təamlardan və meyvələrdən süfrəyə düzmüşdü. Süfrədəki iri meyvə qabının içindəki ağlı-qaralı üzüm salxımları günəşin şəfəqləri altında kəhraba kimi işıldayırdı. Samavardan süzülən cökə çayının ətri həyətdəki güllərin ətrinə qarışmışdı.

Hər şey könül oxşayırdı. Dağlardan əsən meh hamımızda xoş əhvali-ruhiyyə yaratmışdı. Çay süfrəmizin ətrafında qohumlar da vardı. Hamı bir-birini maraqla dinləyir və hər kəs maraqlandığı mövzuda danışırdı. "Adsız qonaq" da öz bildiklərindən söz açır, hər kəsin başa düşməyəcəyi tərzdə söhbətə müdaxilə edirdi. Kəlmə-kəlmə, aramla, rabitəsiz danışırdı. Hərdən də mənə elə baxırdı ki, sanki üzr diləyirdi. Elə bil xəcalətindən özünə yer tapa bilmirdi. Danışdıqca alnını tər basırdı. Sifətindən üzüaşağı tər su kimi axırdı.

Sağollaşıb gedəndə onu yol qapısınadək ötürdüm. Hiss edirdim ki, nəsə demək istəyir, amma cürət etmir. Dedim:

– Bir sözün varsa, de, çəkinmə, "köhnə dost".

Bu sözlərdən sonra cürətə gəlib dedi:

– İllərdən bəri sənə demək istədiyim bir söz var. Ürəyimdən daş kimi asılı qalıb. Necə deyərlər, "desəm öldürərlər, deməsəm, ölləm". Vaxtilə sənə qarşı etdiyim bir naqis hərəkəti özümə bağışlaya bilmirəm. Öz günahımın cəzasını çəkirəm. Ömürə vəfa yoxdur. Sənə qarşı etdiyim vicdansızlıq mənə əzab verir. Vicdan əzabı çox ağır dərddir. Sən məni bağışla. O məktubu mən...

Sözünü yarıda kəsib dedim:

–Vallah, sənin mənə qarşı hansı naqis hərəkəti etdiyini xatırlaya bilmirəm. Nə günah etmisənsə, Allah günahından keçsin. Bir də ki, keçənə güzəşt deyərlər.

Handan-hana, Uğurlu dayının uzun illər bundan əvvəl öz iş otağında ucadan mənə oxuduğu məktub yadıma düşdü. Mənim adımdan kiminsə redaksiyaya göndərdiyi "donos" yazılmış məktubu xatırladım.

...O, məktubda öz adının əvəzinə mənim adımı yazdığını ömrünün son günlərində etiraf etdi. Yol qapısından çıxıb gedəndə arxasınca xeyli baxdım. Beli bükülmüşdü, ayaqları sözünə baxmırdı.

Üz-üzə söhbət edəndə də aydın görmək olurdu ki, xəstəliyinin əlamətləri üzünə çıxıb. Sifəti yarpaq kimi saralmışdı. Sağalmaz dərdə düçar olmuşdu. Özü də deyirdi ki, daha ölsəm, yaxşıdır. Əlbəttə, ona şəfa diləməkdən başqa sözüm qalmamışdı.

Bir də ki, nə deyim? Hər kəs öz əməlindən utansın!

*Həzi HƏSƏNLİ,*
*şair-publisist*

## HAVA

### Yağışların yeni dalğası...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Mülayim şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 8-11, gündüz 13-16 dərəcə isti olacaq. Atmosfer təzyiqi 760 millimetr civə sütunundan 764 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 75-85, gündüz 60-70 faiz təşkil edəcək.

Azərbaycanın əsasən dağlıq və dağətəyi rayonlarında havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısa müddətə intensivləşəcəyi, şimşək çaxacağı, dolu düşəcəyi, bəzi dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 6-8, gündüz 15-20, dağlarda gecə 0-5, gündüz 5-10 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi, hakimləri və aparat əməkdaşları sabiq hakim Südabə Həsənovaya həyat yoldaşı

**YAQUB ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Aslan Aslanov ailəsi ilə birlikdə Konstitusiya Məhkəməsinin sabiq hakimi Südabə Həsənovaya həyat yoldaşı

**YAQUB ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi Xanlar Vəliyev sabiq hakim Südabə Həsənovaya həyat yoldaşı

**YAQUB ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3126
SİFARİŞ 463
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
İmran BƏDİRXANLI
Çapa imzalanmışdır 00:00